**Taleh Cəfəroğlu**
**(Əsədov Taleh Cəfər oğlu)**

# *Zülmətdən keçən işıq*

**Şeirlər kitabı**
**(4-cü kitab)**

**"Elm və Zəka"**
**Bakı-2019**

**Redaktor və tərtibatçı: Elnarə Cəlilova**

***Taleh Cəfəroğlu (Əsədov Taleh Cəfər oğlu)***
***"Zülmətdən keçən işıq" (şeirlər kitabı, 4-cü kitab)***
***Bakı, "Elm və Zəka" nəşriyyatı, 2019, 462 Səh.***

**E** $\frac{\text{T4802080121}}{\text{462-2019}}$

**©Taleh Cəfəroğlu - 2019**



***Taleh Cəfəroğlu (Əsədov Taleh Cəfər oğlu) 1979-cu ildə Kəlbəcər rayonunun Cəmilli kəndində anadan olub. Hal-hazırda Goranboy rayonunda müvəqqəti olaraq məskunlaşıb yaşayır. Bu kitabında əvvəl "GİLEYLİYƏM" "HƏSRƏT NƏĞMƏLƏRİ" və "YANDIM HƏSRƏT ODUNDA" adlı kitabları işıq üzü görüb. Azərbaycan Yazıçılar birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. AKİV-nin "Qızıl Qələm" media mükafatına layıq görülüb, Azərbaycan Respublikası, Mədəniyyət Nazirliyi, Goranboy rayon Mədəniyyət Mərkəzinin Əli Nəimi birliyinin diplomu ilə təltif edilib. Ailəlidir, iki övladı var.***

# Ö N S Ö Z

## ALIN YAZISI

Həyatda “alın yazısı” deyilən bir məfhum var. Gəncikən bu həqiqətə biz inanmasaq da, yaşa dolduqca, kamilləşdikcə bunun həqiqət olmasına inanmaya bilmirik. Bəlkə də bu “yazı” alnımıza ana bətninə düşdüyümüz andan, mayalandığımız vaxtdan yazılır!

Kiminin şair, kiminin rəssam, kimin bəstəkar, olması elə, bəlkə də o vaxtdan tanri tərəfindən müəyyənləşdirilir. Bəlkə də Taleh Cəfəroğlunun da alnına şairlik elə ana bətninə düşdüyü andan yazılmışdır. Belə bir həqiqət var ki, natiqlər “yetişir, şairlər doğulur”.Doğrudan da rəssamlığın, bəstəkarlığın akademiyası olduğu halda, şairliyin adi bir fakültəsi də belə yoxdur.

Qarşımda bir kitab var - “Zülmətdən keçən işıq”. Bəlkə də bu “işıq” Talehin qəlbinə anasinın qaranlıq qoynundan süzülüb axmışdır ki, bu gün doğulan yüzlərlə şeir o işığın nurundan süzülüb “göllənmişdir”!

Şairlərə xalqının, soyunun, kökünün yerinə danışmaq səlahiyyətini, hər iki dünya sərvəri böyük peyğəmbərimiz, Məhəmməd peyğəmbər vermişdir. Böyük Türk mütəfəkkiri Farruk Çənlibel deyirdi -şairlik kef deyil, ömürlük üzüntü, əzab-əziyyət və sarsıntı deməkdir. Yazılan hər bir şeirin arxasında azı iki, üç dəfə, bəlkə də daha çox ölüb-dirilən bir şair ürəyi, bir şair taleyi dayanır.

Taleh Cəfəroğlu da ürəyi ayrılıqdan, həsrətdən paran-parça olan minlərlə soydaşlarımızdan biridir, Vətən dərdi, Kəlbəcər həsrəti onu qayğısız yaşamağa bircə an belə buraxmadığını aşağıdakı "Kəlbəcər" şeirindən aydın görürük:

*Bax, bu gün geyindi qəm libasını,*
*Bax , bu gün alışdı, yandı Kəlbəcər !*
*Bax, bu gün buz oldu ana qolları,*
*Bax, bu gün soyuqdan dondu Kəlbəcər !*

Taleh Cəfəroğlunun şeirləri Dədə Şəmşir sazından, Bəhmən hikmətindən, Sücayət həsrətindən, Ənvər "heyrətindən" süzülüb gəlmişdir.

Taleh Cəfəroğlu gənc olmasın baxamayaraq, onun şeriləri çiçəklərin ətrindən, bulağın saflığınından, yaz mehinin titrəyişindən, qayanın sərtliyindən, palıdın möhtəşəliyindən, təbətin min-bir rəngə çalan möcüzələriylə yanaşı, Dədə Şəmşir sazından, Bəhmən hikmətindən, Sücayət həsrətindən, Ənvar "heyrətindən" myalanmışdır. Bu elə bir mayadılr ki, heç vaxt, heç zaman qurumur, tükənmir, insanın, xüsusən yaradıcı insanı hex vaxt tərk etmir, yüzlərlə, minlərlə şeirin, əsərin, xatirənin yazılmasına səbəb olur, bu halal maya daşın üstündə çiçəyi bitirə bilir, ən ağır dərd dağlarını çiynində götürə bilir, bu günün dərdlərini şeirin diliylə gələcək illərə yetirə bilir. Nəhayət bu maya gücə, qüvvətə, qüdrətə, qeyrətə dönüb alçaq düşməni böyük həqiqətin ayağına gətirə bilir.

*Ölsəm ağlama, oğlum, bayrağıma bük məni,*
*Yandır, külümü götür,Vətənimə tök məni.*
*Talehəm, hər qarışda, hər addəmda ək məni,*
*Canım Vətənə fəda, mən ona and içirəm !*

Taleh üçün Kəlbəcər bir rayonun, bir mahalın, adı deyil. Kəlbəcər qoyub gəldiyi evin ,ocağın adıdır, köhlə-ninin şahə qalxdığı, sürüsünün yayıldığı örüşün, çörəyi-nin ətrini unuda bilmədiyi təndirin adıdır və obrazıdır. O,Kəlbəcəri kənd-kənd, oba-oba deyil, bütöv bir dünya kimi görür. Haraya getsə, harada yurd-yuva salsa da, oraya bütölüyün işığını salır.

*Biz arsızıq, dünya bizə dar olmur,*
*Biz söyüdük, bizdə sənə bar olmur.*
*İyirmi beş il əsirlikdə "yar" olmur,*
*Çıx, ay mənim əsir olan Vətənim !*

Nəzər salsaq,Talehin şeirlərində acı bir üsyan, qəzəb-li bir həsrət nəzərə çarpır. Onun "Ağlama şəhid anası" şeirini qəzəbsiz oxumaq mümkün deyil.

*Tanrı sevir mələkləri,*
*Əsir cənnət "küləkləri".*
*Nalə çəkib, ürəkləri--*
*Dağlama, şəhid anası,*
*Qisas vaxtı yaxındadı,*
*Ağlama, şəhid anası !*

Taleh öz duyğularını sözə çevirib, ona poetik nəfəs verməyi bacaran söz əhlidir. Onun şeirləri ona görə oxucunun qəlbinə yol tapır ki, orda işlənilən hər bir ifadə, lirik ricət insanın ruhuna doğmadır, yaxındır. Onun müraciət etdiyi obyektlər də çox sadədir, həmdə Taleh müraciət etdiyi istənilən obyektə maraqlı süjet qurmağı bacarır. Taleh Cəfəroğlu geniş bədii təxəyyülə, coşqun ilhama, orijinal deyim tərzinə malik şairdi. O yazdığı istənilən şeirində bitkin süjet qurmağı, bədii təsvir vasitələrindən ustalıqla, yerli-yerində istifadə etməyi bacarır. Talehin yaradıcılığı təkcə Vətən mövzusu ilə bitmir.Onun təbiət gözəlliklərinə, dövrün təzadlarına həsr olunmuş şeirlərinə, hətta silsilə divanilərinə, təcnislərinə, sevgi şeirləinə də rast gəlirik. Bunların hərəsindən bir bənd misal gətirmək kifayətdir. Təbiətin təsvirinə həsr etdiyi şeirlərindən "Dağlar" şeirindən bir bənd misal gətirmək məqsədə uyğun olardı.

*Dərdin, qəmin xəstəsiyəm,*
*Bir kamanın bəstəsiyəm.*
*Qərib könül xəstəsiyəm,*
*Təkcə sənə "yaram" dağlar !*

Və yaxud divanilərindən bir bənd:

*İnsanlığı dərk eləməz, yoldan ötən hər naşı,*
*Zərgər taxmaz üzüyünə, parıldayan hər qaşı.*
*Rəva bilmə astarına, yamaq vurma nimdaşı,*
*İç üzünü göstərəndə, bezin abırdan gedər !*

Təcnisə gəldikdə, təcnis heca vəznininin ən ağır formasıdır.Talehin yazdığı təcnislər, orijinal deyim tərzindən, işlənməmiş cinaslardan ibarətdir,

"Qanadı axı" təcnisinin bir bəndinə nəzər salaq:

*Həsrətin, ay zalım, mən əsirindi,*
*Açmağın xeyri yox, mənə sir(r) indi.*
*Sən azad bir quşsan, mən əsir indi,*
*Sınıqdı eşqimin qanadı axı...*

Taleh Cəfəroğlunun yaradıcılığında məhəbbət mövzusu xüsusi bir yer tutur. Orda hisslərin səmimilyi və axıcılığı çox inandırıcı boyalarla təsvir edilir. Mən buna misal olaraq şairin "Dedim-dedi" şeirinin üstundə dayanmaq istəyirəm. Yaxşı fikir verin, görün bu şeirdə şair öz duyğularını necə səmimi, necə incəliklə verə bilmişdir, mən bu altı bənddən ibarət olan şeirin üç bəndini oxucuların ixtiyarına verirəm:

*Dedim--bir etiraf edirəm sənə,*
*Vədəsi çatanda edərsən--dedi !*
*Dedim icazə ver, girim qəlbinə,*
*Orda tənha qalıb, bezərsən--dedi !*

*Dedim -bu sevgidə payım ol mənim,*
*Dedi -gəl əvvəlcə tayım ol mənim.*
*Dedim -baharım ol, yayım ol mənim,*
*Atəşimdə yanıb, bişərsən -dedi !*

*Dedim -qoy mən olum, bir səhər mehi,*
*Dedi -gəl incitmə, gül üstə şehi.*
*Dedim -sev, qurbanlıq istə Talehi,*
*Deyəsən bax buna, dəyərsən -dedi !*

Nəhayət, dəyərli oxucular, elə hecab edirəm ki, Taleh Cəfəroğlunun "Zülmətdən keçən işıq" kitabı da poeziyasevərlər tərəfindən maraqla qarşılanaraq böyük oxucu məhəbbəti qazanacaq. Şairə bu ağır və şərəfli sənət yolunda uğurlar arzulayırıq.

**Məhəbbət Kəlbəcərsiz**
***AYB-nin üzvü, şair.***
***06 noyabr 2019***


QOŞMALAR

# Varıymış

Eniş, yoxuş, düz yeridim, bilmədim,
Bu dünyanın nərdivanı varıymış.
Eşitdim ki qalmayacaq mənə də,
Onun neçə Süleymani varıymış.

Kim gəldisə , qarşısında diz çökdü,
Gör nə qədər bel sındırdi , diz bükdü,
Yaşamadı, Allahına dil tökdü.
Rüstəm adlı pəhləvanı varıymış.

Gəldi-getdi neçə-neçə peyğəmbər.
Heç biri də, tam olmadı biləndər.
Ölən vaxtı dərk elədi İsgəndər,
Ona bircə şirin canı varıymış.

Qılınc çaldı, Firon tutdu dünyanı,
Öz qanında boğdu neçə insanı.
Fironun da qazandığı, bəs hanı..
Dünya boyda kəhkəşanı varıymış.

Balıqları o salırmış qarmağa,
O gəlirmiş bizə səbəb durmağa,
Yerdəkinə yerdə divan qurmağa,
Goydəkinin öz divanı varıymış.

Cəfəroğlu ona getmə minnətə,
Tanrı baxmır vara, pula zinnətə.
Cavab verib keçmək üçün cənnətə.
Cəhənnəmin imtahanı varıymış.

*6 noyabr 2019*

## Özünün başına dönüm bu elin

Mənim Cəmillimdən qalan bu eldi,
Pisinin başına dönüm bu elin.
Hamıdan seçilib geridə qalmış,
Kəsinin başına dönüm bu elin.

Hansı yanda olsa, nəfəsi gəlsin,
Sağ olsun, dalınca nəvəsi gəlsin.
Yaxşı da, yaman da, qoy səsi gəlsin,
Səsinin başına dönüm bu elin.

Bir işim pozulub, tapmasa çəmi,
Mənə düşərlidi onun qədəmi.
Çıxsa qabağıma tək səbir kimi,
Nəsinin başına dönüm bu elin.

Qurbandı bu canım, hansı istəsə,
Qoymaram biri də şairdən küsə.
Mənə can da desə, zəhər də desə,
Sözünün başına dönüm bu elin.

Gen gündə sakitcə kənardan ötən,
Dar gündə dağ kimi yanında bitən,
Biri yıxılanda dadına yetən,
Yüzünün başına dönüm bu elin.

Niyə kövrəlmişəm yenə, bilmirəm.
Yaş boğur gözümü, dinə bilmirəm,
Yurdunun başına dönə bilmirəm,
Özünün başına dönüm bu elin.

Taleh, haqqın yorulmayan dizi var,
Dönər el o yurda, geci, tezi var.
Hara qədəm qoyub, harda izi var,
İzinin başına dönüm bu elin.

*6 noyabr 2019*

## Dar olsun

Şərəfini puldan ucuz tutana,
Şərəfsizə, biqeyrətə ar olsun.
Vətənini, millətini satanlar,
Günahkarlar el içində xar olsun.

Oyunbazlar arzusuna yetdisə,
Kişiliyin zəmanəsi getdisə,
Kim bu yurda xəyanəti etdisə,
Görüm ona bu gen dünya dar olsun.

Parçaladı bu vətəni talanlar,
Zəlil qoydu bu milləti olanlar.
Üzə çıxsın dərindəki yalanlar,
Sirri bütün aləmlərə car olsun.

Uca Allah göydə tutan qoparsın.
Yer özünü bu zülmdən qurtarsın,
Yamanları cəhənnəmlər aparsın.
Yaxşılara dar günündə yar olsun?...

Taleh Cəfər, hərə tapsın tayını,
Çıxarmasın bu dünyanın zayını.
Hamı alsın əməlinin payını,
İki aləm bu dünyada var olsun.

*6 noyabr 2019*

## Ay vətən, gör səni nə günə saldıq..

Kimsə oyun qurdu, oynadı bizlə,
Utanıb ölmədik əməlimizlə,
Səni, parçaladıq öz əlimizlə,
Bölüb hər tikəni, bir yana saldıq.

Ələ öyrətdilər millətimizi,
İkiyə böldülər dövlətimizi,
Talayıb, yedilər sərvətimizi,
Bizə pay düşəndə, kənarda qaldıq,
Ay vətən, gör səni nə günə saldıq...

Düşmən at oynatdı dörd yanımızda,
Oyanış olmadı vicdanınızda.
Qan gölü yarandı Xocalımızda,
Biz o axan qanı beləmi aldıq?...
Ay vətən, gör səni nə günə saldıq...

Yuxarıda tutduq dövləti, varı,
Ayıra bilmədik yadla dostları,
Öpüb qucaqladıq kresloları.
Gələnə, gedənə şapalaq çaldıq.
Ay vətən, gör səni nə günə saldıq..

Dərdinin düyünü çözuldü, getdi,
Ay aya, il ilə düzüldü, getdi.
Əlimiz hər yerdən üzüldü, getdi,
Əlimiz çənədə, xəyala daldıq,
Ay vətən, gör səni nə günə saldıq...

*6 noyabr 2019*

# Haaa...

Olmayanı mümkün edir zəmanə,
Səni tutar qapındakı tula ha...
Çalış düşmə qudurmuşun əlinə.
Qudurmuşlar çətin gəlir yola ha...

Artıq olsa pul adamı çaş qoyur,
İnsaf olan ürəklərə daş qoyur.
Axirətdə əllərini boş qoyur.
Bax, nə badə, aldanasan pula ha...

Yığdığını bankalara ötürmə.
Halal qazan, haram maya götirmə.
El yanında hörmətini itirmə,
Bir az hörmət tədarük et dala ha…

Baxma bu gün vəzifən var, müdirsən,
Ağlın itər insafını itirsən.
İkisindən birini tut görürsən,
Vicdan ilə tamah getmir yola ha...

Orasısından burasından çəkdirər,
Silikon qoyar, dişlərini əkdirər.
Yırtığını-söküyünu tikdirər,
On beş yaşlı qız görünər xala ha...

Kəsilibdi sevənlərin çörəyi.
Gör qalıbmı məhəbbətin gərəyi?...

Pula qaçır Leylilərin ürəyi,
Cavan qızlar tamah salır çala, ha....

Tərbiyəsi həris olur beşikdən,
Siçovullar qızıl güdür deşikdən.
Siçan pasport tələb edir pişikdən.
Ceyran südü dil açdırır lala ha....

Zaman gələr tənəzzülün başlanar,
Dost-tanişlar ətrafından daşdanar.
Əməllərin öz üstünə tuşdanar,
Az lağ eylə onu-bunu dola ha...

Fikir vermə yaltaqların sözünə,
Dünya xırda görünməsin gözünə.
Quru-quru bəy dedirtmə özünə.
Sonrasında çoxu dönür qula ha...

Qoyma səni otaralar, mal olma.
Haqqını bil, hər yetənə qul olma.
Kim eşşəkdi, sən də ona çul olma.
Kürəyini çox öyrətmə çula ha....

Cəfəroğlu gəldi-getdi bu yoldan,
Pay ummadı nə ağadan, nə quldan.
Öz dərdini özün daşı, özün yan.
Öyüd dinlə, ağıllı ol bala, ha...

*4 sentyabr 2019*

# Faydası yoxdu

Sürüşkən ayağı, sürüşkən gözü,
Yola duzəltməyin faydası yoxdu.
Qəbir yoldaşıdı ləkəli namus,
Onu pak etməyin faydası yoxdu.

Çirkin əməllərə eyləsən adət,
Sabah da olacaq dünənki qələt.
Buraxdığın səhvi yerində düzəlt.
Yanından ötməyin faydası yoxdu.

Hər gələn yaşamaz paşa taleyi.
Kimsənin dəyməsin daşa taleyi.
Yaradan yazıbsa qoşa taleyi,
Ortada bitməyin faydası yoxdu.

Qanqalın toxumu çiçək bitirməz.
Söyüdün calağı meyvə gətirməz.
Sağsağan bülbüldən öyüd götürməz.
Üstünə getməyin faydası yoxdu.

Anla Cəfəroğlu həqiqətləri,
Tanrı bağışlamaz xəyanətləri.
Qaranlıq örtmürsə cinayətləri,
Kölgədə itməyin faydası yoxdu.

*4 sen 2019*

## Ürəyim

Zilə çıxmaq arzusundan ta daşın,
Yavaş yavaş bəmə köklən ürəyim.
Cazı-mazı qırağa qoy sən başın,
Get üçtelli simə köklən ürəyim.

Dizin tutmur, olub səndən gileyli,
Dolanırsan səhralarda tüfeyli.
Gör harana yaraşandı o Leyli?...
Az xəyal qur dəmə köklən ürəyim.

Gələn deyil maralların görüşə,
Qoruq olub, yaşıl orman, sıx meşə.
İstədiyin olmayacaq həmişə,
Bundan sonra kəmə köklən ürəyim.

Qocalığın hədələri başlanıb,
Dost-tanışlar dörd yanından daşlanıb.
Umu-küsü uşağı tək xoşlanıb,
Bir quruca himə köklən ürəyim.

Cəfəroğlu, yoxdu canın tutarı,
Geri gəlməz gedən ömrün qatarı.
Bas sinənə, o kamanı, o tarı,
Sevinci at, qəmə köklən ürəyim.

*6 sen 2019*

## Səf çəkir

Tarazlığı pozulubdu dünyanın,
Tərəzisi çəkdiyini səf çəkir.
Bir gözündə ac-yalavac yığışıb,
Bir gözündə muftəxorlar kef çəkir.

Varlıların gözü çaşıb, hul görür,
Kasıbları, qarşısında qul görür,
Adamların işlərini pul görür,
Vəzifəyə insanları civ çəkir.

Əyrilərim geyə-geyə min donu,
Dağıtdılar hər nizamı, qurğunu.
Köhnəlibdi ədalətin qanunu,
Küncdə qalıb, künc-bucaqdan kif çəkir.

Adətimiz, ənənəmiz əllənib, (kirlənib)
Bulaqların saf mayası lillənib,
Cəfəroğlu elə şələ şəllənib,
O şələ ki, o şələni div çəkir.

*14 avg 2019*

## Bala...

Oralar xəyanət yuvalarıdı,
Çaşıb oralarda dolaşma bala.
Bəzi yer şeytanın şahlığındadı,
Şeytanın şərinə bulaşma bala.

Barda leyla gəzmə, barda yar olmaz,
Kafe gözəlində, etibar olmaz.
Göbək oynadanda abır, ar olmaz,
Gedib it qanına calaşma bala.

Əlinlə, qolunla ölçmə dörd yanı.
Dilindən oxuyar insan insanı.
Məclisə gedəndə yerini tanı,
Üz görüb həddini çox aşma bala.

Ana-ata etməz evdə yeri dar,
Ananın, atanın köhnəsimi var?...
İylənər ağacdan tezcə düşən bar,
Düşüb ayrı kökə calaşma bala.

Haram sarayların çökər dirəyi.
Sonda zəhər olar qumar çörəyi.
Axır, suda sınar suyun sənəyi,
Cumub sənəkçiylə sulaşma bala.

Gör sənə nə deyir bu dərdli ozan,
Çox getməz uzağa yolunu azan.
Gəl Taleh Cəfərdən nəsihət qazan.
Özündən böyuklə dalaşma bala.

*8 avg 2019*

## Zamana məni

Fələk oyun qurur, oynayır lələ,
Tuş edir qəlbimə damana məni.
Döyürəm başıma, bir əldi, bir daş.
Tapşırın ağlayan kamana məni.

Çıxdığı qınına lağ edir bağa.
Dədəni bəyənmir dünənki çağa.
Köhnə kişilərin dostuyam qağa,
Hardan anlasın ki zamana məni?...

Əsir hər tərəfdən əyri küləklər.
Gəlir məni tapır əyri kələklər?...
Çiynimdə yaşayan siz ay mələklər,
Vaxtında gətirin imana məni.

İtib Taleh Cəfər, itib namus-ar,
Az qalıb dağıda bu dünyanı var.
Barı, siz ey məni duyan adamlar,
Verməyin dar gündə yamana məni.

*8 avq 2019*

## Gəncliyimə

Duman gəlir, yollarımı bağlayır,
Bel bükülür, dişlər bir-bir laxlayır,
Ayaqlarım məni güclə saxlayır,
Daha məndən qayıtmağı gözləmə.

Payız gəzir çiçəklərin telində.
Bu dünyada bir ömrü var gülün də...
Çarəsizəm qocalığın əlində,
Daha məndən qayıtmağı gözləmə.

Kal tökülüb, nə bağçam var, nə barım,
Əzizləmir tellərimi tumarım.
O gedəndi, getdi mənim qatarım,
Daha məndən qayıtmağı gözləmə.

Dönüşüm yox, oxdan çıxan kamanam.
Asta-asta dağdan aşan dumanam.
Bir də gördün bir xəyalam, gümanam,
Daha məndən qayıtmağı gözləmə.

Bu Talehi gəl az axtar, az ara.
Tutulmuşam bir sağalmaz azara.
Gəlsə əcəl, alsa məni məzara,
Daha məndən qayıtmağı gözləmə.

*8 avq 2019*

## Ay Murov dağı

Təkcə Kəlbəcəri məndən almadın,
Atamı da aldın ay Murov dağı.
İndi mən qocaldım, ata da oldum,
Sən eləcə qaldın ay Murov dağı.

Qayğıkeş bilirdim o vaxtı səni.
Ələdin üstümə dumanı, çəni.
Hələ dil açmamış neçə körpəni,
Boranlara saldın ay Murov dağı.

Yetimliyi dərk edəndə özümdə,
Sevincimə qəm qarışdı üzümdə.
Mən Cəfəroğluyam, mənim gözümdə.
Bax onda alçaldın ay Murov dağı.

*8 avq 2019*

# Dağlara

Küsülülər bir-biriylə barışa,
Bülbül güldən əhvalını soruşa.
İki duyğu bir-birinə qarışa,
İki sevgi qonaq gedə dağlara.

Gedənlərə qucaq aça çəmənlər,
Çəmənlərdə çiçək dərə gül əllər.
Gizli-gizli pıçıldaşa könüllər,
İki könül pərvaz edə dağlara.

Taleh Cəfər, tez əriyə dağda qar,
Sevənlərin ürəyində arzu var.
Bu baharda dağa qonaq gələn yar,
Verə bir bahar da vədə dağlara...

*8 avq 2019*

## Kiriyən gördüm

Hamını qızdırmır odlar ölkəsi,
Bu odlar yurdunda titrəyən gördüm.
İstidə buz olan yetim nəfəsi,
Buzda alov tutub əriyən gördüm.

Tanrı heç də olmur yaxşılara yar.
Yuxarı başdadı mərdimazarlar.
Kim deyir dünyada haqq-ədalət var?
Haqqı pul yanında kiriyən gördüm.

Doydurmur gözləri dünyanın malı.
Tərsinə fırlanır dünyanın valı.
Doğrunun qolunda qanlı qandalı,
Yalanı hər yerdə yeriyən gördüm.

Batil eylədilər uca səsləri.
Daş-qalaq etdilər müqəddəsləri.
Taleh, el qeydinə qalan kəsləri,
Zindanlar küncündə çürüyən gördüm.

*30 iyun 2019*

## Vur ha vurasan
*(Tərsnamə)*

Elə ömür verə tanrı insana,
Bu qoca dünyada dur ha durasan.
Süleyman mülkündən gözün doymaya,
Qurub yaradasan, qur ha qurasan.

Kora dönməyəsən gələndə yeri,
Özünün gözündə görsən tiri.
Ləkəsiz yazıla əməl dəftəri,
İnkiri- minkiri yor ha, yorasan.

Əzrail, Cəbrail mələyin ola,
Sözünü eşidən, fələyin ola.
Yaxşını ələyən ələyin ola,
Yamanları seçib qır ha, qırasan.

Bir az yuxarıda taxta çıxasan,
Zalımı taxtından çəkib yıxasan.
İnsana verilən baxta baxasan,
Əyri yazıları cır ha cırasan.

Üzünə gəlməyə qocalıq nuru,
Gözünə gəlməyə qocalıq toru.
Ay Taleh çalmaya İsrafil suru,
Şeytan içkisindən vur ha vurasan.

*29 iyun 2019*

## Axı...

Tək sənin qapındı gələcəyim yer,
Mən özgə qapını döymərəm axı...
Sən mənə verilən tanrı payısan.
Mən sənin xətrinə dəymərəm axı...

Ah çəkmə, yandırar torpağı, daşı,
Gəl tökmə gözündən bu qədər yaşı.
Tək sənin eşqinə əyilən başı,
Kiminsə önündə əymərəm axı...

Səni əvəz etməz dünyada heç kim,
Ay mənim qəlbimə, ruhuma hakim.
Üşüsəm, eşqinə sığınar eşqim,
Mən özgə bir libas geymərəm axı...

Taleh bilir, gəl, sən də bil, biz nəyik,
Sən olmasan, mən olmasam, heç nəyik.
Topraqla Günəşik, taraz bəndəyik.
Mən o tarazlığı əymərəm axı...

*28 iyun 2017*

# Qızım

Səni əllərimlə məzara qoydum.
Fələyə güc gələ bilmədim qızım.
Üzümə bağlandı getdiyin qapı.
Bağışla, yanına gəlmədim qızım.

Gözü yaşlı qaldı sənsiz bir ana,
Bu da bir dərd oldu sənsiz atana.
Dedim ki dözmərəm ayrılığına,
Dedim ki ölərəm, ölmədim qızım.

Şirin xəyalının sehrinə daldım,
Hər açan çiçəkdən ətrini aldım.
Əlin dəyənlərə mehrimi saldım,
Ayaq izlərini silmədim qızım.

Talehəm həsrətin məni dağladı,
Kövrək ürəyimə qara bağladı.
Güləndə gözümdə gülüş ağladı.
Mən dolu ürəklə gülmədim qızım.

*17.12. 2007*

## Çaş verir

Mat qalıram bu fələyin işinə,
Yaxşıları yamanlara tuş verir.
Kasıbları səxavətli yaradır,
Varlıların ürəyini daş verir.

Tez-tez əyir xurcununun tayını.
Başda tutur zalımların sayını.
Doğru vermir doğruların payını.
Verəndə də bir gözünü çaş verir.

Yüz illərlə səhralarda kol durur,
Çiçəkləri bir baharda soldurur.
Müftəxorun çantasını doldurur.
Zəhmətkeşin çantasını boş verir.

Dolaşıbdı ədalətin cığırı.
Zəfər çalır yalanların ağırı.
Sevindirmək istəyəndə fağırı,
Ortasına zəhər qatıb aş verir.

Taleh Cəfər haqq yoluna gəl görək.
Bundan artıq söz deməyə nə gərək?
O kimiyə dünya boyda bir ürək,
O kimiyə qazan boyda baş verir.

*27 iyun 2019.*

## Göndər

Tanrı qapımızı qonaqsiz etmə.
Bizim də qapını döyəni göndər.
Verdiyin ruzudan qonaq da yesin.
Halalı qazanıb yeyəni göndər.

Qoyma aşiq olam sərvətə, pula.
Qıyma dünya varı ağlımı ala.
Doğruları çıxart getdiyim yola,
Mənə doğru yolu deyəni göndər.

Qoy olsun hamının meyvəsi, barı,
Pənahında saxla yaxşı dostları.
Sənin dərgahına üz tutanları,
Sənin hörmətinə dəyəni göndər.

Talehəm dalımca hürən görməyim.
Haqqı ayaqlara verən görməyim.
Özgə libaslara girən görməyim.
Özgə libasını geyəni göndər.

Tanrı qapımızı qonaqsiz etmə,
Bizə doğru yolu deyəni göndər.

*4 iyul 2019*

## Goranboy dağları qonağın gəlib

Çəmənə vurulub, çölə vurulub,
Bülbülə vurulub, gülə vurulub,
Bu gözəl, mehriban elə vurulub,
Goranboy dağları qonağın gəlib.

Deyəsən doymayıb keçənki yazdan,
Yolçunun səsindən gələn avazdan.
Salamlar gətirib Məmməd Arazdan,
Goranboy dağları qonağın gəlib.

Hər səni görəndə xəyala dalan,
Budur, Ənvər adlı o əziz balan.
Aparıb ağlını bənövşən, lalan,
Goranboy dağları qonağın gəlib.

Kazım Rəhimlinin sətrinə vurğun.
Səfərin şeirinin ətrinə vurğun.
Kəpəzin buluddan çətrinə vurğun.
Goranboy dağları qonağın gəlib.

Daşqın ocağından oğul gətirib.
Şəmşir ocağından ağıl gətirib.
Özünü farağat, mağıl gətirib.
Goranboy dağları qonağın gəlib.

Cığırların yorub ayaqlarını,
Günəşin yandırıb yanaqlarını.
Bulağın dondurub dodaqlarını.
Goranboy dağları qonağın gəlib.

Uzaq yolçu olub xətrinə sənin,
Vurulub sözünə, sətrinə sənin.
Naxçıvandan gəlib ətrinə sənin,
Goranboy dağları qonağın gəlib.

Gərək qabağında kəsək toğlunu,
Yığaq ocaq çataq şamı yulğunu.
Bu gün yada salıb Cəfəroğlunu,
Goranboy dağları qonağın gəlib.

*26 iyun 2019*

## Sən də ver

Fərsiz övlad öyüd almaz atadan,
İstəyirsən ona öyüd gündə ver.
Qənd yeməklə şirin olmaz acı dil,
Bəhməzə qat, şəkərə ver, qəndə ver.

Lap oxudub alim elə ulağı,
Söz anlamaz ,dartılmasa qulağı.
Qızıl gülə vurma söyüd calağı,
Az özünü kələyə ver, fəndə ver.

Əsli namərd doğulubsa anadan,
Zəhmət çəkmə, aqil olmaz bir nadan.
Gözü doymaz əzrailin dünyadan,
Ona qurban milyon dənə bəndə ver.

Pul imamdı, baxma ona bayağı.
Odu olan çoxlarının dayağı.
Kəsilərmi bu rüşvətin ayağı?...
Desən əgər qonşu verir, sən də ver.

Cəfəroğlu, eyni olmur adamlar.
Yer üzündə neçə üzlü adam var.
Gör halala öyrənərmi haramlar,
Apar ona toyuq da ver, hin də ver.

*25 iyun 2019.*

## Təpik tullasa

Qarğa yavaş-yavaş müğənni olar,
Hərə bir tərəfdən çəpik tullasa.
Ceyran tısbağadan geridə qalar,
Hərə bir tərəfdən təpik tullasa.

O xalq ki oyunu boynundan atdı,
Demək ki o xalqın padşahı matdı.
Ərəbin səhrada gəmisi batdı,
Dəvəni tərsinə yıxıb nallasa.

Hər taxtda çıxanı taxtdan salacaq,
Bu dünya axırda kimə qalacaq?...
Yamanlar əlbətdə başda olacaq,
Əzrail yaxşını gora sallasa.

Taleh, özün bilmə qohumu, yadı,
Qəlbində yoxdusa Allahın adı.
Gorda ağararmı, insan övladı,
Bu dünya üzünü qara yollasa?...

*24 iyun 2019*

## Bu dünyanın səbri yaman böyükdü

Bu dünyanın axıb gedən arxı var.
Bu dünyanın dəyişməyən çarxı var.
Bu dünyada görmədiyin qorxu var.
Bu dünyanın səbri yaman böyükdü.

"Mənəm" deyib gəl güvənmə sözünə,
Çox balaca görünməsin gözünə.
Nə eyləsən qaytaracaq özünə,
Bu dünyanın səbri yaman böyükdü.

Ay mənliyi kasıb, varsız adamlar.
Ay çinar tək başı barsız adamlar.
Ay ikiüzlü etibarsız adamlar,
Bu dünyanın səbri yaman böyükdü.

Gələnləri axıracan saxlamaz,
Gedənlərin arxasınca ağlamaz.
Qisasını qiyamətə saxlamaz.
Bu dünyanın səbri yaman böyükdü.

Cəfəroğlu, bu dünyanın kimisən?...
O biçinçi, sən də ona zəmisən.
Bir də gördün sən də onun yemisən,
Bu dünyanın səbri yaman böyükdü.

*12 may 2019*

# Olmaz

Qılıncı poladdan qayır ay usta,
Qızıldan qılıncın kəsəri olmaz.
Gözəllik axtarma quru libasda,
Libasda gözəllik əsəri olmaz.

Alçağı şah etməz tac da, atlas da,
Şahlara yaraşar təyğir libas da…
İstər yorğa getsin, istərsə asta,
Ulağın köhlənə bənzəri olmaz.

Qazanarsa halal tikə, halal pul,
Deməzlər insana "cənnətdən qovul".
Qızılın üstünə yatan siçovul,
Qızılın-gümüşün zərgəri olmaz.

Yerdə ol ay Taleh, çox tutma göyü,
Əyilsə, bar verər başından düyü.
Yüz sim də calansa, söyüd kötüyü,
Ellərin dilinin əzbəri olmaz.

*11 may. 2019*

## Necə dözdün?

Niyə dayanmadın kövrək ürəyim,
Bu qədər ağrıya sən necə dözdün?
Yarın burda qaldı, yarın o üzdə,
Böləndün ortadan tən, necə dözdün?

Ayrıldın dağlardan, uşaqlığınnan,
Qaçqın, köçkün oldun körpə çağınnan,
Barışa bilmədin qocalığınnan,
Düşdü saçlarına dən, necə dözdün?

Girovluqda qaldı anan Kəlbəcər,
İntihar eylədi sonan Kəlbəcər,
Yandı, söndü getdi yanan Kəlbəcər,
Aldı dağlarını çən, necə dözdün?

Özünə gəlmədin ay Cəfəroğlu,
Ürəkdən gülmədin ay Cəfəroğlu,
Sevinə bilmədin ay Cəfəroğlu,
Olmadın bircə gün şən, necə dözdün?

*10 may. 2019*

# Ay qız

Səni məhəbbətin qarğışı tutsun,
Sevəsən birini ölüncə ay qız.
Düşəsən çöllərə Leyla olasan,
Ellər tamaşaya gəlincə ay qız.

Sevən sevdiyinin canını almaz.
Sevən sevdiyini azara salmaz.
Qız belə, gül belə tikanlı olmaz,
Olsa pismi olar gül incə ay qız?

İnsaf et, gözəllər qan yatırırlar.
Sənə xəbərləri səf çatdırırlar.
Elə bil, sinəmə ox batırırlar,
Sən mənim üzümə gülüncə ay qız.

Bu qədər zülümkar olarmı xanım?
Talehəm, həsrətdən çıxıbdı canım.
İzin ver eşqindən alışım, yanım,
Özgələr dərdimi bilincə, ay qız.

*29 aprel 2019*

## Kəlbəcər

Bax, bu gün geyindi qəm libasını,
Bax, bu gün alışdı, yandi Kəlbəcər.
Bax, bu gün buz oldu ana qolları,
Bax, bu gün soyuqda dondu Kəlbəcər.

Qoymadı toxuna düşmən əlini,
Tərtərə töküldü qızı, gəlini.
Korpəli ananın buz heykəlini,
Bax, bu gün Murovda yondu Kəlbəcər.

Bu gün göydən endi bəla bizlərə.
Bu gün hakim oldu kədər gözlərə.
Bu gün qaçqın oldu, düşdü düzlərə,
Bax, bu gün dağıldı, sındı Kəlbəcər.

Yazdı Cəfəroğlu, dedi neçə dil,
Dərdi unutmasın deyə bir nəsil.
Aprelin ikisi gələndə hər il,
Kəlbəcər dərdini andı Kəlbəcər.
Bax, bu gün alışdı-yandi Kəlbəcər.

*02 aprel 2019*

## Çəkər

Könül çox aldanma şirin dillərə.
Xoş vədə insanı gümana çəkər.
İşığı tanımaz ağlı kor insan.
Karvanın yolunu dumana çəkər.

Dərdini mərdə de, halına gülməz.
Namərddən uzaq dur, qədrini bilməz.
Yaltağın əlindən yaxşılıq gəlməz,
Yamanın balası yamana çəkər.

Ədaləti olan taxtı devirmə.
Sənlə işi yoxsa, alma, nə vermə..
Yalvarıb gedənə arxa çevirmə,
Sonra kürəyini kamana çəkər.

Özünə güvənmə zirvəyə çatsan,
Endirərlər səni arxayın yatsan.
Tək Allaha inan dəryada batsan.
O, səni dəryadan limana çəkər.

Şeytanlar özünü canan göstərər.
Cahillər özünü qanan göstərər.
Yalan söz insanı yanan göstərər,
Həqiqət insanı imana çəkər.

Bağçana gətirmə başı barsızı.
Dostluğa götürmə könlü varsızı.
Bəri başda sına etibarsızı,
O başda könlünü amana çəkər.

Qoyma Cəfəroğlu yamanlığa qol.
Bir az çətin olur haqqa gedən yol.
Bu qoca dünyadan ehtiyyatlı ol,
Zamanın uşağı zamana çəkər.

*11 aprel 2019*

# Əsir olan vətənim

Yenə sənsiz qarşıladıq novruzu,
Ax, ay mənim əsir olan vətənim.
Bu il də qaranquş qürbətə gəldi
Bax, ay mənim əsir olan vətənim.

Biz arsızıq, dünya bizə dar olmur.
Biz söyüdük, bizdə sənə bar olmur.
İyirmi beş il əsirlikdə yar olmur,
Çıx, ay mənim əsir olan vətənim.

Sən bu ili bizə yaxşı il eylə,
Bir yerə yığ, ağzı bütöv el eylə.
Ya da yandır, şimşəyə dön, kül eylə,
Çax, ay mənim əsir olan vətənim.

Yoxdu baxan, deyib-gülən bayrama.
Yas saxlayır sağlar ölən bayrama.
Yoxdu dözüm daha gələn bayrama,
Yox, ay mənim əsir olan vətənim.

De, kim çəkdi bu günahı boynuna?
Səni saldı, öz məkirli oynuna.
Gəlsin Cəfəroğlu, onu qoynuna,
Sıx, ay mənim əsir olan vətənim.

*21 mart 2019*

# Şahlar

***(Milli qəhrəman Şahlar Şükürovun xatirəsinə)***

Tufan kimi gəldi, sel kimi getdi.
Bu yolu sakitcə ötmədi Şahlar.
Qəhrəman doğuldu, qəhrəman öldü,
Adı oğul kimi getmədi Şahlar.

Bir dağa bənzədi, bir dağa çatdı.
O cənnət deyilən bir bağa çatdı.
Boyu, ay-ulduzlu bayrağa çatdı,
Torpağa qarışıb itmədi Şahlar.

Öləndə son sözü "Vətən" demişdi,
Son sözü od oldu vətənə düşdü.
Sonra Sərdar, Ülfət, Yunus yetişdi,
Tək bircə Şahlarla bitmədi Şahlar.

Sanma Cəfəroğlu, bir çiçək soldu.
O, axdı əbədi qəlblərə doldu.
Bütöv Azərbaycan övladı oldu.
Təkcə Kəlbəcərə yetmədi Şahlar.

*12 mart. 2019*

# Ay ana

Niyə belə kədərlidi gözlərin?
Gözlərinə qurban olum ay ana.
Niyə belə gücsüz olub dizlərin?
Dizlərinə qurban olum ay ana.

Elə bil ki, saçlarına çal düşür,
Qocalırsan , ürəyimə xal düşür.
Hər sözündən İnci düşür, bal düşür,
Sözlərinə qurban olum ay ana.

İnsafsızdı ürəyinə yar gələn.
Ana yeri ürəyinə dar gələn.
O ağaran, qırov gələn, qar gələn,
Tellərinə qurban olum ay ana.

O vaxtları hər əzaba bürünən.
Kölgə kimi arxamızca sürünən.
İndi məsum uşaq kimi görünən,
Görkəminə qurban olum ay ana.

Ən gözəli sən olmusan güllərin,
Qayğılarla dolu keçib illərin.
Hər yarama məlhəm olub əllərin,
Əllərinə qurban olum ay ana.

Yolunuzda arzu əkdin, kam əkdin.
Süfrənizə dad gətirdin, tam əkdin.
Hər qaranlıq yolumuzda şam əkdin.
Qədəminə qurban olum ay ana.

Bar gətirib bəslədiyin, budaqlar.
Bir ev olub qaladığın ocaqlar.
Gətir çəksin Talehinə nə qəm var.
Gəl qəminə qurban olum ay ana.

*10 mart. 2019*

## Gördüm

Çox da müqəddəssən ay Allah tala,
Səndən də inciyib küsəni gördüm.
Təkcə mən olmadım unutduqları,
Səndən də ülfəti kəsəni gördüm.

Sənin də hökmünə qarışdı kələk,
Etdiyini etdin ay zalım fələk.
Sən də saf olmadın ay dəli külək,
Səndən də uğursuz əsəni gördüm.

Qalmadın ay dünya siyasətindən.
Neçə qurban getdi fəlakətindən.
Yorulub haqqından ədalətindən,
Neçə öz canından bezəni gördüm.

Gəldi Cəfəroğlu, sonu hər yolun.
Tamahı bitmədi insan oğlunun.
Sənin də əlinlə ay qoca qanun,
Neçə günahsızı əzəni gördüm.

*18 mart. 2019*

## Olmasın

Qoy dünya dağılsın, vecimə deyil,
Yaxşılardan ölüm-itim olmasın.
Ayrılıq da olsun, azarda olsun,
Təki ortalıqda yetim olmasın.

Ləzzətlə yediyim bal da havayı,
Libas da havayı, çul da havayı,
Var da havayıdı, pul da havayı,
İstəmirəm bircə bitim olmasın.

Şərt deyil qolumda qızıl gəzdirim,
Dünyanı sümürüm, yeyim, bezdirim.
İçimdə əməlli adam gəzdirim,
Quru taxta olum, ətim olmasın.

Şeytan fitva verdi, uyduq fitfaya.
Bilmədik, yaşadıq hansı mənaya.
Taleh, bir də gəlsəm qoca dünyaya.
Haqq önündə bir qələtim olmasın.

*22 iyul 2018*

# Yazılan şeir

Onun sandığında bükülü qaldı.
Mənim dəftərimdən pozulan şeir.
Onun taleyini yaza bilmədi,
Onun taleyinə yazılan şeir.

Dərdimə rəng qatdı, boyağı oldu.
Dərdimin yeriyən ayağı oldu.
Bitdi göz önümdə, göz dağı oldu,
Məzarı qəlbimdə qazılan şeir.

Taleh, itirdiyim səltənətimdi.
Mənsiz ünvansızdı, mənsiz yetimdi.
Gizlicə ağlıyan məhəbbətimdi,
Mənası yüz yerə yozulan şeir.

*18 mart. 201*

# Ay analar bayramınız mübarək!

Arxasında bir ana var hər gücün.
Əvvəlisiz, axırısız hər köçün.
Bəşər üçün millət üçün, xalq üçün,
Sığmaz zərif köksünüzə min dilək.
Ay analar, bayramınız mübarək.

Süfrəmizin cadı sizsiz olmasın.
Ağzimizin, dadı sizsiz olmasın.
Qəlbimizin odu sizsiz olmasın,
Dünyamıza gərəksiniz günəş tək,
Ay analar, bayramınız mübarək.

Bir teli agardıb hər kədərinə,
Düzmüsüz övladın nənnilərinə.
Dəyməz borcunuzun mində birinə,
Yolunuza bəzəsək də gül çiçək,
Ay analar bayramınız mübarək

Tək martın səkkizi yada salmayaq,
Tək martın səkkizi çiçək almayaq,
Tək bir gün qayğıkeş övlad olmayaq,
Qarşınızda ömür qoyaq, baş əyək.
Ay analar bayramınız mübarək.

Eşitsin göylərdə bəxt yazan mələk,
Çin olsun Talehin tutduğu dilək.
Bir ana eşqini daşısın ürək.
O sevginin beşiyində dincələk,
Ay analar bayramınız mübarək.

*8 mart 2019*

## Şərəfin olsun

Kasıb da yaşasan, varlı da olsan,
Yanında mənliyin, şərəfin olsun.
Əymə tərəzini cibindən ötrü,
Bir az haqqa doğru tərəfin olsun...

Çox salma meylini dünya malına,
Dünya ötəridi, acı halına.
Yaxşılıq toxumu çilə yoluna,
Əsl insan olmaq hədəfin olsun.

Sabah sənin deyil, sabahdan əl çək.
O səni aldadan tamahdan əl çək.
Şeytana aldanma, günahdan əl çək,
Qoy nə suçun , olsun, nə səhfin olsun.

Ötmə Cəfəroğlu qarğadan betər.
Səs-küyə nə var ki, qarğa da ötər.
Əgər bülbülsənsə, oxusan yetər,
Nə qavalın olsun, nə dəfin olsun.

*12 Marrt 2019*

# Qız gözəlliyi

Sən bunun yaşına, görkəminə bax.
Hələ də saxlayır qız gözəlliyi.
Elə bil payızın çiçəyi deyil,
Çöküb cöhrsinə yaz gözəlliyi.

Bir sonadı, hansı yerə yan alır,
Baxışları cəllad olur qan alır.
Qaş oynadır, göz oynadır can alır.
Bir az da artırır naz gözəlliyi.

Taleh, hər çəmənə, düzə verməyib,
Yaradan sirrini üzə verməyib.
Ondan bircə pay da bizə verməyib.
Heyif ki yaradıb az gözəlliyi.

*18 mart. 2019*

## Utansın
***(Şair İqbal İsmayılova..)***

Günahsızsan, sən utanma ay baba,
O günaha qoy batanlar utansın.
Namusunu qeyrətini arını,
O torpaqda qoy satanlar utansın.

Bada verdik igidini-mərdini,
Azmı çəkdik o torpağın dərdini.
Erməniylə quda olub, şər dini,
Öz dininə tay tutanlar utansın..

Rus dilində mənliyinə "çust" deyib,
Süfrə açıb, məclis qurub tost deyib.
Xacpərəstə dayı deyib, dost deyib,
Yad qucaqda qoy yatanlar utansın.

Vətən dərdi saldı bizi odlara.
Layiq olduq neçə ucuz adlara.
Cəfəroğlu, yağılara-yadlara,
Öz qanından qan qatanlar utansın.
Bu torpaqdan pay tutanlar utansın.

*18 mart. 2019*

# Hardan dəyib?

Sirrini hamıdan saxlayan gözəl,
Sənin taleyinə daş hardan dəyib?
Orda gizli-gizli ağlayan gözəl,
O qara gözlərə yaş hardan dəyib?

Söylə, ay bəxtindən inciyən küsən,
De, hansı zalıma könül vermisən?
Sən ki çox cavansan, nə yaş görmüsən,
O qara tellərə qış hardan dəyib?

Bir söz de Talehə, canı qalmayıb.
Səni kim aldadıb, yada salmayıb?
Kim belə könlünü əkib şumlayıb,
O könül bağına xış hardan dəyib?

*28 fev. 2019*

## O yerdənəm mən!

O baş da mənimdi, bu baş da mənim.
Soruşma hardanam, nə yerdənəm mən.
Bu odlar yurududu elim, vətənim,
Dosta dost, düşmənə zəhərdənəm mən.

O taylı, bu taylı vahid bir canam,
Savalan dağıdı, Murovdu anam.
Odlar ölkəsiyəm, Azərbaycanam,
Səması günəşli səhərdənəm mən.

Nə fərqi var, aranlıyam, dağlıyam,
Bu əlli milyonluq, xalqa bağlıyam.
Girov Xocalının, şəhid oğluyam,
O çırağı sönən şəhərdəm mən.

İsa bulağından içib gəlmişəm.
Göyçədən, Vedidən keçib gəlmişəm.
İrəvanı vətən seçib gəlmişəm,
Harda izim varsa, o yerdənəm mən.

Mənə düşmən deyil yollarımdakı.
Satqın qandalıdı qollarımdakı.
Bir üzüm Təbrizdi, bir üzüm Bakı,
O mavi dalğalı Xəzərdənəm mən.

Göz açdı, gözlərim Kəlbəcər gördü.
Talehəm, hər daşım incidi, dürdü.
Bir qolum Arazdı, bir qolum Kürdü.
Çayları qovuşan nehirdənəm mən.

*20 fev. 2019*

## Tərəf

Qoy tamah etməsin nəfsə qul məni,
Ağlım əl açmasın tamaha tərəf.
Qoy çəksin yaxamdan zülmət əlini,
İşıqlar götürsün sabaha tərəf.

O səma kitabı yoldaşım olsun.
Onu dərk etməyə qoy başım olsun.
Şeytana atmağa bir daşım olsun.
Şeytanlar çəkməsin günaha tərəf.

Verdim gəncliyimin haqqı-nırxını,
Talehəm, ötürdüm ömrün qırxını.
Tutan deyiləm ki, dünya çarxını,
Gedirəm bu yolu Allaha tərəf.

*19 fev. 2019*

# Qoymayın məni

Sizdə kəndimizin ətrini duydum,
Dağlar, darıxmağa qoymayın məni.
Sizi məlhəm bildim, yarama qoydum.
Bağlar, darıxmağa qoymayin məni.

Gözümdə daşqınım, selim gizlənib.
Danışa bilmirəm, dilim gizlənib.
İçimdə minlərlə ölüm gizlənib,
Sağlar, darıxmağa qoymayın məni.

Talehin qəlbində nələr var, nələr,...
Mən çəkən ağrını yaşayan bilər.
Tək təsəllim olan ay xatirələr,
Çağlar darıxmağa qoymayın məni.

*18 fev. 2019*

# İllərə verdim

İllər tez ağartı başımı mənim.
Dərdimi-qəmimi tellərə verdim.
Ağrımı-acımı içimə bükdüm,
Bir ömür tapmışdım, illərə verdim.

Fələk oyun qurdu, oynadı harda,
Bəxtim elə yazdı, mən oldum orda.
Yağdı gəncliyimə dolu da, qar da,
Heyif, gəncliyimi sellərə verdim.

Dostdan aşinadan keçə bilmədim.
Özümə yaxşı yol seçə bilmədim.
Ağılnan ölçüb-biçə bilmədim,
Vaxtımı vədəmi yellərə verdim.

Varammış Allahın vecində yenə,
Qaldı öz ilhamın gücündə yenə.
Nə yaxşı anladım gecində yenə,
Talehəm, könülumü ellərə verim.

*17 fev. 2019*

## Sən demə...

Bizi müvəqqəti başa cəkibmiş,
Yalandan çıxmışıq başa sən demə...
Hər çıxan yoxuşun enişi varmış,
Hər bahar gedirmiş qışa sən demə...

Ömür gəlib keçən bir küləyimiş.
Dünyanın dostluğu bir kələyimiş.
Bu dünya heç kimin dostu deyilmiş,
Ona inanmışıq boşa, sən demə...

Taleh bağçalarda bülbül otürsə,
Bir bahar da ötər bəxti gətirsə.
Qoynunda çiçək də, gül də bitirsə,
Sonda döndərirmiş daşa sən demə...

*12 fev. 2019*

# Saxla

***(Şair Milli Daşqının gənc həyat yoldaşı rəhmətə gedəndə)***

İlahi dərd verdin, di dərman da ver,
Bir şair qəlbində talanı saxla.
Birini öldürdün, qayıt can da ver,
İndi də can üstə olanı saxla.

Canından ayrılıb parası gedib.
Dərdinin dərmanı, çarası gedib.
Ağlayıb, gözünün qarası gedib,
Arzuları yetim qalanı saxla.

Alışmağa qoyma, yanmağa qoyma,
Üşüməyə qoyma, donmağa qoyma,
Bu həsrət önündə sınmağa qoyma,
Bir dəli həsrətdən balanı saxla.

Atalar övlada kəfən biçməsin.
Analar övlada məzar seçməsin.
Dünyadan qoy bir də cavan köçməsin,
Əzrail qurduğu planı saxla.

Talehə səbrli olmağı öyrət.
Talehə biganə qalmağı öyrət.
Kədərdən intiqam almağı öyrət.
Yaş olub gözlərə dolanı saxla.
Bir dəli həsrətdən balanı saxla.

*12 fev 2019*

# Satıldıq

Düşünmədik gələcəyi, sabahı,
Onu, bunu sata-sata satıldıq.
Dilimizin törətdiyi günahı,
Boynunuzdan ata-ata satıldıq.

Gözü olduq şər üstündə gəzənin,
Qoltuğuna çomaq verdik əzənin.
Başımızı siyasətlə kəsənin,
Ətəyindən tuta-tuta satıldıq.

"Məndən adla, qardaşıma dəy" dedik.
Düz deyənə, dəli dedik, şəy dedik.
Gədalara ağa dedik, bəy dedik,
Kolgələrdə yata-yata satıldıq.

Ürəyimiz yumşaq oldu hər sözə,
Qonaq etdik, qucaq açdıq yersizə.
Cəfəroğlu, erməniyə, dinsizə,
Mayamızı qata-qata satıldıq.

*12 fev. 2019*

# Çıxardırıq

Guya xalq yazarı, xalq adamıyıq,
Gəzib ortalıqda göz çıxardırıq.
Gərək deyiliksə xalqa, nə üzlə,
Kitablar yazırıq, söz çıxardırıq?...

Niyə Nəsimi tək soyulmur dərim?
Niyə daha yoxdu o Müşviqlərim?...
Tək bunami çatır mənim hunərim,
Yaxşını danlayıb pis çıxardırıq.

Eybimizdən utanmırıq,ölmürük.
Haqq çağıran meydanlara gəlmirik.
Doğruları doğru yaza bilmirik,
Əyrini, alçağı düz çıxardırıq.

Qardaş da tokərmi qardaş qanını?...
Qardaş da alarmı qardaş canını?...
İnsan da satarmı öz vicdanını,
Nə qədər hoqqa var, biz çıxardırıq.

Dünya niyə nizam vermir özünə,
Çöpmü düşüb ədalətin gözünə?.
Cəfəroğlu, bu millətinin üzünə,
Görəsən biz hansı üz çıxardırıq?...

*12 fev 2019*

## Məmurlarıma...

Talan eyləməyin Azərbaycanı,
O şöhrətin kölgəsində yatmayın.
Milləti salmayın şərə, böhtana,
Xalqın kürəyində ocaq çatmayın.

Qırmayın bu yurdun ərənlərini,
Qırmayın bu yurdun görənlərini.
Qoruyun millətin dəyərlərini,
Milli kimliyini ucuz tutmayın.

Əzib taptamayin tərəfsizləri,
Qəhrəman etməyin şərəfsizləri.
Ədəbli bilməyin ədəbsizləri,
Bu qədər günaha bəsdi, batmayın.

Göydən bir gün Allah görəcək sizə,
Məşhərin, əlinə verəcək sizi.
Haqqın ayağına sərəcək sizi,
Haqqı ədaləti oda atmayın.

Başa çıxartmayın acgöz harını,
Düşünün bu xalqın balalarını.
Yığıb, qucaqlayıb dünya varını,
Vətəni, torpağı yada satmayın.

Nəfisə getdiniz, vara getdiniz.
Harda pul gördünüz, ora getdiniz.
Bizi aldatdınız, yaxşı etdiniz,
Barı özünüzü siz aldatmayın.

Vicdana haqq verin, hesab aparın.
İnkirə-minkirə cavab aparın.
Getdiyiniz yerə savab aparın,
Gəldiyiniz yeri siz untmayın.

*12 fev 2019*

## Dəlinə düşə

Allah yaxşıları özün hifz elə,
Qoyma yamanların əlinə düşə.
Kişiyə çəkməyə kişı dərdi ver,
Qoyma sözbazlarin dilinə düşə.

Düzü düz yolundan qovub teyləmə.
Qoyunun yerini qurda söyləmə.
Mərdini namərdə möhtac eyləmə,
Qoyma yaltaqların felinə düşə.

Bərkə-boşa çəkmə qəlbi şüşəni.
Haqq yolundan əymə naşı düşəni.
Koluna sığınan tər bənövşəni,
Qıyma qəfil gələn selinə düşə.

Talehi salmısan çətin yollara,
Dözmür ədalətsiz olan hallara.
Bir az ağıl payla ağılsızlara,
Bəlkə bircə pay da, dəlinə düşə.

# Demə

Soruşsa birtəhər yola ver həkim,
Mənim dərdlərimi sən ona demə.
Dözməz bu halımı anam eşitsə,
Mənə candan artıq yanana demə.

De ki, yaman ucuz tutmuşam onu,
De ki, nağıllara qatmışam onu,
Ölsəm, elə bilsin atmışam onu.
Bu sirri sevdiyim canana demə.

Qoy bəlli olmasın Talehin yeri.
Yönəlt ayrı yerə sən gələnləri.
Buraxma yanıma dost bilənləri,
Dərdimi anlayıb qanana demə.

*12 fev 2019*

# Hərənin bir kökdə çalır zurnası

***Nizami Rzayev; "31 dekabr hamını həmrəy edəcək, ay Cəfəroğlu!" sualına cavab.***

Dəng edib qulağı zurna səsləri.
Hərənin bir kökdə çalır zurnasi.
Çoxu avropanın züyünü tutur,
Hərənin bir kökdə çalır zurnası.

Biri Türkə çəkir, "Oğuzam" deyir.
O biri "Qazaxam, Qırğızam" deyir.
Biri də köksüzəm, soysuzam deyir,
Hərənin bir kökdə çalır zurnası.

Çoxunun haramlıq ətinə düşüb,
Çöpləri haxcığın itinə düşüb.
Həmrəy olmağımız çətinə düşüb,
Hərənin bir kökdə çalır zurnası.

Olublar qıraqdan tutma dayılı,
Qəhrəman seçiblər səyi, zayılı.
Çoxdan unudublar Şah İsmayılı,
Hərənin bir kökdə çalır zurnası.

Hansına oynasın tək Cəfəroğlu?
Hamısına eyləyir şəkk Cəfəroğlu.
Deyirlər cəzandı, çək Cəfəroğlu,
Hərənin bir kökdə çalır zurnası.

# Yekələnmədim

Hər zaman özümü sadə apardım,
Başımı dik tutub yekələnmədim.
Dayaqsız görəndə qoluna girdim,
Köməksiz görəndə təkələnmədim.

Yalan uydurdular, qaxı qaxdılar,
Arxamca danışıb ləkə yaxdılar.
Üzümü görəndə yerə baxdılar,
Mən günəş kimiyəm, ləkələnmədim.

Həmişə doğrunun tayında durdum,
Nə cızımdan çıxdım, nə də qudurdum.
Kasıb süfrəsində başda oturdum,
Varlı süfrəsində kökələmmədim.

Yalana "doğrudur", deyə bilmədim.
Yalandan özümü öyə bilmədim.
Yaltaq libasını geyə bilmədim,
Yaltaq kürsüsünə dikələmmədim.

Yalnız haqq önündə əyildi qəddim,
Nə haram qazandım, nə haram yedim.
Talehəm, nə dedim ürəkdən dedim,
Sözümü deyəndə kəkələnmədim.

*29 dek 2018*

# Cəmillimin

Gəl deyim yerini tanımadınsa,
Gör necə diyarı var Cəmillimin.
Düzləri gül-çiçək, çölləri orman,
Saxlayır zirvəsi qar Cəmillimin.

Eşitmiş olarsan Tərtər çayını,
Get gəz dik yuxarı Tərtər boyunu.
İç Ayğır bulağın sərin suyunu.
Buzlu bulaqları var Cəmillimin.

Yaz gələndə yaşıl geyib oyanan,
Payız çağı qızıl rəngə boyanan,
Dörd tərəfdən keşiyində dayanan,
Vüqarlı dağları var Cəmillimin.

Məzahir dayının qarmonu nazlı,
Bacoğlu Ziyadxan bülbül avazlı.
Aşıq Telman kimi sinəsi sazlı,
Şirin nəgməkarı var Cəmillimin.

Əyyubu tap it düşməmiş tayadan,
Gör durexcl kəklikləri oyadan.
Nurəddini soruş Qara qayadan,
Sərrast ovçuları var Cəmillimi.

Hidayət şeirində vurul mənaya,
İmam Cəmillidən söz sal ortaya.
Get bir şeir söylət Cobanoğluya,
Dərin yazarları var Cəmillimi.

Ac olsan Xıdırlı yurdunda əylən.
Gör kimi tapırsan törəməsindən.
Ac geri donməzsən bol süfrəsindən.
Comərd adamları var Cəmillimin.

Bir işin axsayıb, yubansa geri,
Soruş kənd içində dəmirciləri.
Bütün törəməsi sənət zərgəri,
Sənət xiridari var Cəmillimin.

Get salam ver Mehdi bəyin nəslinə,
Açıq söylə mətləbinin əsli nə...
Çəpər olar düşməninə nərd sinə,
Dəyərli dostları var Cəmillimin.

Kəssən əgər Cəfərliylə duz-çörək,
Qazanarsan təmiz dostluq düz ürək.
Gəlməz sənə dünyasında bir kələk.
Dosta etibarı var Cəmillimin.

Yaxşı nəsihət al Huseynalılardan,
Qoruyar o səni çox bəlalardan.
Doldur söz boxcanı ağsaqqallardan,
Gözəl kəlamları var Cəmillimin.

Varaqla sirrini ötən çağların,
Gör igid oğlunu qoca dağların.
Diz çök qarşısında şəhid Eldarın,
Bir şəhid Eldarı var Cəmillimin

Döyüşdə düşmənin səddini pozan,
Əzizdən, hərbinin sirrini qazan.
Döyüş tarixini qanıyla yazan.
Əziz təki vüqarı var Cəmillimin.

Haqverdi müəllimdən, Məmişdən bəri,
Yetirib nə qədər müəllimləri.
Veriblər bizlərə hər elmləri,
Parlaq ziyalari var Cəmillimin.

Əslim nəslim müqəddəsdi uludu.
Tutdugum yol Əsəd, Xıdır yoludu.
Bu şeiri yazan da Cəfəroğludu.
Axarı baxari var Cəmliililimin.

*29 dek 2018*

# Zatı xarablar

Kişinin axmağı, zayı çoxalıb,
Quyruq bulayanın sayı çoxalıb,
Çaqqalın, tülkünün payı çoxalıb,
Götürüb dünyanı zatı xarablar.

O vaxtı kişilik olan vədələr,
Harda səf eyləyib görən dədələr...
İndi at oynadır gədə-gudələr,
Götürüb dünyanı zatı xarablar.

Oğlan tana taxir, razrezə keçib.
Şalvarın balağı, lap dizə kecib.
Sanki içimizdən möcüzə keçib,
Götürüb dünyanı zatı xarablar.

Namusdan dəm vurur namus atanlar,
Özünü bazarda pula satanlar .
Varlanır oteldə güzgü tutanlar,
Götürüb dünyanı zatı xarablar.

Barlara daşınır qadın örpəyi,
Taksidə tutulur gəlin gərdəyi,
Reklama çıxıbdı qızın köbəyi,
Götürüb dünyanı zatı xarablar.

Yiyəsi tapılmır açıq döşlərin,
Dodağı yığılmır arsız dişlərin,
Yeri dəyisikdi bütün işlərin,
Götürüb dünyanı zatı xarablar.

Dünya dağılacaq, gəlib vədəsi,
Kişini qorxudur arvad hədəsi.
Qocalar evində qalır dədəsi,
Götürüb dünyanı zatı xarablar.

Qoyub saçlarına xına, köhnəlib,
O gözəl, mehriban sona, köhnəlib.
Avropa dəbidi, ana kohnəlib,
Götürüb dünyanı zatı xarablar.

Gedib kafelərdə caz gedir qızlar,
Evinə vəziyyəti, saz gedir qızlar,
Tikdirib özünü qız gedir qızlar.
Götürüb dünyanı zatı xarablar.

Deputat seçiblər xeyli ördəyi,
Yuxarı çəkiblər xeyli eşşəyi.
Artır günü-gündən şahın təlxəyi,
Götürüb dünyanı zatı xarablar.

İnsan qiyməti yox insana burda.
Aqil möhtac olub nadana burda.
Yaxşı qismət olmur yaxşıya, gor da..
Götürüb dünyanı zatı xarablar.

Başdan bulanıbdı çay, Cəfəroğlu.
Nə qədər istəsən say, Cəfəroğlu.
Bu siyahı bitməz, ay Cəfəroğlu,
Götürüb dünyanı zatı xarablar.

*29 dek 2018*

# Qazaxda axtar

Şair dost biganə qalma bu yerdə,
Şair ilhamını Qazaxda axtar.
Dinlə qoşmasını gəraylısını,
Şeirin tamını Qazaxda axtar.

Vaqiflə qoşa çıx Kür qırağına,
Düşmə çox uzağa söz sorağına.
Sökə kürəyini Səməd Vurğuna,
Sənət vulkanını Qazaxda axtar.

Çox gəzsən görərsən axır-əzəli,
Burda cəmləşibdi dünya gözəli.
Şirin-zarafatlı, duzlu, məzəli,
Sözün eyhamını Qazaxda axtar.

Taleh qüdrətinə bax bu yerlərin.
Məskəni olubdu ər igidlərin,
Əhdinə düz olan məhəbbətlərin,
Sevginin camını Qazaxda axtar.

*16 dek 2018*

## Mən!

Gülüm sən olmasan yanımda mənim,
Tari-mar olaram, dağılaram mən.
Suyundan atılmış balıqlar kimi,
Çırpınıb ölərəm, boğularam mən.!

Olaram dünyanın bir daşı kimi,
Düşərəm səhraya bir naşı kimi,
Təsəli tapmaram, göz yaşı kimi,
Axaram, çaylara yığılaram mən!

Anlatma dərdini naşıya, bilməz,
Ölər, Taleh sənsiz yaşaya bilməz.
Dərdimi bir kimsə, daşıya bilməz,
Dərdindən yığılıb dağ olaram mən!

*30 noy 2018*

## Məzəli-məzəli

Baxışların qiymətlidi canımdan,
Bax üzümə gül məzəli-məzəli.
Kim əl çəkər sənin kimi xanımdan?,
Dur yanıma, gəl məzəli-məzəli.

Həsrətinə gör dözürəm nə vaxtdan,
Bir busə ver bal süzülən dodaqdan.
Eyvana çıx, qas-göz oynat uzaqdan,
Eylə mənə , əl məzəli-məzəli.

O camalın bu Talehlə tərsi nə?,
Qoy açılsın gözəl əndam tər sinə.
Qıyqacı bax, canımı al tərsinə,
Qoy danışsın dil məzəli-məzəli.

*15 Noyabr 2018*

# Keçib

Ey gül sənə olan bu məhəbbətim,
Nə qədər arzudan diləkdən keçib.
Eləcə dolmayıb sevgin qəlbimə,
Ələnib, ələnib ələkdən keçib.

Bir zaman çəkməzdin gözünü məndən.
Heç vaxt gizlətməzdin sözünü məndən.
İllər döndərməzdi üzünü məndən,
Xatası bəd əsən küləkdən keçib.

Yan-yana yaranıb atəş ilə su.
Atəşi ram edib suyun qorxusu.
İnanmaram, desən bəndəlikdi bu,
Bu qarğış Talehə fələkdən keçib.

*12 October 2018*

# Adiləşdi

Kəsə yol çəkdilər zirvəyə düzdən,
Qarğa dağa çıxdı, dağ adiləşdi.
Yamanca saldılar dirini gözdən.
Ölülər çoxaldı, sağ adiləşdi.

Mikrafonlar canavara uzandı,
Qoyuna iş kəsdi, dedi cəzandı.
Saqqal yarışında keçi qazandı,
Saqqal moda mindi , bığ adiləşdi.

Bir dəfə də, yüz ölçüb-biçdilər,
Münsiflərə sədr, sərçə seçdilər.
Ördəklər bülbüldən başa keçdilər,
Çiçəklər incidi , bağ adiləşdi.

Bir il də milləti dolandırdılar,
Verilən vədləri yubandırdılar.
Hamını qaraya inandırdılar.
Qara moda mindi ağ adiləşdi.

Taleh xalq halalı harama qatdı.
Şeytana dost oldu, günaha batdı.
Qanunlar boşaldı, məsxərə artdı,
Günahlar çoxaldı lağ adiləşdi.

*24 okt 2018*

# Götürmüşəm

Dünyaya gələndən, ağlım kəsəndən,
Həsrəti özümə tay götürmüşəm.
Getdiyim yerlərə gülüş əkmişəm,
Gələndə qəm dolu pay götürmüşəm.

Yalanla, böhtanla barışmamışam,
Kimin adamıdı, soruşmamışam.
Sızqa bulaqlara qarışmamışam,
Sinəmin üstünə çay götürmüşəm.

Talehəm, dünyanı nağıl bilmişəm.
Namərdi mərd bilib, oğul bilmişəm.
Dünya düzəltməyi ağıl bilmişəm,
Mən ağıl payımı zay götürmüşəm.

*14 October 2018*

## Qadın dünyası

Tufanı bilinmir, dağı bilinmir,
Şöləsi bilinmir, yağı bilinmir.
Hansı fəsildəndi, çağı bilinmir,
Qəribə dünyadı qadın dünyası.

Gah gəlinlik geyir bir sona kimi,
Gah müqəddəs olur bir ana kimi,
Gah əsir, gah coşur fırtına kimi,
Qəribə dünyadı qadın dünyası.

Ağıllı da olur, dəli də olur,
Qan soran, qan alan zəli də olur.
Ələmin müqəddəs əli də olur,
Qəribə dünyadı qadın dünyası.

Ondadı bərəkət, ondadı ruzu,
Ondadı məhəbbət, ondadı arzu.
Odur bu dünyanın sevgisi, duzu,
Qəribə dünyadı qadın dünyası.

Ocaq da söndürər, ocaq da çatar.
Gül tutan əlində, silah da tutar.
Yolunda özünü odlara atar,
Qəribə dünyadı qadın dünyası.

Səni də doğubsa bir gözəl ana,
Yolunda qıyıbsa bir şirin cana,
Taleh səcdə eylə, baş əy gəl ona,
Qəribə dünyadı qadın dünyası.

*9 okt 2018*

## Bu gecə yuxuma Zəlimxan girib

Uca zirvədəydi, çata bilmədim.
Yüyürdüm, əlini tuta bilmədim,
Bu gecə bir daha yata bilmədim.
Bu gecə yuxuma Zəlimxan girib.

Məğrur görünürdü o dağlar kimi,
Coşub-çağlayırdı bulaqlar kimi.
Kövrəldim a dostlar uşaqlar kimi,
Bu gecə yuxuma Zəlimxan girib.

Gətirin, qoy çalsın musiqi, bəstə,
Heyratı, cahargah, zabul, şikəstə.
Oxuyun Zəlimxan laylası üstə,
Bu gecə yuxuma Zəlimxan girib.

Talehəm, dağ aşıb, dərə getmişəm,
Ocağa getmişəm, pirə getmişəm.
Yuxuda qəribə yerə getmişəm,
Bu gecə yuxuma Zəlimxan girib.

*9 okt 2018*

## Kəpəz

Sənə yad deyiləm, dağlar oğluyam,
Gəlmişəm səninlə görüşə Kəpəz.
Qardaşın Murovun o üzündənəm,
İllərdi həsrətəm gülüşə Kəpəz.

Deyəndə, yanıram "vətən" sözünü,
Dərdlərim ağlayır, yumub gözünü,
Götür örpəyini, göstər üzünü,
Bəlkə camalına gün düşə Kəpəz.

Ovcuna yığmısan göz yaşlarını,
Sel yuyur üzünün qırışlarını.
Səndəmi itirdin qardaşlarını?
Nə vaxtdan həsrətsən gülüşə Kəpəz?

Gəl ol bu Talehə bir həyan kimi,
Qucaqla Talehi sərt qayan kimi.
Hanı maralların, səs duyan kimi,
Hürkələr duralar ötüşə Kəpəz?

*12 sen 2018*

## Övladlarıma…

Yerimsiz, göyümsüz, həyatımsınız.
Siz mənim ən yaxın dostlarımsınız.
Suyumsuz, havamsız, nəfəsimsiniz,
Siz mənim qanadım, qollarımsınız.

Mən sizsiz olanda tez yoruluram,
İşi kara gəlmir heç hünərin də...
Dünyada ən xoşbəxt ata oluram,
Sizdən güc alıram sizi görəndə.

Sizsiz gülüş donur, təbəssüm donur,
Üzümə qış gəlir, dayanır zaman.
Sizinlə ömrümə bahar doğulur,
Arzular canlanır, oyanır zaman.

Cənnət istəmirəm arzularımda,
Cənnətim yanımda şən səsinizdi.
Mənim dövlətim də, mənim varım da,
Sizin gül qoxuyan nəfəsinizdi.

Eşitsin duamı qoy ulu tanrı,
Bir də imtahana çəkməsin məni.
Bir dəfə görmüşəm bir bala dağı,
Bir də bu acıya bükməsin məni.

Çoxlu var istəmir var ağacından,
Talehin dövləti, varı sizsiniz.
Özgə bar istəmir bar ağacından,
Onun bağçasının barı sizsiniz.

*5 sen 2018*

## Daş fələyin daşıdı

Bir də məni yazıqlama sən Allah.
Gözümdəki yaş fələyin yaşıdı.
Bu biçarə bəndələrdə günah yox,
Başımdakı daş fələyin daşıdı.

Çaylar kimi daşan idim bir zaman,
Sərhədləri aşan idim bir zaman.
Mən də sən tək coşan idim bir zaman.
Önümdəki qış fələyin qışıdı.

Cəfəroğlu, hələ yanır bu dağa.
Uçan bülbül bir də gəlməz budağa.
Günü-gündən qocalıram ay qağa,
Neynəyim ki, xoş fələyin xoşudu.

*1 sen 2018*

## Başını qatar

Vermə qabağında meydan alçağa,
O sənə tor qurar, başını qatar.
Şöhrətə əyilən dosta dost demə,
O köhnəni atar, təzəni tutar.

Varsa birisində vara hərislik,
Axtarma sən onda mərdlik, kişilik.
Yüz yaxşılıq eylə bircə də pislik,
Səni bircə dənə pisliyə satar.

Ucalsan hər yerdə alçalar sənə,
Tost deyər, baş əyər, əl çalar sənə.
Söyləyər ən şirin arzular sənə,
Sonra tikanların gözünə batar.

Taleh, bu dünyanın etibarı yox,
Hər "dostam" deyənə arxalanma çox.
Hər şirin kəlmədə bir zəhərli ox,
Hər gülüş altında bir əfi yatar.

*18 avg 2018*

## Düzəl

Talama cibini elin, millətin,
El durub üzünə söyməmiş düzəl.
Bəsdi yalan satdı Allaha dilin,
Allahın qapazı dəyməmiş düzəl.

Az de əyriyə düz, gəl ağa qara,
Rəhm elə fağıra, günahsızlara.
Bir azca hörmət qoy özündən sonra,
Günahlar qapını döyməmiş düzəl.

Kimsə saymayacaq varına görə,
Vallah lüt gedəcən getdiyin yerə.
Cavab verməyin var inkir-minkirə,
Kəfəni əyninə geyməmiş düzəl.

Gəl axtar Talehdə haqqın özünü,
Verməz yüz əyriyə bircə düzünü.
Hələ ki gec deyil, bəxtin üzünü,
Döndərib ağzını əyməmiş düzəl.

*18 avg 2018*

# Göy göl

Bir gözəl çıxıbdı seyrinə sənin,
Tale quşu qonub başına Göy Göl.
Yaman çox eyləyir tamaşa sənə,
Deyəsən gəlmisən xoşuna Göy Göl.

Bilirəm, gözəlsən, bu aləm deyib.
Çox şair vəsv edib, çox qələm deyib.
Bu qızın yanında "gözələm" deyib,
Gəl öymə özünü boşuna Göy Göl.

Taleh aşiq olub, sevdiyi naşı,
Yağıb ürəyinə sevgi yağışı.
Baxanda can alır kipriyi-qaşı,
Bax bunun gözünə-qaşına Göy Göl.

*12 avg 2018*

## Qıymasın

Bir arzum var qollarında can verim,
Tanrı mənə ayrı ölüm qıymasın.
Ana torpaq məni səndən aparsın,
Başqaları qoy məzara qoymasın.

Gileyliyəm bu bəxtimi pozana.
Neylədim ki, layiq oldum cəzana?
Sən də söylə mənə ömür yazana,
Sənsiz keçən günümü gün saymasın.

Fələyə də qarğış etdim, de bilsin.
Mənim kimi o da dara çəkilsin.
Hey gözləri yar yoluna dikilsin,
Heç onun da gözü yardan doymasın.

Bu Talehəm, yandırmamis od məni,
Gəl yola sal, bu dünyadan şad məni.
Qınamasın qohum məni, yad məni,
Ürəyimin ağrısını duymasın.

*12 avg 2018*

# Necə düşünürsən?

Necə düşünürsən, bu ayrılığa,
Yas tutub gizlicə ağladımmı heç?
Hərdən xəyalının qonağı olub,
Açıb xatirəni bağladımmı heç?

Necə düşünürsən, birindən tutub,
Səni başqasına dəyişdimmi mən!
Sənli günlərimi yolda unudub,
Sənin həsrətinlə barışdımmı mən?

Necə düşünürsən, mənim yoxluğum,
Səni məndən uzaq eyləmədi ki?
"O bir vəfasızdır, “gəl unut" deyib,
Kimsə qulağına söyləmədi ki?...

Necə düşünürsən, necə sən Allah,
Yamanca soyuğam, daş ürəyəmmi?
Zalım ayrılığa meydan oxuyub,
Qayıdıb yanına gələcəyəmmi?

# Qürbət

Yenidən sevməyi öyrədir mənə,
Amansız ayrılıq, amansız qürbət.
Torpağı yandırır, daşı yandırır,
Tökülüb gözümdən süzülən həsrət.

Nə yaman çətinmiş, nə yaman allah,
Yardan ayrı düşmək, aralı qalmaq!.
Qıyma bir də mənə heç zaman allah,
Həsrətin əlində gözləri dolmaq.

Qürbətin balı da dadsız olurmuş,
Qürbətin gülü də qoxusuz imiş.
Həsrətin küləyi qəm gətirirmiş,
Qürbətdə qalanlar yuxusuz imiş.

Yenidən sevməyi öyrədir mənə,
O qıza verdiyim acı günlərim.
Burda sığınmışam onun eşqinə,
Onun qonağıdı düşüncələrim.

Qayıdıb yanına gedə bilsəydim,
Bahar apardım qışına onun.
Bircə yol da onu görə bilsəydim,
Başına dönərdim, başına onun.

Daha sevənləri salma qürbətə.
Qıyma sevənlərə ayrılıq, Allah.
Salma sevənləri qəmə,həsrətə,
Yaman dözülməzdi bağlılıq Allah.

*22 iyul 2018*

## Köçəri Tərtərliyə..

Bu gün mənə qonaq oldu Köçəri,
Dedi şair, saz götürüb gəlmişəm.
Ələsgərdən qoşma, təcnis, gəraylı,
Şuriyədən, söz götürüb gəlmişəm.

Bəhmən kimi haqq dalınca qaçmışam,
Şəmşir kimi sərhədləri aşmışam.
Daşqın kimi bulanmışam, daşmışam,
Sücaətdən köz götürüb gəlmişəm.

Zəlimxanın şahlığına çatmağa,
Sözü sazın mayasına qatmağa.
Söz üşüyən zirvələri tutmağa,
Qəmkeş kimi diz götürüb gəlmişəm.

Varaqlayıb köhnə xatırələrdən,
Vurğunu tapmışam düşüncələrdən.
Rəhimli Kazımlıdan, Cinli Səfərdən,
Silinməyən iz götürüb gəlmişəm.

Baxmaq üçün zirvələrdən aşağı,
Görmək üçün əl donduran bulağı,
Olmaq üçün Cəfəroğlu qonağı,
Hər sözümü düz götürüb gəlmişəm.

*22 iyul 2018*

## Görüş yerinə gəl

Görüş yerinə gəl, görüşək bir gün,
Aylı bir gecədə bir yaz axşamı.
Bizə şahid olsun xəyallarımız,
Mələklər göylərdə yandırsın şamı.

Görüş yerınə gəl, gəlinlik geyin,
Ulduzlar bəzəsin otağımızı.
Quşların səsiylə edək toy-düyün,
Çiçəklərdən sərək yatağımızı.

Görüş yerinə gəl, hər addımında,
Sevən ürəyimə döyüntü gətir.
Küləklər telinin tumarı olsun,
Buludlar başının üstünə çətir.

Görüş yerinə gəl, görüşək bir gün,
Sanki min illərin ayrısı kimi.
Daha dolanmayaq ayla günəşin,
Ürəyində qalan arzusu kimi.

Görüş yerinə gəl, tanış eyləyək,
Ayrılıq öldürən məhəbbətləri.
Bir yolluq unudaq, suya söyləyək,
Talehdən etdiyin şikayətləri.

*4 iyun 2018*

# Məni

Gündə bir nağıla qulaq kəsildim,
Ovuda bilmədi nağıllar məni.
Yazıq günə qoydu, yazıq eylədi,
Ovcuma qoyulan nağıllar məni.

Daha durub baxammıram üzlərə,
Dözümüm yox, tənə dolu sözlərə.
Yurdumdan eylədi, saldı düzlərə,
Əyri siyasətlər, ağıllar məni.

Səndədi ürəyim, beynim ey vətən,
Açılmır heç sənsiz eynim, ey vətən.
Oyunçu deyildim, neynim ey vətən,
Uddu qumarında cığallar məni.

Dostlar Talehini alqışlamadı,
Gəldim, gül-çiçəklə qarşılamadı.
Yatdım, yuxumda da bağışlamadı,
Orda şəhid olan oğullar məni.

*4 iyun 2018*

## Ver mənə

İlahı çox şey istəmirəm ki,
Şuşanı almağa zoru ver mənə.
Yandır, Kəlbəcərə tökülsün külüm,
Ana vətənimdə goru ver mənə.

Dilim yanır sussuzluğu duyunca,
İçməmişəm Ayğırımdan doyunca.
Doğma Cəmillimdən Tər-tər boyunca,
Axar bulaqları duru ver mənə.

Az bu Talehinə naz eylə, qaytar,
Bu qərib könlümü yaz eylə, qaytar.
Varımdan payımı az eylə, qaytar,
Öz ata yurdumu quru ver mənə.

*18 apr 2018*

## Mən Allahdan necə narazı olum

Xoşbəxtliyə gedən yol verib mənə.
Sevinci, şadlığı bol verib mənə.
İki qanad verib, qol verib mənə,
Mən Allahdan necə narazı olum?..

Köksümün altına bir ümman qoyub.
Kiçik gözlərimə bir cahan qoyub.
Başımın üstünə asiman qoyub.
Mən Allahdan necə narazı olum?...

Bir sevda salıbdı başıma o gün,
Bir mələk çıxardıb qarşıma o gün,
O mələk yaşadır Talehi bu gün,
Mən Allahdan necə narazı olum?...

*16 apr 2018*

# Ayrı

Dünyaya qəm verər, nalə gətirər,
Bülbülün nəğməsi gülündən ayrı.
İtirər o ürkək baxışlarını,
Ceyranlar, cüyürlər çölündən ayrı.

Ürək istəməsə dil coşa bilməz.
Göylər ağlamasa, sel daşa bilməz.
Aşıqlar saz çalıb, söz qoşa bilməz,
Şairlər yaşamaz elindən ayrı.

Taleh, tapılmasa könül həyanı,
Dil anlada bilməz könül duyanı.
Sərçə kolu sevər, kəklik qayanı,
Sonalar bəzənməz gölündən ayrı.

*7 apr 2018*

# Bilməz

Apar şəkərə qat, apar bala qat,
Namərdin çörəyi bal dada bilməz.
İlanın balası ilan törəyər.
Tülkünü balası aldada bilməz.

Alim qiymət alar elminə görə,
Öz yerini bilsə yaxşıdı hərə.
Neyləyə bilər ki tazılar şirə?,
Uzaq başı hürər, qorxuda bilməz.

Hər boyu ucaya xan cinar demə,
Hər səsi olana nəğməkar demə.
Hər qələm tutana peşəkar demə,
Hər şair sözünə bal qata bilməz.

Taleh, xam xəyalla gəzməyi unut,
Dəyişib it olmaz bəslədiyin qurd.
Nə qədər istəsən yaxşılığa tut,
Pis öz pisliyini unuda bilməz.

*26 fev 2018*

## Yandı Xocalı

Əli quru qaldı, ayağı yalın.
Pozmadı vətənə andı Xocalı.
Tarixi tökülən qanıyla yazdı,
Şaxtada-soyuqda dondu Xocalı,
Yandı, diri-diri yandı Xocalı.

Dərdini dərdinə qatan olmadı,
Talandı, dadına çatan olmadı.
Yıxıldı, qolundan tutan olmadı.
Qopdu, parçalandı, sındı Xocalı,
Yandı, diri-diri yandı Xocalı.

Hər açan gülündə qan ləkəsi var.
Hər kolun dibində qan ləkəsi var.
Düzündə, çölündə qan ləkəsi var.
Bu başdan o başa qandı Xocalı.
Yandı, diri-diri yandı Xocalı.

Çıxartdı əlindən bəxt üzüyünü,
Matəmə çevrildi toyu, düyünü.
Qaralar geyindi hər il bu günü,
Xocalı dərdini andı Xocalı.
Yandı, diri-diri yandı Xocalı.

Quş olub göylərə uça bilmədi.
Əcəlin qoynuna qaça bilmədi.
Arından utanıb, aça bilmədi,
Nə qədər dərdini dandı Xocalı.
Yandı, diri-diri yandı Xocalı.

Bu dərin yaradı, qopartma Taleh,
Al bu qisasını, yubatma Taleh,
Qanı, qan yuyacaq, unutma Taleh,
Canından ayrılan candı Xocalı,
Yandı, diri-diri yandı Xocalı.

*19 fev 2018*

# Bu yaz

Yolunu gözləyib hər gün, hər axşam,
Pərvanən olmuşam alışanda şam.
Könlümdə könlünə yer ayırmışam,
Sən mənim könlümə qonaq gəl bu yaz.

Əllərim toxunsun əlinə hər gün,
Çəkim tumarımı telinə hər gün.
Dolansın qollarım belinə hər gün,
Sən mənim könlümə qonaq gəl bu yaz.

Dənizin mən olum, çayın mən olum,
Günəşin mən olum, ayın mən olum,
Bu il də qurbanlıq payın mən olum,
Sən mənim könlümə qonaq gəl bu yaz.

Qoy ara vuranlar duymasın səni.
Bədnəzər gözlərə qıymasın səni.
Taleh darıxmağa qoymasın səni,
Sən mənim könlümə qonaq gəl bu yaz.

*12 fev 2018*

# İnsan

Özgədən küsəndə yaşaya bilər,
Özündən inciyib, küsməsin insan.
Özgənin dərdini daşiya bilər,
Özündən yorulub, bezməsin insan.

Daşqına güc gələr, selə güc gələr,
Dağların, daşların köksünü dələr.
Özgədən inciyib ayrıla bilər,
Özündən ülfəti kəsməsin insan.

Qoy pisi, pisliyi alıb götürsün,
Dünya bəndəsinə sevinc gətirsin.
Taleh, arzum budu çiçək bitirsin.
Bircə çiçəyi də əzməsin insan.

*3 fev 2018*

## Görüşə gəlmişdim, çıxıb gedirəm

Su atın arxamca ayna bulaqlar,
İndi yol üstəyəm, çıxıb gedirəm.
Atın başınızdan dumanı dağlar,
Sizə bir doyunca baxım, gedirəm.

Bizdən ümidini kəsən çöllərin,
Solan çiçəklərin, küsən güllərin,
Ürəyi yurd ilə vuran ellərin,
Dərdini sinəmə sıxıb gedirəm.

Biz sənə həsrətik, sən bizə həsrət,
Dağların qoynunda gizlənən cənnət,
Gözləyir yolumu yenə də qürbət,
Gözümə əksini yığıb gedirəm.

Talehəm yol keçir qış ürəyimdən.
Bulaqlar qaynayır daş ürəyimdən,
Axır selə dönür yaş ürəyimdən.
Sellər-sular kimi axıb gedirəm.

*29 yanv 2018*

## Ey insan

Ruhunu şeytana təslim eyləyib,
Cummağa çalışma başa, ey insan.
Dilində şər deyib, yalan danışıb,
Gəlməyə çalışma xoşa ey insan.

Haqq hara qol qoyur, sən ora baş qoy,
Yanmasın qurunun odunda yaş qoy.
Bostan ək, bağ becər, daş üstə daş qoy,
Keçirmə zamanı boşa, ey insan.

Acı külək kimi uğursuz əsmə,
Bulanıb sel kimi yolları kəsmə.
Bəxtdən üz döndərib, taledən küsmə,
Bəxtin toxunubsa daşa, ey insan.

Aldanma sərvətə, qul olma vara.
Yaşama bu ömrü bir üzün qara,
Tutmasın gözünü haram pul-para,
Yaşa, ləyaqətlə yaşa, ey insan.

Ömür bir yuxudu, bitər gün gələr.
Can torpağa dönər, itər gün gələr.
Gələn Taleh Cəfər, gedər gün gələr,
Adı əməliylə qoşa, ey insan.

*12 dek 2017*

## Görüblər...

Səni kölgə kimi başqa ürəyin,
Qapısı önündə duran görüblər.
Bir qara sevdanın dilənçisi tək,
Əl açıb, boynunu buran görüblər.

Səndə nə sevgi var, nə də məhəbbət,
Səndə nə insaf var, nə də ədalət,
Sənə inanmıram ey gözəl afət,
Səni neçə qəlbi qıran görüblər.

Gəl alma qəlbini Cəfəroğlunun,
Gəl alma ahını tanrı qulunun.
Sən gözəl dediyin sevda yolunun,
Sonunda fırtına-boran görüblər.

*1 noy 2017*

## Ağlama ay ana
***(7 yaşlı körpənin diliylə...)***

Ağlama ay ana qurbanın olum,
Göydəki mələklər eşidər səni.
Başını söykəmə məzar daşıma,
Soyuq məzar daşım üşüdər səni.

Ağlama ay ana, bəs edər mənə,
Məzarım üstünə qoyduğun çiçək.
Burda həyan olub əziz körpənə,
Bütün dərdlərini sağaldıb fələk.

Ağlama ay ana, onu bil ki sən,
Cənnətin quşuyam mən indi burda.
Məzarım üstünə bəzən gəl ki sən.
Qəmlərə qarşıyam mən indi burda.

Üzülmə ay ana, Allaha inan.
Bilirəm ağırdı bir bala dərdi.
Bir də onu bil ki, gəldiyim məkan,
Hamının əbədi gəldiyi yerdi.

*10 okt 2017*

## Bu gün

Min dağı gəzdirdim, az dedi fələk,
Bir dağ da sinəmə vuruldu bu gün.
Yenə ürəyimin dərinliyində,
Bir matəm mağarı quruldu bu gün.

Səs gələn tərəfə axdı buludlar,
Ana fəryadına baxdı buludlar.
Gözünün yaşını sıxdı buludlar,
Ağladı, ağladı, yoruldu bu gün.

Haqqdan cənnətini umdu əbədi,
Ölümün qoynuna cumdu əbədi,
Bir körpə gözünü yumdu əbədi,
Bir çiçək bağından qırıldı bu gün.

Taleh dərdləriylə barışdı, gəldi,
Küskün taleyiylə yarışdı, gəldi.
Bir dərd də dərdinə qarışdı gəldi,
Gördüyü yuxusu çin oldu bu gün.
Bir matəm mağarı quruldu bu gün.

*10.10.2017*

## Ağlamağa qoymayın onu

Sizə tapşırıram onu, siz Allah,
Ölsəm ağlamağa qoymayın onu.
Deyin saxlamasın mən zalıma yas,
Matəm saxlamağa qoymayın onu.

Dərdi dəniz olub, həsrəti zəmi,
Ona çox vermişəm kədəri, qəmi.
Qırmızı geyinsin qərənfil kimi,
Qara bağlamağa qoymayın onu.

Deyin sadiq olsun məhəbbətimə,
Dayansın birtəhər bu həsrətimə.
Onla qoşa gəlin ziyarətimə,
Təkcə yoxlamağa qoymayın onu.

O ağlar, üşüyər, donar məzarım,
Ah çəkər, alışar, yanar məzarım.
Talehəm, Allahı qınar məzarım,
Ölsəm ağlamağa qoymayın onu.

*28 sen 2017*

## Bir də çıx yoluma, çıxdığın kimi

Yalnız Günəş baxır, yalnız Ay baxır,
Sən mənim üzümə baxdığın kimi,
Yalnız işıq axır, yalnız, nur axır,
Sən mənim könlümə axdığın kimi.

Arzular ağlasa, kimsə kiritmir.
Arzular dayansa, kimsə yeritmir.
Alovlar yandırmır, odlar əritmir,
Sən məni yandırıb-yaxdığın kimi.

Getmə uzaqlara, dolanma sərin,
Talehin qəlbidi ünvanın, yerin,
Bir də çıx yoluma, gəl bir də görün,
İlk dəfə yoluma çıxdığın kimi,

*3 sen 2017*

## Oyatma qafil..

Əlində tutduğun qılıncı düz vur.
Öldür, ölümümü yubatma qafil.
Vuranda hədəfə əməlli söz vur,
Çaşıb hara gəldi söz atma qafil.

Qoy çəkim fələklə qeylü-qalımı,
Qoy çəkim, yaşadım xam xəyalımı,
Sən təbib deyilsən sorma halımı,
Tərpədib yaramı qanatma qafil.

Mənim işim yoxdu qohumla-yadla,
Yaşamaq bəsimdi bir quru adla.
Pambığı gətirib oynama odla,
Mənim kimliyimi unutma qafil.

Tanışın olmayan ünvana söymə,
Keç adla bu yoldan Talehə dəymə.
Çox da yaralıyam, özünü öymə,
Yaralı aslanı oyatma qafil.

*29 avg 2017*

## Get daha

Məndən uzaq dolan, məndən uzaq dur,
Səni istəmirəm, yeri get daha...
Harda imkan tapsan kürəyimdən vur,
Bacardığın nə var onu et daha,
Səni istəmirəm yeri get daha...

Məni baş-başa qoy qayğılarımla,
Oynama bir daha duyğularımla,
Qoy özüm dil tapım arzularımla,
Yığış xəyalımdan yox ol, it daha,
Səni istəmirəm yeri get daha...

Qırdın məhv elədin bitirdin məni,
Dumanda, çiskində itirdin məni,
Talehəm, sonuma gətirdin məni,
Mən artıq bitmişəm, sən də bit daha,
Səni istəmirəm, yeri get daha...

*29 avg 2017*

## Düşdüm

Şöhrətimdən qaçıb, adımdan qaçıb,
Bir dəli sevdanın bağına düşdüm.
Qohumumdan qaçıb, yadımdan qaçıb,
Dərdin qar ələyən dağına düşdüm.

Sındı, qırılmadı kimsə mən qədər,
Sevdi, vurulmadı kimsə mən qədər.
Yandı, qovrulmadı kimsə mən qədər,
Yandım, piltələrin yağına düşdüm.

Oldum illər ilə bir eşqə xəstə,
Ruhum dusdaq oldu qanlı qəfəsdə.
Talehəm, düzüldüm sətirlər üstə,
Axdım, varaqların ağına düşdüm.

*29 avg 2017*

## Dolanım gedim...

Gəl qızılgül kimi, gəl çiçək kimi,
Hər səhər şehinə bulanım gedim,
Çıx mənim yoluma bir mələk kimi,
Yüz dəfə başına dolanım gedim.

Gəlim bahar olum, gəlim yay olum.
Gecə pəncərənə qonum, Ay olum,
Axan bulaq olum, axan çay olum,
Yol tapım qoynuna calanım gedim.

Baxım, ilham alım al yanağından,
Sənə gül gətirim Leyli dağından.
Bir şirin busə ver bal dodağından,
Yar deyim, oduna qalanım gedim.

Böhtana, yalana uyma, a zalım,
Bu şirin sevdadan doyma, a zalım,
Talehi həsrətdə qoyma, a zalım.
Qıyma sənsizliklə talanım gedim.

*29 avg 2017*

## Fələk..

Heç daşın daş üstə qalmasın sənin,
Yaman çox özünü öyürsən, fələk,
Varlıya yanında yer eləyirsən,
Kasıbın başına döyürsən, fələk.

Yaxşı dünyamıza pislik əkirsən,
Yaxşını qırırsan, əzib tökürsən,
Namərdi ucaldıb başa çəkirsən,
Mərdini bir ucdan yeyirsən fələk...

Qayğıkeş bağbana qıymırsan barı,
Yayın ortasında verirsən qarı.
Xəsisin başından tökürsən varı,
Yetimin haqqına dəyirsən fələk..

Aqili, alimi ucuz satırsan,
Əyrini, quldurı baha tutursan.
Ədaləti-haqqı tez unudursan.
Mizan tərəzini əyirsən fələk..

Nə pisliyin varsa eylə, beləsən,
Götür zindanlara teylə, beləsən.
Nəyi səf demişəm söylə, beləsən,
De, Talehə nəyi deyirsən, fələk..

*19 avg 2017*

# Biz!

Təkcə yaradana can borcluyuq.
Təkcə yaradanın bəxşişiyik biz.
Onun buyruğuyla gəlmişik cana,
Onun əsəriyik, əl işiyik biz !...

Olsa da nə qədər yaxın kəsimiz,
Ata-anamızdı müqəddəsimiz.
Çatsın bu aləmə qoy haqq səsimiz.
Bu yurdun sabahı, keçmişiyik biz !...

Üstünə əsənik dumanlıqların.
Yoluna çəpərik yamanlıqların.
Köksünə işığıq qaranlıqların.
Günəşin dünyaya gəlişiyik biz !...

Süfrəmiz halaldı, gözləri toxuq,
Düşmən ürəyinə tuşlanan oxuq.
Taleh, namərdlərin yanında yoxuq.
Dostların sevinci, gülüşüyük biz!...

*6 avg 2017*

# Oğlum

*Dünyasını dəyişmiş gənc bir
dostumun diliylə*

Qara torpaq altda gühünahsız yatan,
Bu qərib atanı gəl ağla oğlum,
Qoyma unudulum, qoyma yadlaşım,
Ömür dəftərimi varaqla oğlum.

Yağı həsrət qoydu öz vətənimə,
Qovuşa bilmədim Kəlbəcərimə.
İndi ruhum gedir mənim yerimə,
Ruhumu dağlarda soraqla oğlum.

Vaxtsız qarşıladı azarım məni,
Aldı qucağına məzarım məni.
De ki tapmayacaq dostlarım məni,
Gəzsə də əlində çıraqla oğlum.

*7 iyul 2017*

# Aman deyib gəlmişəm

Söyləmişəm La İlahə İl Allah.
Haq önündə aman deyib gəlmişəm.
Baş əymişəm Məhəmmədin dininə,
Sahib İbn Zaman deyib gəlmişəm.

Müsəlmanam, qiblə deyib kəbəyə,
Qayıtmışam günahlardan tövbəyə.
Sığınmışam bir İlahi kölgəyə,
Yaxşılığı iman deyib gəlmişəm.

Yaradandı yerin-göyün sultanı,
Ona təslim eyləmişəm bu canı.
Talehəm qəlbimdən qovub şeytanı,
Daş atmışam, yaman deyib gəlmişəm.

*7 iyul 2017*

## Ölürəm

Bu gözəllik ilahinin payıdı,
Dön mənə bax qız amandı ölürəm.
Süzdürüb qaş altdan qara gözləri,
Çox eyləmə naz, amandı ölürəm.

Salıbdı toruna qurğun aşiqi,
Yorma yollarında yorğun aşiqi.
Bu biçarə, könlü vurğun aşiqi,
Qismətinə yaz, amandı, ölürəm.

Bir vədə ver ortalığa görüş qoy,
Tez qovuşsun vüsalına bu iş qoy.
Bal süzülən ləblərinə gülüş qoy,
Dünya olsun yaz, amandı ölürəm.

Qaşların oxdandı, kipriyin yaydan.
Camalın gözəldi Günəşdən, Aydan,
Ayır Talehə də o şirin paydan,
İnsafa gəl, az, amandı ölürəm.

*13 iyun 2017*

# Olmaz bizə küsülü qalmaq!

Arada məhəbbət, sevgi var gülüm.
Arada illərin eşqi var gülüm,
Arada ölüm var, itgi var gülüm,
Nə gərək bu eşqi odlara salmaq?
Vallah olmaz bizə küsülü qalmaq !

Yad gülər, düşmənlər sevinər, baxar,
Bu hər ikimizi yandırar, yaxar,
Həm səni, həm məni talayar, yıxar,
Axıb göz yaşı tək gözlərə dolmaq,
Vallah olmaz bizə küsülü qalmaq !

Öldürmə gəl nazla onu heç nəsiz,
Qoyma bu Talehi yetim, kimsəsiz.
Sənə asandımı bu qədər əziz,
Belə doğma olub, belə yad olmaq?,
Vallah olmaz bizə küsülü qalmaq !

*23 iyun 2017*

## Umduğum budu

O qara gözlərə göz yaşı qıyma,
Dərdi yaxamızdan tutmağa qoyma,
Gəl mənim sevgimi ötəri sayma,
Səndən bu dünyada umduğum budu.

Dəyişmərəm səni elə yüzünə,
Uyma yamanların yaman sözünə.
İnan ürəyinə, inan özünə,
Səndən bu dünyada umduğum budu.

Sənsiz nə haldayam, gəl, məni gör, get.
Bax, necə qınayır el məni, gör, get.
Nələr çəkdiyimi bil, məni gör, get,
Səndən bu dünyada umduğum budu.

Dindirmə qarğışla, qanla Talehi.
Qorxutma ölümlə, canla Talehi.
Nə olar başa düş, anla Talehi,
Səndən bu dünyada umduğum budu.

*13 iyun 2017*

## A dağların maralı

O qara gözlərə gülüş yaraşır,
Elə durma a dağların maralı.
Ürküb gendən naşı kimi boynunu,
Elə burma a dağların maralı.

Yolundakı dumana bax, çənə bax,
Nə haldasan, bu düşdüyün günə bax…
Gör nə qədər yol gəlmişəm, mənə bax..
Eyham vurma a dağların maralı.

Həsrətindi saçlarımın hər dəni,
Öz canımdan çox sevirəm mən səni.
Bu Talehlə qoşa gəzək gülşəni,
Məni yorma a dağların maralı.

*19 iyun 2017*

# Bu sevgi

Həsrətinə dayanmadı, dözmədi,
Yenə görüşünə gəldi bu sevgi.
O verdiyin zülümlərdən bezmədi,
Yenə görüşünə gəldi bu sevgi.

Sadiq oldu, dəyişmədi yolunu,
Yerdə səni seçdi, göydə ulunu,
Açdı qucağını, açdı qolunu,
Yenə görüşünə gəldi bu sevgi.

Qoyma həsrətindən sınam, a zalım.
Sənsən tək gül üzlü sonam, a zalım.
Qınama Talehi, qınama, zalım.
Yenə görüşünə gəldi bu sevgi.

*6 iyun 2017*

## Qürursuz sev

O səndə gizlənən, qürurdan küsüb,
Get bir az mehriban, bir az incə ol.
Dindir təbəssümlə yolunu kəsib,
Qolunu boynuna dola bircə yol.

Yəqin ki, hər şeydən inciyən-küsən,
Qapanan birisən özünə çox-çox...
Bəlkə, taleyindən çox gileylisən.
O, səni kəşf edib, sənsə onu yox !..

Ya da ki, oxşarın çıxıb qarşına,
Qarşı-qarşıyadı qaya ilə daş.
Get, bir az səmimi yaxınlaş ona,
Qürurla yanaşmaz yoldaşa-yoldaş.

Demirəm, kimsənin ayağına get,
Get, səni sevənə azca ümid ver.
Qəlbin nə qərarı versə, onu et,
Bil ki, yox sevgidə qürurluya yer.

Dənizin bulaqdan təmənnası yox,
Bax, hədiyyə verir öz yağışını.
Günəşin torpaqdan təmənnası yox,
Bax, hədiyyə verir öz baxışını.

Gətirmə sevgini öz ayağına,
Get özün onunla barış, sev onu.
Özün su çiləmə öz ocağına,
Bir də təmənnasız çalış sev onu .

Ey könül, qüruru bir kənara at,
İncimə Talehin nəsihətindən.
İtirsən, onunla qurtarar həyat,
Çox şeyi aparar bu sevgi səndən.

Qürur ayırmasın kimsəni kimdən.
Sevgi əzab çəkər qürur əlindən.

## Götür məni itirdiyin yerlərə

Ürəyimi zincirə vur, qisas al,
Götür məni götürdüyün yerlərə.
Gecə ovut, səhər tezdən yola sal.
Gətir məni itirdiyin yerlərə.

Gəl aç götür gözlərimdən pərdəni.
Həsrətin say saçımdakı hər dəni,
Qaytar bir də, görüş verib bəndəni,
Heykəl edib bitirdiyin yerlərə..

Yoluma çıx, yollarıma işıq saç,
Üstümə cum, qollarını geniş aç.
Apar məni, xəyalımı götür qaç,
Vüsalına yetirdiyin yerlərə.

Hisslərimi dustaq eylə, dərdə çək.
Məhəbbətlə gözlərimə pərdə çək.
Bu Talehi bir də sına, bir də çək,
Ayağına gətirdiyin yerlərə.

*24 may 2017*

## “Gəzmə" demişdin

Yəqin dediklərin yadından çıxıb,
"Sən məni axtarma, gəzmə”, demişdin.
Mən belə xoşbəxtəm güllər içində,
"Məni bu çəməndən üzmə", demişdin.

"Get ağlayan göz ol, get axan yaş ol!
Get cansız bədən ol, get cansız daş ol.!
Get, özün bilərsən qəmə yoldaş ol.!
Ayrılığa döz, ya dözmə" demişdin.

" Doğruya bənzədib yalan sevgini,
Salma ürəyimə talan sevgini.
Dəfn elə qəlbində olan sevgini,
Varaqlar üstünə düzmə " demişdin.

Bax indi bu Taleh ey vəfasız yar,
Səni unutmağa veribdi qərar,
Daha bu Talehi az ara-axtar,
"Özünü çox əzmə-büzmə" demişdin
"Sən məni axtarma, gəzmə" demişdin.

*23 may 2017*

## Yolların üstə

Əlimdə bir dəstə məhəbbət gülü,
Gəlmişəm, durmuşam yolların üstə.
Qurbanam, gəlmişəm sənə könüllü,
Boynumu burmuşam yolların üstə .

Sevən sevdiyini qıyıb kimsəyə,
Unutmaz deyirdin, unutdun niyə?...
Bəlkə xatırlayıb tanıdın deyə,
Gəlib oturmuşam yolların üstə.

Sevgini əkmişəm, bağ yaratmışam.
Eşqini göylərə, tağ yaratmışam.
Taleһəm, qəlbimdə dağ yaratmışam,
Qalalar qurmuşam yolların üstə.

*19 may 2017*

# Gördüm

Yaman ağır etdin cəzamı dünya.
Səndə min əzabı, cəzanı gördüm.
Saxlaya bilmədin nizamı dünya ,
Səndə çox yolunu azanı gördüm.

Könlümü öyrətdib qəm havasına,
Hər gün ortaq etdin məni yasına.
Neçə günahsızı öz balasına,
Əliylə məzarı qazanı gördüm.

Atdın ayaqlara mərhəmətini,
Üzə çıxarmadın mərdi, mətini.
Neçə günahgarlar cinayətini,
Sənin ayağına yazanı gördüm.

Saldın çoxlarını qanlı şərinə,
Kimsə gedəmmədi sənlə dərinə.
Səndə qanunları pul hünərinə,
Asanca dəyişib, pozanı gördüm.

Çoxu həris oldu qanlı tacına,
Acımadın səfilinə, acına.
Qul etdin onu da ehtiyacına,
İtə toy eyləyən ozanı gördüm.

Bir üzün ağ oldu, bir üzün qara,
Göz yumdun nə qədər yamanlıqlara.
Saldın çoxlarını günahsız tora,
Talehəm, çox yerdə qəzanı gördüm.

*11 may 2017*

## Bu gözəl

Gör neçə ürəyi daşa döndərib,
Gör neçə könüllər qırıb bu gözəl..
Gör neçə tor qurub baxışlarıyla,
Gör neçə hiylələr qurub bu gözəl.

Əsir edib o sehirli gülüşə,
Həsrət qoyub bir maraqlı görüşə.
Qaş-göz atıb, canlar alıb həmişə,
Çoxunun qəsinə durub bu gözəl.

Ürəyi var, qayaların daşıdı,
Gözəllik var, gözəllərin başıdı.
Elə bilmən ovçuluqda naşıdı,
Talehi də yaman vurub bu gözəl..

*4 may 2017*

## Gəlin gətirəkmi sən bu kəndə?

Nə deyirsən kəndi bəyənməyən qız,
Gəlin gətirəkmi sən bu kəndə?...
Dəysin kəndimizə bahar nəfəsin,
Bir gül bitirəkmi səni bu kəndə ?

Görək qamətini gəlin donunda,
Gəlin ol, xoşbəxt ol yar ünvanında.
Vağzalı səsiylə, bəy maşınında,
Gələk götürəkmi səni bu kəndə ?

Tanrı qismətinə ay gözəl sona,
Bir şirin pay versin, sən də ol ana.
Taleh elçin olsun, öz muradına,
Alaq yetirəkmi səni bu kəndə?

*3 may 2017*

## Gəl səni vəsv edim

Gəl səni vəsv edim şeirlərimdə,
Çəkim surətini mələklər kimi.
Çiçəklərinə dön çəmənlərimin,
Göstərim üzünü çiçəklər kimi.

Üzünə gülüş qoy, gözünə sevinc,
Bir az həsrətindən qıraqda dayan.
Qıyma bu ilahi gözəlliyə heç,
Bədnəzər gözlərdən uzaqda dayan.

Gəl səni vəsv edim güllər içində,
Amma gözlərində qəmi çəkməyim.
Gəl sənin üzündə gülüş yaradım,
Amma az da olsa qəmi çəkməyim.

Gəl məni yandıraq, yanım şam kimi,
Səni ətrafımda pərvanə çəkim.
Mən Məcnun oynayım, sən də leylimi,
Talehi eşqində divanə çəkim.

*25 apr 2017*

# O qız

Yolunda can verib qurbanı olsam,
Görəsən qədrimi bilərmi o qız !...
Başına dolanıb qadasın alsam,
Bircə yol üzümə gülərmi o qız !...

Bilsə ki olmuşam dərdindən ölü,
Naləsi tutarmı çəməni, çölü?...
Əlində bir dəstə məhəbbət gülü,
Qəbrimin üstünə gələrmi o qız !...

Görər bildirərmi xoş sevgisini,…
Dilə gətirərmi daş sevgisini…
O soyuq qəlbinin qış sevgisini,
Nə vaxtsa mənimlə bölərmi o qız !..

"Qapında səcdəyə gəldi" desələr,
"Sevgini dərmanı bildi" desələr,
"Taleh həsrətindən öldü" desələr,
Talehin dərdindən ölərmi o qız!…

*25 apr 2017*

# Arzular kimi..

Asılıb telimin hər dənəsindən,
Həsrətin telimə yağıb, qar kimi.
Asılıb gözümün hər giləsindən,
Əsibsən könlümə ruzigar kimi.

O bəxtinə niyə daş yazıb fələk,
O gözlərə niyə yaş yazıb fələk?…
O ömrünə niyə qış yazıb fələk,
Qəlbində üşüyən arzular kimi...

Talehi yollarda yorub xəyalın,
Talehin köksündən vurub xəyalın,
Talehin, önündə durub xəyalın,
Olub şirinləşən nağıllar kimi.

*11 apr 2017*

## Mən bir özgəninəm, sən bir özgənin

Nə gəlir əlimdən söylə gözəl qız?
Sənə pay verimmi cavanlığımdan,?
Bir gözəl həyatmı vəd edim sənə,
Bu zülmət aləmdə qaranlığımdan..

Nə verim mən sənə könlünü alsın?,
Bir könül bağım var, talandı o da...
Mənə çox inanma yadında qalsın.
Desəm ki sevirəm, yalandı o da...

Nə deyim könlünü oxşasın sənin?,
Vermək istəmirəm yalan vəd sənə.
Mən bir özgəninəm, sən bir özgənin,
Desəm yalanım da dərd olar sənə.

Mənim bu yaşıma yaraşmaz gözəl.
Bir sevən könüllə oynayıb atmaq.
Bir könül bağını viranə qoyub,
Tanrı dərgahında günaha batmaq.

Bağlama Talehə ümidlərini,
Salmasın toruna arzular səni.
Sən bir tər çiçəksən dərilməmisən.
Gəl öz günahına batırma məni.

*7 apr 2017*

## Sən!

Bir belə gözəllik mələkdə olur,
Qız hansı rəssamın xəyalısan sən?
Bu qədər yaraşıq çiçəkdə olur,
Qız hansı çiçəyin misalısan sən?

Can alır baxışın baxanda gözə,
Can alır gülüşün güləndə üzə.
Yaraşıq verirsən çəmənə, düzə,
Qız hansı dağların maralısan sən?

Göydənmi yendirib yaradan səni,
Yerdənmi bitirib yaradan səni?
Tanrı bəxş eləyib haradan səni?,
Söylə dağlar qızı haralısan sən?

Talehi salmısan öz xəyalına,
Taleh əsir olub gül camalına.
Ellər heyran qalıb xətti-xalına,
Yoxsa o Leylinin misalısan sən,
Qız hansı dağların maralısan sən?

*1 apr 2017*

# Bu qız

Hamıdan gizlədir gözəlliyini,
Nə yaman zalımdı, xəsisdi bu qız..
Elə bil dilini bala batırıb,
Nə yaman hamıya əzizdi bu qız…

Göylərdə ulduzudu, mələkdi vallah,
Könüllər oxşayan küləkdi vallah,
Yenicə açılan çiçəkdi vallah,
Bulaq suyu qədər təmizdi bu qız.

Taleh, o günəşdi, göylərdən enməz.
Parlayan atəşdi, ölüncə sönməz.
Onunla arzular bitməz, tükənməz,
Arzularla dolu dənizdi bu qız.

*1 apr 2017*

## Gəldi

Yenə cərgələndi Kəlbəcərimdən,
Uçan durnaların qatarı gəldi.
Yenə dərdlərimin açıldı dili,
Yenə həsrətimin azarı gəldi.

Dözdüm ayrılığa, ölmədim bu yaz.
Yenə sevinmədim, gülmədim bu yaz.
Dərdimi dağlarla bölmədim bu yaz,
Yenə ürəyimin qubarı gəldi.

Sizlərə nə desin bu önlü xəstə,
Qalmayıb deməyə ruh da, həvəs də…
Bu il də Talehin ömrünün üstə,
Yenə Kəlbəcərsiz baharı gəldi.

*30 mart 2017*

## Üstə

Yenə kol dibindən açır bənövşə,
Yenə bahar gəlir bağların üstə.
Yenə göylərinə çəkilir duman,
Yenə Günəş doğur dağların üstə..

Qoynuma sığınır yatır telli saz.
Ağlayır, kamına çatır telli saz.
Yenə günahlara batır telli saz,
Sinəmə dağ çəkir dağların üstə.

Talehəm, həsrətə dözür ürəyim.
İtən gəncliyini gəzir ürəyim.
Nanə yarpağı tək əsir ürəyim,
Ötən xatirəli çağların üstə.

*30 mart 2017*

# Köçdü

Ələsgər duyğusu, Ələsgər sözü,
Zilimə qarışıb, bəmimə köçdü.
Şəmşir ocağının alovu, közü,
Sevincimə köçüb, qəmimə köçdü.

Ata duyğusundan süzüldü axdı.
Ana laylasından üzüldü axdı.
Elimin dilindən düzüldü axdı,
Söz mənim ruhuma, himimə köçdü.

Talehəm mən yazdım düzü-doğrusu.
Olmadım heç zaman sözün oğrusu.
Kəlbəcər həsrəti, Göyçə duyğusu.
Sözümə səpildi, zəmimə köçdü.

*30 mart 2017*

# Olmaz

Halal duz-çörəyin qədrini bilək,
Yaxşılığın haqqı-bazarı olmaz.
Kişi gələr üzə deyər sözünü,
Daldada gileyi, güzarı olmaz.

Dostu puldu vicdanını satanın,
Tülkü kimi pusqularda yatanın.
Özgə namusuna böhtan atanın,
Öz namusu olmaz, öz arı olmaz.

Vardan ötrü qardaşından keçənin,
Haram yeyib dövrü-başa keçənin,
Qürbəti özünə vətən seçənin,
Ölər qürbət eldə, məzarı olmaz.

Eyləməsək tanrımıza inadı,
Taleh, cənnət elə bizim dünyadı.
Azmasa yolunu insan övladı,
Ağrısı-acısı, azarı olmaz.

*30 mart 2017*

## Gedər asdaca..

Ömür əsib gedən küləyə bənzər,
Sürüşər asdaca, gedər asdaca.
Dayanmaz heç zaman saatlar, anlar,
İnsanı izləyər, güdər asdaca.

Gələndə qurular toyu, büsatı,
Gedəndə deyilər ağı, bayatı.
Torpağa qarışar insan həyatı,
Çürüyər asdaca, itər asdaca.

Taleh qəbul etməz dolu boşları.
Qonşuların olar məzar daşları.
Qəbrinə tökülən o göz yaşları,
Quruyar asdaca, bitər asdaca..

*30 mart 2017*

## Beləsən deyə..

Yoluma çıxana nəzir demişəm,
Sən mənim yuxuma gələsən deyə.
Canımı canına əsir demişəm,
Bircə yol üzümə güləsən deyə..

Masamın üstündə şölə saçan şam,
Əriyib bitincə oyaq qalmışam.
Dua eyləmişəm hər səhər-axşam,
Səni sevdiyimi biləsən deyə..

Bəxtimə düşmüsən göyərçin kimi.
Qapına gəlmişəm bir elçin kimi.
Sənə əl açmışam dilənçin kimi,
Sevgini mənimlə böləsən deyə.

Hər an səni itirmyin qorxusu,
Bu Talehi dəli edib doğrusu.
Adını qoymuşam könül oğrusu,
Ay zalım balası beləsən deyə..

*16 fev 2017*

## Öyrəşə bilmədim bu sənsizliyə

Azad xəyalımı kəməndə saldın.
Hissimi, duyğumu əlimdən aldın.
Bəxtimin ilkini daşlara çaldın.
Öyrəşə bilmədim bu sənsizliyə.

Doldun ürəyimə bir ümman kimi,
Gəldin həyatıma talisman kimi.
Çökdün gözlərimə bir duman kimi,
Öyrəşə bilmədim bu sənsizliyə.

Məni Məcnun edib ellər içində,
Gizləndin ötüşən illər içində.
Səni çox axtardım güllər içində.
Öyrəşə bilmədim bu sənsizliyə.

Talehəm, həsrətə olmadı tabım.
Artdı günü-gündən dərdim, əzabım.
Ey mənə yazılmış ömür kitabım,
Öyrəşə bilmədim bu sənsizliyə.

*2 fev 2017*

# El kimi…

Qarışqa nər deyil fil meydanında,
Qopsa tufan kimi, gəlsə yel kimi.
Qarğa qızılquşun rəqibi olmaz,
Gəlsə qoşun-qoşun, gəlsə sel kimi.

Misin adı misdi, əzəl ya axır,
Nə vaxtsa üzünə çıxacaq paxır.
Onu tanımağa zərgəri çağır,
Qiymətə mindirmə hələ el kimi.

Kimsə qaça bilməz el qınağından,
Hər kəsi asarlar öz ayağından.
Qürbətdə xan kimi yaşamağından,
Yaşamaq yaxşıdı eldə el kimi.

Nazını çəksə də mini-milyonu,
Anan ola bilməz, gəl anla bunu.
Ana qayğısıyla səf salma onu,
Əl görə bilməzsən elə əl kimi.

Taleh qədirbilən qardaşın olsa.
Köməksiz olmazsan savaşın olsa.
Yanında vəfalı yoldaşın olsa,
Çəkərsən hər qəmi qoşub kəl kimi.

*27 dek 2016*

## Hardan biləsən…

Sən hardan bilərən , nələr çəkibdi,
Səni öz içində dəfn edən ürək..
Sən nədən biləsən nələrdən keçib,
Səni bu günlərdə tərk edən ürək.

Sən nədən biləsən, dərdin olmayıb,
Ayrılıq adında, həsrət adında..
Hələ yanmamısan, külün qalmayıb,
Məhəbbət odunda, sevgi odunda.

Sən nədən biləsən məhəbbət nədi,
Sən ki sevilməyi bilirsən ancaq.
Özün görməmisən bir elə dərdi,
Onunçun, hamıya gülürsən ancaq..

Sən hardan biləsən bu Taleh sənə,
Nələri verməyə hazırlaşırdı…
Sən hardan biləsən xəyalın mənə,
Gizlicə gəlirdi, qucaqlaşırdı..

Sən nədən biləsən yoxluğun mənə,
Necə ağrı verir, necə dərd verir.
Bilirəm, çətin ki çatacaq sənə,
Bu Taleh hələ də tək səni sevir.

*13 dek 2016*

# Xatirən kimi

Səni istəyrəm xatirələrdən,
Gəl mənə yaxın ol xatirən kimi.
Yenə yuxuma qon pəncərələrdən,
Süzül, qəlbimə dol xatirən kimi.

Səni istəyirəm, tək səni yalnız,
Ay məni özünə heyran edən qız.
Heç bir təmənnasız, heç bir yalansız,
Sən də mənə vurul xatirən kimi.

Qarış, xəyalıma duyğuma qarış,
Ax dol ürəyimə, arzuma qarış.
Əlini əlimdən tutmağa çalış,
Bu Talehə qoşul xatirən kimi.

*13 dek 2016*

## Goranboydu bu

Şanlı tarixinə töhfələr verən,
İgidlər yetirən Goranboydu bu..
Kazımı, Göyüşü, Qatır Məmmədi..
Dünyaya gətirən Goranboydu bu.

Söyləsin sazımın gərək hər simi,
Dinləsin gələcək nəsil dərsimi.
Ələkbəri, Maşallahı, Rasimi,
Mamedi bitirən Goranboydu bu..

İçibdi əlindən ağı düşməni,
Qovub sinəsində dağı düşməni.
Vətən torpağından yağı düşməni,
Süpürüb itirən Goranboydu bu.
.
Cəfəroğlu gərək desin düzünü.
Tanıdıbdı hər tərəfə özünü..
"Qəhrəman" sözünü, "igid" sözünü,
Çiyninə götürən Goranboydu bu..

*30 noy 2016*

# Həsrət çəkir

Ürək muma dönür adın gələndə,
Telinə dəyməyə əl həsrət çəkir.
Çıxır yollarına, könüllü dəlin,
Əlində tutduğu gül həsrət çəkir.

Hər gün şair kimi xəyala dalıb,
Sənə şeir yazır yadına salıb,
Şirin kəlmələrlə könlünü alıb,
Nazını çəkməyə dil həsrət çəkir..

Qəlbimi oxşamır nə yaz, nə bahar,
Sənsiz bu həyatın nə mənası var!...
Sən ay Talehini unutmayan yar,
Bu Taleh hələ də bil, həsrət çəkir.

*12 noy 2016*

# Niyə?

Səndən bir xatirə nə qaldı mənə,
Saxta gülüşünmü, acı sözünmü?...
Səndən bir xatirə nə qaldı mənə,
İsti baxışınmı, gülər üzünmü?...

Sənli xatirələr nə verdi mənə,
Acımı, şirinmi, özün de bunu….
Sənin məhəbbətin əyandı sənə.
Dayazmı, dərinmi, özün de bunu.

Sənli xatirələr daş etdi məni.
Atıldı könlümə qara daş kimi.
Sənli xatirələr ağlatdı məni.
Doldu gözlərimə acı yaş kimi.

Nəyi səhf eylədik biz ilk görüşdə?
Səni sevməyimmi günahım oldu?
Sənə ürəyimin qapısın açıb,
Könül verməyimmi günahım oldu?

Belə zalımlığı necə bacardın?
Danış, elədiyin cinayətindən..
Bu sevən könlümü de niyə qırdın?
Doydunmu Talehin məhəbbətindən?

*4 noy 2016*

# Yad ürəyimdə

Odlar diyarının övladıyam mən!
Yanmaq duyğusu var od ürəyimdə.
Xocalımın qanı yerdədi hələ,
Ocaq çata bilməz yad ürəyimdə.

O yurda bağlıdı ürəyim, canım,
Gözəl Qarabağdı sözüm, ilhamım,
Mənim Kəlbəcərim, Şuşam, Ağdamım,
Qoyubdu silinməz ad ürəyimdə..

Şəhid məzarının baş daşıyam mən!.
Şəhid anasının göz yaşıyam mən!.
Şəhid qardaşımın qardaşıyam mən!.
Olmaram heç zaman şad ürəyimdə.

Taleһəm vətənin vətən daşıyam,
Dərdim aman verməz rahat yaşayam.
Qanlı yanvarımın qan yaddaşıyam,
Yaşayır o fəryad, dad ürəyimdə..

*2 noy 2016*

## Çəkib

Qız, səndə cəmlənən bu gözəlliyi,
Hansı insafsızın qələmi çəkib?
Sanki ilhamını mələklər verib,
Bu dünyanı görüb, aləmi çəkib.

Gözündə, ümmanı yarada bilib,
Üzündə, səmanı yarada bilib.
Ən gözəl simanı yarada bilib,
Ən gözəl, baxışı, görkəmi çəkib..

Səni bu dünyaya nübar gətirib.
Talehi hüsnünə şikar gətirib.
Qəddi-qamətinə bahar gətirib,
Yazın gəlişinə müjdəmi çəkib.

*27 okt 2016*

## Dayandır məni

Qoyma günahlara bu qədər batım.
Dayandır İlahi, dayandır məni.
Qoyma cəhalətdə bu qədər yatım.
Oyandır İlahi, oyandır məni.

Vicdan məhkəməsi, haqq divanı qur,
Yaxşıları qoru, tərəfində dur.
Etdiyim əməli, düz üzümə vur,
Utandır İlahi, utandır məni.

İnsan zirvəsindən enməyə qoyma.
Varın əsirinə dönməyə qoyma.
Cəhənnəm atına minməyə qoyma,
Yubandır İlahi, yubandır məni.

Dünyanın bir əldə cəm olduğunu,
İnsanın əcələ yem olduğunu,
Xatırlat Talehə kim olduğunu.
İnandır İlahi, inandır məni.

*20 okt 2016*

## Bitər

Ayrılıq sevgini azalda bilməz,
Əsl məhəbbətlər məzarda bitər.
Təmənna olarsa dost arasında,
Axırı gileydə, güzarda bitər.

Dünya qurulandan belədi vərdiş.
Məhv edər, dəyişər hər şeyi gərdiş.
Körpələr doğular qoca getməmiş.
Ömrümüz al-verlə, bazarla bitər.

Gələndə çalınar toyu, büsatı,
Gedəndə qurular dəfni, yuyatı.
Mürəkkəb qurulub İnsan həyatı,
Sonuncu ünvanı məzarla bitər.

Baharın ömrü də, qışın ömrü də...
Qayanın ömrü də, daşın ömrü də…
Göydə qanad çalan quşun ömrü də,
Vaxta tabe olar, azarla bitər..

Taleh, ilahidi verən hər kəsi,
Unutma heç zaman o müqəddəsi.
Təkcə romanların axır nöqtəsi,
Qələmlə qurtarar, yazarla bitər.

*5 okt 2016*

# Sərib gedərdim…

Səni gəncliyimə qaytara bilsəm,
Sənə gəncliyimi verib gedərdim.
Səni keçmişimə apara bilsəm,
Qəlbimi önündə sərib gedərdim.

Yaşaya bilsəydik eyni zamanda,
Gül təki nazını çəkərdim onda.
Bitsən hansı bağda, hansı məkanda,
Səni əllərimlə dərib gedərdim.

Qoymazdım önündə kimsə gül tuta,
Qıymazdım əlindən kimsə əl tuta.
Qoşa bağlanardım sənlə həyata,
Sənin ürəyinə girib gedərdim..

Talehəm, əcəldən icazə alıb,
Yaşardım qolumu boynuna salıb.
Bilsəydim ömrümə saatlar qalıb,
Gəlib camalını görüb gedərdim..

*20 sen 2016*

# Getdi o

Bu dünyanın dünya boyda dərdini,
Ürəyində daşıyaraq getdi o.
Yaxşı oldu yamanların içində,
Yaxşı kimi yaşayaraq getdi o.

Şəlalə tək qayalardan üzüldü,
Dastan oldu sətirlərə düzüldü.
Gülüş oldu ürəklərə süzüldü,
Könülləri oxşayaraq getdi o.

Yozammıram bu qaranlıq yuxunu,
Ölümünə heyran etdi çoxunu.
Ayrılığın həsrət adlı oxunu,
Sinəmizə tuşlayaraq getdi o.

Qınamayın bu Talehi, fağırdı.
Ona belə dost itirmək, ağırdı.
Əcəl onu gülə-gülə çağırdı,
Əcəlini xoşlayaraq getdi o.

*20 avg 2016*

# Gələrəm

Sən çağırsan xəyalınla əl-ələ,
Tapışaram, tutuşaram, gələrəm.
Son qoyaram bu hicrana, həsrətə,
Vüsalına qovuşaram, gələrəm.

Görmək üçün canım alan gözləri.
Duymaq üçün şirin-şəkər sözləri,
Adlayaram dənizləri, düzləri,
Küləklərlə yarışaram, gələrəm.

Günəş kimi yollarına çıxaram.
Qonub hər gün pəncərənə baxaram.
Yağışlarla, bulaqlarla axaram,
Dağ çayına qarışaram, gələrəm..

Taleh sevib o yanaqda xalları,
İncə belə qurban deyib qolları..
Təki çağır, tanımasam yolları,
Sevənlərdən soruşaram, gələrəm.

*14 avg 2016*

## Nə vaxtdı düşməyir iz Qarabağa...

Çalın, kiriməsin qələbə marşı,
Tutaq hər birimiz üz Qarabağa
Verək sinəmizi düşmənə qarşı,
Yol alaq, yeriyək düz Qarabağa.

Nə vaxtı bu hicran vüsala yetmir,
Nə vaxtı bu dərdin ağrısı bitmir,
Nə vaxtdı doğması, əzizi getmir,
Nə vaxtdı düşməyir iz Qarabağa.

Gözləyə-gözləyə tuturuq yası,
Bu qədər dözməyin varmı əsası…
Hələ dolmayıbmı səbr kasası?
Nə qədər yol çəksin göz Qarabağa?..

Çalın o cəngini, susmasın bir an,
Düşmənin yurdunu eyləyək viran.
Qoy olsun Talehdə yurduna qurban.
Aparın dəfn edin tez Qarabağa.
Nə vaxtdı düşməyir iz Qarabağa..

*13 avg 2016*

# Çıxar

Həsrət çəkənlərin qəlbinə dəymən,
Alışar tüstüsü başınnan çıxar.
Dərdi dilə gələr, daşar sel kimi,
Axar, gözlərinin yaşınnan çıxar.

Alova can verən pərvanələrin,
Yurd yeri, vətəni viranələrin,
Qürbətdə yaşayan divanələrin,
Dərdi qabağına qoşunnan çıxar.

Yadına düşdükcə ötən həsrəti,
Talehi yandırar vətən həsrəti.
Gedər xəyallarda itən həsrəti,
Dumanlı Murovun tuşunnan çıxar..

*2 Avq 2016*

## Yatan kəsləri

İlahi qeyrət ver, qeyrətə gətir,
Qeyrəti unudub yatan kəsləri.
Göstər ayıbını, cürətə gətir,
Üzünə örpəyi tutan kəsləri.

Şeytan azdıranda yolundan, tutub,
Qandır noxtasından, çulundan, tutub.
Doğma anasını qolundan tutub,
Qocalar evinə atan kəsləri.

Qaytar özünə ver ötən yurdunu,
Parça-parça olub bitən yurdunu.
Qandır adam eylə, vətən yurdunu.
Yağı düşməninə satan kəsləri.

Göstər Talehə də işıqlı bir yol,
Qoy kökdən qurusun haqqı kəsən qol.
Tanrım, xilas eylə, xilaskarı ol,
Günah girdabında batan kəsləri.

*17 iyul 2016*

# De, niyə baxdın?

Heç mənlə üz-üzə gələn deyildin,
Sən mənim qarşıma de, niyə çıxdın?
Heç çəkən deyildin yerdən gözünü,
Sən mənim üzümə de niyə baxdın?

Yaralı ceyran tək üstümə gəldin,
Ürkək baxışlarla bağrımı dəldin.
İncə təbəssümlə üzümə güldün,
Sən mənim evimi de niyə yıxdın?

O nə nazdı, elə eylədin getdin?
Sona kəklik kimi dumanda itdin,
Öldürüb Talehi, yarımcan etdin.
Sən mənim canımı de niyə sıxdın?

*30 iyun 2016*

# Tək səni sevdi

Əlimə çatmadı əlin bircə gün,
Taleh xəyalını, kölgəni sevdi.
Süründü hər yerdə dalınca sənin,
Ayaqların dəyən məsgəni sevdi.

Bülbül fəğan etdi gül həsrətinə,
Baxdı heyran qaldı el, həsrətinə.
Nəğmələr yaratdı dil, həsrətinə,
Könüllər ağladan nəğməni sevdi.

Yandım, külə döndüm eşqin əlində.
Odun da xoş, oldu acı yelin də…
Dərd də şirinləşdi sənin dilində,
Taleh hər sözünü, kəlməni sevdi.

*29 iyun 2016*

# Yanasan deyə..

Mən səni qəlbimin başına yazdım,
Qəlbim od tutanda yanasan deyə.
Mən səni ömrümün qışına yazdım,
Mən həsrət çəkəndə donasan deyə.

Hissimə, duyğuma qarışdın axdın.
Sevgimə, arzuma qarışdın axdın.
Ruhuma, canıma qovuşdun axdın,
Sevgimi anlayıb-qanasan deyə..

Səni arzuladım, sorağa düşdüm.
Yolunda şam oldum, marağa düşdüm.
Sətirlərə hopdum, varağa düşdüm..
Hərdən bu Talehi anasan deyə..

*26 iyun 2016*

# Boş əlindədi..

Ey könül, axtarma solan çiçəyi,
Onun gül həyatı, qış əlindədi.
Otağı buz kimi, yeri qaranlıq,
Ürəyi bir qəlbi daş əlindədi..

Sonu gəlməz, bu ağrının, talanın,
Vaxtı olmaz, olacağın, olanın.
Gedən bilməz arxasında qalanın,
Gözündən süzülən yaş əlindədi..

Taleh hardan bilsin, haradan yazıb?
Onun taleyini yaradan yazıb.
Ağ günü tapmayıb, qaradan yazıb.
Qisməti tanrının boş əlindədi..

*23 may 2016*

# Bəxtim

Qapımın ağzını əzrail kəsib.
Boynumun dalını zülümkar, qənim.
Nə olar başa düş gəl məni anla..
Bir az mərhəmətli ol mənə bəxtim.

Saldın saçlarıma dən, istəmədim..
Yazdın taleyimi sən, istəmədim.
Nə qədər dərdini mən istəmədim,
Verdin qucaq-qucaq, bol, mənə bəxtim..

Taleһəm, qəlbimdə arzu-dilək var,
Hər yolumun üstə hiylə, kələk var.
Ha yana getdimsə, qanlı fələk var.
De niyə vermirsən yol mənə bəxtim...

*23 apr 2016*

## Ayrılıq oxundu baxışlarında…

Ayrıldıq, duymadıq bir-birimizi,
Ayrılıq oxundu baxışlarında..
Tale sınaq etdi hər ikimizi,
Ayrıldıq yolların yoxuşlarında..

Ayrılıq tez verdi sənə əlini,
O səni güldürdü, mənsə ağladım.
Divardan qoparıb soyuq şəklini,
Son dəfə baxaraq qara bağladım.

Ayrıldıq, o yollar səni apardı,
Götürdü, çatdırdı getdiyin yerə.
Mənimsə qəlbimdə tufan qopardı,
Bir çiçək buraxdım itdiyin yerə..

Beləcə, itirdim mən səni o gün,
Bir sevgi dövlətə, vara satıldı..
Talehi sevməyə catmadı gücün,
Dalınca bir qara daşım atıldı..

*15 apr 2016*

# Dağlar

Sizinlə görüşə gələ bilmirəm,
A mənim dərdimə biganə dağlar!
Sevinə bilmirəm, gülə bilmirəm,
A yurdu-yuvası viranə, dağlar.

Əlimdən nə gəlir, indi, bilmirəm,
Bu işdə günahgar kimdi, bilmirəm,
Düşmənmi bizləri yendi, bilmirəm,
Ya da üzü dönmüş zəmanə, dağlar.

Gəlsin Cəfəroğlu, icazə verin,
Ölsün Cəfəroğlu icazə verin,
Qalsın Cəfəroğlu , icazə verin,
Qəbri qoynunuzda nişanə, dağlar,

*9 apr 2016*

# Üzündən utan

Üstünə çiçək düz, üstünə gül düz,
Əyil, bu heykəlin önündə əyil.
Mənim şəhidimi ağlamayan göz,
Mənim vətənimin övladı deyil.

Əlinə tüfəng al, əlinə ox al,
Paslı qılıncını qınından çıxart,
Sızqa-sızqa süzül, çay kimi çoxal,
Düşmənin ruhunu canından çıxart.

Doğrunun qolundan tuta bilməsən,
Doğrunu buraxıb yalanı tutma.
Məzlumun dadına çata bilməsən,
Məzlumu zalımın oduna atma.

Kimsəyə lağ edib söymədən əvvəl,
Birinci özün ol, özündən utan.
Yatmış vicdanının otağına gəl,
Güzgüyə baxanda üzündən utan.

Dünyaya gəlmisən adicə gəlmə,
Kükrə tufan kimi, coş tufan kimi,
Ölsən Taleh Cəfər, havayı ölmə,
Şəhid ol, dəfn olun qəhrəman kimi.

*9 apr 2016*

## Dağların

Atıbdı qoynundan qurbətə bizi,
Bağlıdı yolları viran dağların.
Gözləyir Göyçəsiz, Kəlbəcərsizi,
Gözləri yoldadı hər an dağların.

Necədi əhvalı, kim bilir indi…
Qonağı olmağa kim gəlir indi…
Gözünün yaşını kim silir indi…
Başında örpəyi duman dağların.

Çətin ki dərdini danışa dilsiz.
Çətin bu dərdiylə barışa dilsiz.
Çətin ki sağalda, obasız, elsiz,
Dərin yarasını zaman dağların..

Talehəm rəsmini çəkib gəlmişəm,
Könlümün, evinə tikib gəlmişəm.
Adını, qəlbimə əkib gəlmişəm.
Baş-başa söykənib duran dağların.

*22 noy 2015*

## Gedirsən axı

Məni tənha qoyub xəyallarınla,
Bir səbəb demədən çxıb gedirsən.
Dil tapa bilməyib arzularımla,
Yenə gözlərimdən axıb gedirsən.

Nədi, heç insafın yoxdumu sənin?
Niyə sən bu qədər zalımsan axı?
Sənə neyləmişəm, səfimi göstər,
Sən mənim bir dünyam olmusan axı..

Nə günah etdim ki səni sevəndə?
Nəyin cəzasnını çəkirəm indi?
Dünya mənimiydi səni görəndə,
Dünyaya qəm-kədər əkirəm indi.

Göstərə bilmədin sevən qəlbini,
Dünyaya bir həsrət, nişanə qoydun.
Talehə qıymadı taleyin səni,
Talehin qəlbini virana qoydun.

*11 fev 2016*

# Çalışdı sevdi

Ay öz günəşini gəzdi, hey gəzdi,
Gecəsi-gündüzə qarışdı, sevdi.
Dözdü min illərin məhəbbətinə,
Onun həsrətiylə alışdı, sevdi.

Yaxına gedəndə, atəşi yaxdı.
Uzaqda duranda, həsrəti yıxdı.
Hər gün o sevginin yoluna çıxdı,
Küsgün taleyiylə barışdı, sevdi.

Gələni, gedəni yoldan əylədi,
Bu Talehi eşqi dəli eylədi.
Gecələr dərdini göyə söylədi.
Onu mələklərdən soruşdu sevdi.

*17 yanv 2016*

# Dərd

Elə dərd olur ki həyasız olur,
Buraxmır əlini tutduğu yerdən.
Adını silirsən, yuxuna gəlir,
Boylanır dumanlı xatirələrdən.

Dərdin də qəribə təzadları var,
İnsanı ağladıb, güldürə bilir.
Ürəyə dolaşan bir düyün kimi,
İnsanı sakitcə öldürə bilir.

Baxır xatirədən bir inad kimi,
Qalır damaqlarda şirin dad kimi.
Olur doğma kimi, gəlir yad kimi,
Özünü insana sevdirə bilir.

Gəlibsə dost kimi dostlar adından,
Gərək o dərdiylə barışa Taleh.
Qıymaz kimsə yana dərdin odundan,
Döyüşər o dərdlə baş-başa Taleh.

*20 dek 2015*

# Gələr

Yamanlıq eyləmək şeytan işidi,
Yaxşılıq eyləmək imannan gələr.
Paxıl fürsət gəzər tələ qurmağa,
Namərd qulluğuna amannan, gələr.

Hərəsi tanınar öz vüqarından,
Qaya sərtliyindən, zirvə qarından.
Çəmən ilham alar öz baharından,
Bağlara bərəkət dumannan gələr.

Dərində işləməz hər kəsin ağlı.
Hər qoçaq yaşamaz elinə bağlı.
Çox da qəm eyləmə ay Cəfəroğlu,
Haqq Sahibi-İbn- Zamannan, gələr.

*6 dek 2015*

# Çaş gedir…

Dolaşıbdı bu dünyanın kələfi,
İşlərimiz gələcəyə çaş gedir.
Yerdə əlac tapılmayır dərdlərə,
Şikayət də, yuxarıya boş gedir.

Bu dünyanın bir tərəfi talanda,
Zülüm çəkir bu dünyada qalan da...
Bir gözünə azca sevinc dolanda,
Bir gözündən kədər yağır, yaş gedir.

Cəfəroğlu, boşluğunu duymuşuq,
Şirin-şirin yalanlardan doymuşuq.
Arzuları bir kənara qoymuşuq,
Ümidlərin arxasınca daş gedir.

*18 dek 2015*

## A Məmməd bekara zamana gəldi

Hamı düşünsə də tək Allahlığı,
Çoxları yalandan imana gəldi.
Təkcə sevilmədi şeytanın şəri,
Həm də şeytan olan zamana gəldi.

Doğru danışana, dedilər səydi.
Oğruya , quldura, dedilər bəydi.
Yaman nə vardısa, yaxşıya dəydi,
Yaxşı nə vardısa, yamana gəldi.

Yaşamadı bahar, yay Cəfəroğlu.
Almadı sevincdən pay Cəfəroğlu.
Oldu məzluma tay Cəfəroğlu.
Qarışdı çovğuna, dumana gəldi.

*2 dek 2015*

# Allah

Düşübdü başıma qürbətin daşı.
Gör neçə ildi ki , talanam Allah.
Burda yaşamağım yaşamaq deyil,
Burda bir nağılam, yalanam Allah.

Pərən-pərən olub yurdundan elim,
Burda yurd qurmağa gəlməyir əlim.
Evdə balama da zəhərdi dilim,
Vətənsiz bir əfi ilanam Allah.

Talehəm, dərdimə biganə qaldın,
Anam Kəlbəcəri əlimdən aldın.
Nə günah etdim ki qürbətə saldın,
Axı mən də sənin balanam Allah…

*2 dek 2015*

# Sən ol...

Gəl sənə söz versin bu dəli aşiq.
Onun ürəyinin padşahı sən ol!
Yerə də, göyə də, car olsun eşqi.
Onun dünyasının Allahı sən ol!

Bəzə dünyasını xoş arzularla,
Doldur həyatını işıqla, nurla.
Gecə zülmətinə Ay kimi parla,
Açılan günəşli sabahı sən ol!

Talehə sevgi ver, məhəbbət gətir.
Daş olan könlünə mərhəmət gətir.
Solğun həyatına təravət gətir,
Ümid yeri sən ol, pənahı sən ol!

*13 noy 2015*

# Dağlara

Xoş təsadüf oldu, xoş saat oldu,
Düşdü bir sonanın izi dağlara.
Bülbüllər kiridi, güllər utandı,
Düşəndə sədası, sözü dağlara.

Ellər sorağına axışdı gəldi,
Gözəllər hüsnünə baxışdı gəldi.
Əvvəl xəyalları yığışdı gəldi,
Sonra qonaq oldu özü dağlara.

Günəş, heyran oldu günəş camala,
Gözəlliyi döndü Leyli misala.
Yaraşmaz yaşıla, yaraşmaz ala,
Gəlsə bundan belə yüzü dağlara.

Qarışdı ətrinə baharın, yazın,
Qarışdı sehrinə söhbətin, sazın.
Deyirəm kaş ola, birində yazın,
Onun yenə düşə üzü dağlara.

*6 okt 2015*

# Satdı gədələr..

Göyçə Kəlbəcərin baş daşı oldu.
Laçın şəhid dostu, qardaşı oldu.
Şuşa dərdlilərin sirdaşı oldu.
Batdı nahaq qana şərəfsiz əllər.
Satdı bu torpağı, satdı gədələr.

Arazı ağlayan gördü yanında,
Dadına çatmadıq Zəngilanın da...
Boğuldu Xocalım, çimdi qanında,
Ağdamı yıxmazdı zorlar, hədələr.
Satdı, bu torpağı, satdı gədələr.

Mən necə qınayım yaradanımı!...
İnsanım öldürdü öz insanımı.
Yıxdı Qubadlımı, Beyləqanımı,
Yalan uydurmalar, yalan vədlər.
Satdı bu torpağı, satdı gədələr...

Fələk saydığını sənə saymadı.
Satqınlar yurdunda tutar qoymadı.
Taleh İrəvandan gözü doymadı,
İndi Qarabağı uddu mədələr.
Satdı bu torpağı, satdı gədələr.

*20 sen 2015*

# Göyçəsiz

Yada düşdü Ələsgəri, Alısı,
Bəm oldu sazımın zili Göyçəsiz.
Təsəlli axtardı Göyçəgülündə,
Lal oldu bülbülün dili Göyçəsiz.

Dərdi varaqladı, kədəri yazdı.
Qəmi qucaqladı, qəhəri yazdı.
Təsəlli axtardı, hünəri yazdı.
Şairin qələmi-əli Göyçəsiz.

Min arzuda axdı, diləkdə axdı,
Vətənə duyğusu küləkdə axdı.
Ürəkdə ağladı, ürəkdə axdı,
Qərib gözlərinin seli Göyçəsiz.

İlahi arzum var , arzulara qat,
Apar Talehi də Kəlbəcərə at.
Elə bir dərd ver ki əlaçsız yarat,
Kim ki eyləyibdi eli Göyçəsiz..

*20 sen 2015*

# Taladı getdi

Xəbəri oldumu görəsən onun,
Məni eşq oduna qaladı getdi.
Kəməndinə saldı azad könlümü,
Uçurtdu, dağıtdı, taladı getdi.

Bilmədim nəyini sevdim bu qədər,
Oldum sevgisinin qurbanı hədər.
Qəlbimə dərd əkdi, üzümə kədər.
Gözümün yaşıyla suladı getdi.

Talehə qıymadı o gözəl pəri,
Şirin kəlmələri şəkər sözləri.
Süzdürüb qaş altdan qara gözləri,
Asdaca başını buladı getdi.

*16 sen 2015*

# Sən!

Elə insan ol ki, qiymətini ver,
Yaxşının, yamanın öz yerində sən !
Çalış ayrıd eylə haqqla nahaqqı,
Dayan doğru yolun üzərində sən!

Düşüncəli, ləyaqətli ol bir az,
Səxavətli, ədalətli o bir az.
İmkanın var, kəramətli ol bir az.
Unutma, Allahın nəzərindəsən.

Yerini yaxşı bil, çox baş aparma.
Qohum-qardaşından aralı qalma.
Taleh varın olsun, sən varın olma,
Yaşa dostlarının ürəyində sən!

*14 sen 2015*

# Getdin..

Mən səni gec tapdım, tez də itirdim,
Bahar kimi gəldin qış kimi getdin.
Adını həkk edib daş heykəlinə,
Qoydun ürəyimə daş kimi getdin..

Çənnəti andıran bir bahar oldun.
Əlçatmaz, ünyetməz arzular oldun.
Şirin xatirələr, xəyallar oldun,
Uçdun uzaqlaşdın quş kimi getdin..

Qəlbimin sahibi ola bilmədin,
Qəlbimə süzülüb dola bilmədin.
Qəlbimdə məsgəni sala bilmədin,
Axdın gözlərimdən yaş kimi getdin.

Buraxıb gedəndə tutduğu əli,
Tutuldu, lal oldu Talehin dili.
Sənəsə dəymədi həsrətin yeli,
Yığışdın əhvalı xoş kimi getdin..

*3 sen 2015*

# Bilirəm..

Dünya məni aldatmağa çalışma,
Neçə üzlü olduğunu bilirəm.
Yaranandan neçə dəfə boşalıb,
Neçə dəfə dolduğunu bilirəm.

Qatilisən neçə-neçə mələyin,
Qatilisən neçə-neçə ürəyin.
Dörd yanında neçə gülün-çiçəyin.
Açılmamış solduğunu bilirəm.

Qalmamısan Süleymana, Sultana,
Qalmamısan İsgəndərə, Firona.
Səni deyib kim çıxıbsa yoluna,
Çəkib atdan saldığını bilirəm.

Çox tifilin buruq qoyub boynunu,
Oynamısan həmişəki oynunu.
Kim özünə əziz bilib qoynunu,
İlan kimi çaldığını bilirəm..

*25 iyun 2015*

# Əllərin üstə

Dur gəl ürəyimə, yerini doldur,
Gəzdirim əlimi tellərin üstə.
Şirin sözlərinlə məni ovundur,
Baş qoyum uyuyum dizlərin üstə.

Süzgün baxışlarla bax, al canımı,
Səninlə yaşayım axır anımı.
Qoynuna qoy salım son limanımı,
Can verim a zalım əllərin üstə .

Eşqin ilə nəğmə deyən şirin dil,
Bu Talehi gah bəm edir, gah da zil.
Doğan Günəş, dolu bulud, əsən yel,
Yağan yağış olum çöllərin üstə.

*12 apr 2015*

## Səni sevməyimin səbəbi budu:

Baxışın da gözəl, ruhun da gözəl,
Hisslərin də gözəl, duyğun da gözəl,
Sevgin də gözəldi, arzun da gözəl,
Səni sevməyimin səbəbi budu:

Quşlar nəğmə qoşur sən bitən bağa,
Bahar öncə gəlir sən çıxan dağa.
Şeirsən, qəzəlsən başdan ayağa,
Səni sevməyimin səbəbi budu:

Hurisən, pərisən, mələksən gözəl.
Şehlərə bələnən çiçəksən gözəl.
Talehin ömrünə bəzəksən gözəl.
Səni sevməyimin səbəbi budu.

*26 avg 2015*

# Yaralamazdım

Əlimdə olsaydı taleyin hökmü,
Mən insan qəlbini yaralamazdım.
Məhəbbət yoluna ayrılıq salıb,
Sevəni-sevəndən aralamazdım.

Hicranı, həsrəti yox eyləyərdim.
Sevinci, şadlığı çox eyləyərdim.
Sevgi yollarına çiçək səpərdim,
Yazılan yazını qaralamazdım .

Təmiz məhəbbəti qara pul kimi,
Satanı satardım qara qul kimi.
Yaxşılığa öyrədərdim əlimi,
Ürəkləri bölüb paralamazdım.

Talehəm qəmləri qovub təkləyib,
Daşıyardım ürəyimə yükləyib.
Göz yaşını gözlər üçün kökləyib,
Yanaqlar aşağı sıralamazdım .

## Daha nə yazırlar mələklər üçün ?

Göylərin nurusan göydən enmisən,
Arzusan , diləksən ürəklər üçün.
Yersən, asimansan, damlasan, susan,
Günəşsən, baharsan çiçəklər üçün.

Tanrı qələm çəkib xətti xalına,
Yaraşıq veribdi gül camalına.
Xoşbətlik qatıbdı hər bir halına,
Yaradıb arzular-diləklər üçün.

Axan şəlaləsən, coşan dənizsən,
Çeşmələr gözüsən, safsan, təmizsən,
Taleh qəlbində təksən, əzizsən,
Başqa nə yazırlar mələklər üçün?

*31 avg 2015*

# Dəfn olunmuşam

Ona söyləyin ki gəzməsin məni,
Günlərin birində dəfn olunmuşam.
Onun ürəyindən çıxandan sonra,
Onun gözlərində dəfn olunmuşam.

Ona söyləyin ki getmişəm daha,
Yoxluğa qarışıb itmişəm daha.
Bir şiri yuxuydum, bitmişəm daha,
Son görüş yerində dəfn olunmuşam.

Talehəm, qayığam, limandan azıb,
Gedirəm o qızı qəlbimə yazıb.
Mənim məzarımı dərd əli qazıb,
Deyin, çox dərində dəfn olunmuşam…

*9 fev 2015*

# Qoru

Tanrım yaxşıları böhtanın, şərin,
Bədnəzər gözlərin gözündən qoru.
Tapşır dərgahına ocağın, pirin,
Paxılın xəbisin sözündən qoru..

Utanmayıb, qızarmayıb arından,
Vicdanının qulaqları karından,
Qeybət gəzdirəndən, ara vurandan,
Üzü badoşların üzündən qoru.

Yazma ulu tanrım, yanana-yanmaz,
Yazma , qurban olum qanana, qanmaz.
Bir ürək yüz düşmən sözünə sınmaz.
Bir etibarsızın özündən qoru.

Xətər gəlməz, qırağından, yadından.
Uzaq eylə nanəcibin zatından.
Qoruma Talehi düşmən odundan.
Dostunun azacıq közündən qoru.

*21 yanv 2015*

# Söylə

Bağlayıb özünə bu qədər məni,
Getməyin insafdan oldumu, söylə.
Günəş boylananda bir yuxu kimi,
Bitməyin insafdan oldumu, söylə…

Bəs sənin eşqində yoxuydu yalan,
Ay məni unudub, əhdini danan.
Bu könül dünyamı dağıdıb talan,
Etməyin insafdan oldumu, söylə…

Buraxdın Talehi qəmlər içində,
Eşqi oyuncağa döndü əlində.
Şirin xəyal kimi dumanda, çəndə,
İtməyin insafdan oldumu, söylə…

*12 dek 2014*

## Daş qoya-qoya

Bir gün dirilirik, bir gün ölürük,
Dözürük yaş üstə yaş qoya-qoya.
Yuxuya gedirik, vətən görürük ,
Qürbətin dizinə baş qoya-qoya...

Körpə arzularla birgə boy atdıq.
Biz öz ömrümüzü belə qocaltdıq.
Qürbətdə ev tikdik, qala ucaltdıq,
Gündə bircə dənə daş qoya-qoya.

Nə fərqi, pay verdik, ya pula verdik?...
Düşmənə alınmaz bir qala verdik.
Taleh, ay itirdik, il yola verdik,
Təqvimin altına quş qoya-qoya..

## Yaşıyammadı

Alışıb-yananda gizlicə yandım,
Mənim alovuma naşı yanmadı.
Bilmədi qaçqınlıq köçkünlük nədi,
Torpağı yanmadı, daşı yanmadı.

Üzümə açıldı acı sabahlar,
Gecələr qəlbinmi dəldi günahlar,
Göyləri yandırdı çəkdiyim ahlar,
Kiminsə qəlbinin başı yanmadı.

Qürbətə tapşırdıq neçə sağları,
Torpaq qucaqladı neçə ağları.
Talehi köksünə sıxan dağları,
Taleh ürəyində daşıyammadı.

## Şamın ömrünə

Otaqda bir dənə şam yandırmışam,
Tamaşa durmuşam onun ömrünə.
Dolanıb başına duranı yoxdu.
Qapanıb sakitcə öz təkliyinə.

Yanır asta-asta, yanır aramsız,
İşıq verə-verə qaranlığına…
Mən belə yanıram, o elə yanır,
Özümü görürəm bir anlığına.

Gecələr yaşayan insanın ömrü.
Nə qədər oxşayır bir şam ömrünə…
Gecələr yaşayır, yananın ömrü,
Şam canına qıyır, insan ömrünə...

Əlimdən nə gəlir, söndürüb onu,
Bir şamın ömrünü dayandırmmı?...
Elə də, belə də, gələcək sonu,
Mən şamı söndürüm, ya yandırımmı…

Biçarə qalmışam, nə verim ona,
Ömrü bir gecədə bitməsin deyə..
Qovuşa bilmədən pərvanəsinə,
Nakam bu dünyadan getməsin deyə..

Taleyəm dərdlərim od-ocağımdı,
Gecələr yanıram şamla baş-başa.
Mənim də yanmağım yaşamağımdı,
Açıram sabahı şamımla qoşa !

## Görüblər...

Səni kölgə kimi başqa ürəyin,
Qapısı önündə duran görüblər.
Bir qara sevdanın dilənçisi tək,
Yalvarıb boynunu buran görüblər.

Səndə nə sevgi var, nə də məhəbbət,
Səndə nə insaf var, nə də ki mürvət,
Sənən inanmıram ey gözəl afət,
Səni neçə qəlbi qıran görüblər.

Gəl alma qəlbini Cəfəroğlunun,
Girmə günahına Tanrı qulunun.
Sən gözəl dediyin sevda yolunun,
Sonunda fırtına-boran görüblər.

# Əsl insan olaq

Aydın bir səmaya, nurlu günəşə,
Xoşbəxt gələcəyə yolçu olaq biz.
Bütün insanların bərabərliyi,
Birliyi uğrunda vursun qəlbimiz.

Savaşlar dayansın, hamı barışsın,
Xoş arzular bir-birinə qarışsın.
Qoy dünyanı gəzib, dağları aşsın,
Sərhəd tanımasın azad sevgimiz.

Qəddarlıq girməsin qəlbə, ürəyə,
Hörmət olsun halal duza, çörəyə.
Hamı imza atsın bərabərliyə,
Həmişə xoş olsun əməllərimiz.

Analar saçını yolmasın daha.
Kimsə boynu bükük olmasın daha .
Düşmənim də darda qalmasın daha,
Rahat böyüsünlər körpələrimiz.

Ata-anaların bağı bağ olsun,
Baladan yarısın qəlbi dağ olsun.
Sınaq qarşısında üzü ağ olsun,
Dosta inamımız, sədaqətimiz.

Haqqa dayaq olan pəhləvan kimi,
Xalqa lazım olaq qəhrəman kimi.
Taleh, elə sevək bir insan kimi,
Hamıya bəs etsin məhəbbətimiz.

# Utanır

Gülə gül yaraşır, amma mən sənə,
Göndərə bilmirəm, güllər utanır.
Tərif eyləməyə söz çox olsa da,
Danışmır, lal olur, dillər utanır.

Bədnəzər kəslərlə, durma üz-üzə,
Camalını gizlə, gələrsən gözə.
Çıxanda al-yaşıl geyinib düzə,
Görən tək hüsnünü çöllər utanır.

Axmısan Talehin sevən qəlbinə,
Dolmusan Talehin sevən könlünə.
İstəyəndə şeir yaza hüsnünə,
Uçunur, titrəyir, əllər utanır.

# Gərək verə

Hər söz uydurana şair deməzlər,
Şairə qiyməti el gərək verə.
Qələmə ilhamı, yazara təbi,
Çəmən gərək verə, çöl gərək verə

Hər simi olana söyləmə sazdı.
Bir çiçək bitməklə söyləmə yazdı.
Bülbül olmaq üçün gözəlik azdı,
Tanrı ona şirin dil gərək verə.

Söz adamı haqqı deyə, pir ola,
Sözlərində işıq ola, nur ola…
Hər kəlməsi kövhər ola, dür ola,
Xalqa sözlərindən ləl gərək verə.

## Yavaş-yavaş

Görünür alnımda illərin sayı,
Düşür saçlarıma dən yavaş-yavaş.
Sürünür arxamca, qara kölgə tək,
Duman yavaş-yavaş, çən yavaş-yavaş.

Mənizlə çatdıqca gedən qatarım,
Çoxalır dərdlərim, artır azarım.
Dağılır başımdan köhnə dostlarım,
Gəzib-dolanırlar gen yavaş-yavaş.

Keçib ömür adlı yaşı zirvəmin.
Düzünə çatmışam naşı zirvəmin.
Qışa hazırlaşır başı zirvəmin.
Budur, enməliyəm mən yavaş-yavaş.

İndi başa gəlir xəyala gələn.
Dərdimi dinləmir dərdimdən ölən.
Gəncliyə qıcanır qocalıq gennən,
Deyir yığ köçünü sən yavaş-yavaş.

# Mələyin

Qoy durum yüz dəfə  dönüm başına,
Dərdimi anlayıb qanan mələyin.
Nə qədər istəsə qadasın alım,
Halıma acıyıb yanan mələyin.

Salsın ürəyimə xal, ona qurban.
Dövlət ona qurban, mal ona qurban.
Yüz canım olsa da yoluna qurban.
Canıma can qatan canan mələyin.

Qoymaram incidə güllər əlini,
Qıymaram qar ala qara telini..
Mənim ürəyimdə öz heykəlini
Əbədi olaraq yonan mələyin.

Ürək naşıdımı sevgidən bezə?..
Taleh uşaqdımı bir gülü əzə?..
Tanrı cəzasını kaş özü kəsə,
Əhdini eşqini danan mələyin.


GƏRAYLILAR

# Gözəl Bakım

Nə yaxşı görüşdük yenə,
Gözəl, göyçək olan Bakım.
Tarixin min illiyindən,
Bizə miras qalan Bakım.

Eşidənlər şöhrətini,
Gəlir görür qüdrətini.
Təmənnasız sevir səni,
Hər övladın, balan Bakım.

Kim sevmir ki torpağını,
Murovunu, Şahdağını.
Xəzər yuyur ayağını,
Buruqlardı balan Bakım.

Qollarındı Kür, Arazın,
Günəşlidi qışın-yazın.
Kəsilməzdi sözün-sazın,
Ay boşalıb, dolan Bakım.

Səndə Kəlbəcər balası,
Gəlibdi qonaq olası.
Keşikçindi Qız qalası,
Alınmazdı qalan Bakım..

# Gəl beləcə nağıllaşaq

Mən isığam sənsə zülmət,
Gəl qovuşaq bir səhərdə.
Mən də xəlvət, sən də xəlvət,
Gəl görüşək bir şəhərdə.

Sən zülmətdən, mən işıqdan,
Az da olsa azad olaq.
Gəzək dünyanı qol-boyun,
Asta-asta yaşa dolaq.

Göy üzündə lövbər atib,
Balca bir sevgi quraq.
Sənin zulmətində yatıb,
Mənim işığında duraq.

Gəl qoruyaq sevgimizi,
Əl-ayaqdan bir kənarda.
Gəl yaşadaq eşqimizi,
Qurduğumuz nağıllarda.

Uzaqlaşaq nağıl kimi,
Bu işıqdan, qaranlıqdan.
Bəlkə onda xilas olduq,
Mən yanmaqdan, sən donmaqdan.

*30 avg 2019*

# Qayıtmayıb

O gedəndi, çıxıb gedib,
Boşdu yeri, qayıtmayıb.
Ürəyimi talan edib,
Bir də geri qayıtmayıb.

Ayrılsaq da o gecə biz,
Silinməyib qoyduğu iz.
Unudarmı beləcə tez,
O günləri, qayıtmayıb.

Pünhanıydı bu könülün,
Sonasıydı bizim gölün.
Yetim qalıbdı bülbülün,
Nəğmələri, qayıtmayıb.

Bir zamanlar haray saldı,
Könül verdi, könül aldı.
Görən harda sındı qaldı,
Qədəmləri, qayıtmayıb...

Taleh, niyə gözü dönmüş,
O vədəsi, sözü dönmüş.
Üz döndərib üzü dönmüş,
Yönü bəri qayıtmayıb.

*14 avg 2019*

# Şəhidim

Düşmənimə əyilməyən,
Başına qurban şəhidim,
Yatdığın o torpağına,
Daşına qurban, şəhidim.

Vətən üçün bir and içdin,
Vətən üçün candan keçdin,
O yaşında ölüm seçdin,
Yaşına qurban şəhidim.

Düz əhdinə, ilqarına,
Qartal kimi vüqarına,
Nakam keçən baharına,
Qışına qurban şəhidim.

Bu Talehəm, dərdim dərin,
Qəlbimdədi sənin yerin.
Səni ağlayan gözlərin,
Yaşına qurban şəhidim.

*30 iyun 2019*

## Nə burdayam, nə ordayam

Fərli həyat yaşamıram,
Nə dünyada, nə gordayam.
İtirmişəm Kəlbəcəri,
Nə burdayam, nə ordayam.

Girov qalıbdı dağlarım,
Qürbətdədi çox ağlarım.
Qəm gətirib budaqlarım,
Nə baharda, nə yaydayam.

Kəlbəcərdən gətirmişəm,
Bir yarpağam, qoyma düşəm.
Aylar, illər itirmişəm,
Gün deyil ki günü sayam!....

Anam qurban deyib ona,
Qurban olum yollarına.
Torpağımın qollarına,
Görən haçan əziz payam...

Qeyrət varmı Taleh səndə?
Qayıdasan doğma kəndə…
Bir də görəm Cəmillimdə,
Bir quruca daşa tayam.

*30 iyun 2019*

## Gözəl

Süzgün baxıb qan eyləyir,
Baxışların yenə gözəl.
Gözlərində min məna var,
Vurulmuşam sənə gözəl..

Sevmək könül yarasıdı,
Sevgi ciyar parasıdı.
Vüsal dərdin carasıdi,
Qoyma yandı sinə gözəl.

Ay yaxası quzey qarı,
Sənə qurban dünya varı.
Sən də insafa gəl barı,
Dönmə aya günə gözəl.

Qurban dedin bu da qurban,
Bu pərvanən oda qurban.
Canım sən tək yada qurban,
Candan özgə bənə, gözəl?...

Qaşın cəllad, gözün almaz,
Sevən aşiq belə olmaz.
Çox eyləmə Talehə naz,
Rəhmin gəlsin mənə gözəl.

*12 fev. 2019*

## Sən qəlbimdən çıxan günü

Heç vaxt unuda bilmirəm,
O evimi yıxan günü.
Tutulaydı qədəmlərim,
Sən yoluma çıxan günü.

Hisslərimə kök atıbdı,
Yuxuma haram qatıbdı,
Ürəyimə ox batıbdı,
Sən üzümə baxan günü.

Kimsə könlümü almadı,
Məni kəməndə salmadı.
Yandırıb-yaxan olmadı,
Sən yandırıb-yaxan günü.

Bu Talehəm, eşqə acam,
Gözəl, mən sənə möhdacam.
Qurban kəsib paylayacam,
Sən qəlbimdən çıxan günü.

*18 okt 2018*

## Havam ol

Bircə udum sərin su,
Bir nəfəslik havam ol.
Dərdlərimə əlac tap,
Dərmanim ol, davam ol.

Demirəm ki yaxınlaş,
Ürəyinə sıx məni,
Bircə dəli şimşək ol,
Yandır məni, yax məni.

*3 Noyabr 2018* ·

## Yaradana yar demişəm

Yalnız haqqa vurulmuşam,
Yaradana yar demişəm.
Öz bağımda düz ilqara,
Etibara bar demişəm.

Görməmişəm ağı qara,
Çəksələr də məni dara.
Şahin süzən səmalara,
"Yaxın düşməz sar", demişəm.

Batırsa da məni yasa,
Qıymamışam kaman susa,
Nalə çəkib sızlamasa,
Tək oxumaz tar demişəm.

Zirvənizin başından qar,
Heç əskik olmasın dostlar.
Harda ki haqq-ədalət var,
Taleh orda var demişəm.

*29 avg 2017*

## Qurban olum

Gözlər qəlbin aynasıdır,
Gözümə bax qurban olum.
Üz ürəyin simasıdır,
Üzümə bax qurban olum.

Eşqin məni məndən alıb,
Nəyim varsa səndə qalıb.
Yollarına cığır salıb,
İzimə bax, qurban olum.

Nə sirrdi, bilə bilmirəm,
Ürəkdən gülə bilmirəm,
Sənsiz mən gələ bilmirəm,
Özümə, bax, qurban olum.

Oxşarın var ayla-günlə,
Nəfəs alır Taleh sənlə.
Arada-bir məni dinlə,
Sözümə bax qurban olum.

*13 iyun 2017*

## Dövranıdı

Dövran yaltaq libaslara,
Girənlərin dövranıdı.
Haqqı nahaqq ayağına,
Verənlərin dövranıdı.

Tərsinədi onun işi,
Dolaşıqdı yeki, şeşi.
Bəd əməli, çirkin işi,
Görənlərin dövranıdı.

Üzü yola çiçək kimi,
Gözəl kimi, göyçək kimi,
Papağını ləçək kimi,
Sərənlərin dövranıdı.

Hazır rahat quyruq yeyib,
Qoç görəndə qurdu deyib,
Köləliyə boyun əyib,
Hürənlərin dövranıdı.

*7 apr 2017*

# Bir gözələ

Sən arzulardan doğan,
Dəyərli bir incisən.
Nurlusan Günəş kimi,
Baharın sevincisən.

Çiçək qədər ətirli,
Bahar kimi əzizsən.
Bulaq suyu kimi saf,
Göz yaşı tək təmizsən.

Səni təqdim etməyə,
Sözün qüdrəti çatmaz.
Tərifin bu dünyanı,
Tək bu aləmi tutmaz.

Mən səni həqiqətin,
Öz səsində görürəm.
Adını ınsanlığın,
Zirvəsində görürəm.

Azərbaycan qızının,
İsməti var canında,
Həcərimin namusu,
Qeyrəti var qanında.

Yaşa səni hər zaman,
Saflığınla qoşa, yan.
Xoşbəxtliklə oyan dur,
Sevincinlə yaşa, yan.

Qal yadında Talehin,
Qürurunla, adınla.
Zülmətlərə nur çilə,
Alovunla, odunla.

Yaşa səni hər zaman,
Günəş kimi, ay kimi,
Çağla səni hər zaman,
Dəniz kimi, çay kimi.

Çıraqban ol bir ömrə,
Bir ilahi pay kimi.
Çıraqban ol bir ömrə,
Günəş kimi, ay kimi.

*6 apr 2017*

# Dağlar

Hərdən yada salın məni,
Axı mən də varam dağlar.
Sizdən ayrı göz-göz olub,
Sızıldayır yaram dağlar.

El-obamdan aralıyam.
Bir taleyi qaralıyam.
Ürəyimdən paralıyam.
Sizdə qalıb param dağlar.

Dərdin-qəmin dəstəsiyəm.
Bir kamanın bəstəsiyəm.
Qərib könül xəstəsiyəm,
Təkcə sənə yaram dağlar..

Sellərinə qarışanda,
Dumanınla yarışanda,
Vüsalınla barışanda,
Tapılacaq çaram dağlar.

Dözəmmirəm qürbətinə,
Dözəmmirəm həsrətinə,
Bu gen dünya Talehinə,
Olub haram, haram dağlar.

*30 mart 2017*

# İncimәz…

Gəl barışaq nazlı ceyran,
Sevən sevəndən inciməz.
Bülbül güldən ilham alar,
Arı çəmənnən inciməz.

Olar boran-qar yolunda,
Dura bilməz var yolunda.
Cəfa çəkər yar yolunda,
Ürək bədənnən inciməz.

Tez-tez küsüb gedən gözəl,
İncimisən nədən, gözəl?
Talehi ram edən gözəl,
Öz dəlisindən inciməz.

*14 fev 2017*

## Aman sənnən

Hara getsəm qəlbimdəsən.
Ayrılmıram bir an səndən.
Karvanımda, köçümdəsən.
Ötür keçir zaman sənnən..

Bir Günəşsən yazın ayrı.
Bir sonasan nazın ayrı.
Qışın ayrı, buzun ayrı,
Ərşə çıxır duman sənnən.

Hər baxışın bir talandı.
Ürəyimə od salandı.
Gözəlliyin can alandı,
Çəkinirəm yaman sənnən.

Taleh sevir səni yalnız,
Buraxmırsan məni yalnız.
Qısqananda ay dəli qız,
Aman sənnən, aman sənnən.

*5 fev 2017*

# Gözdən salıb

Doğru-düzgün yazmamışam,
Sözlər məni gözdən salıb.
Qadasını almamışam,
Gözlər məni gözdən salıb.

İllər alıb, illər söküb,
Yağış vurub, dolu töküb,
Ömrümə qocalıq çöküb,
Üzlər məni gözdən salıb.

Yorğun olub, yeritmişəm,
Səsi çıxıb, kiritmişəm,
Yükünü ağır etmişəm,
Dizlər məni gözdən salıb.

Taleh ilə çox güləşib.
Dərd də, qəm də adiləşib.
Dağlar ilə vədələşib,
Düzlər məni gözdən salıb..

*5 fev 2017*

# Məhv elədin sən!

İçimdəki hər şeyi,
Qırdın məhv elədin sən.
Mənə yalan danışdın,
Böyük səhv elədin sən.

Daha məndən gözləmə,
İsti nəfəs, ılıq söz.
İndi kədər yağdırır,
Bu şən baxış, gülər üz.

Elə sən də qış kimi,
İliyə işləyənsən.
Gözdən axan yaş kimi,
Kədəri gözləyənsən.

Verə bilmərəm sənə,
Gözlədiyin heç nəyi..
Soyudu daşa döndü,
Bu Talehin ürəyi..

*1 noy 2016*

# İnciməzsən?

Bir meh olub tellərinə,
Tumar çəksəm inciməzsən?
Ürəyimi ürəyinə,
Qurban etsəm inciməzsən?

Gülüsən çəmənin-çölün,
Ətrisən çiçəyin-gülün,
Yollarının üstə hər gün,
Gəlib bitsəm inciməzsən?

Külək kimi qabağına,
Əsib dolsam qucağına.
Bülbül kimi budağına,
Qonub ötsəm inciməzsən.?

Talehi çəkib hüsnünə,
Gözəl qamət, gözəl sinə.
Qurban olub beləsinə,
Ölsəm, itsəm inciməzsən?

*4 okt 2016*

## Onsuz hələ yaşayıram..

Baxışından düşən xalı,
Ürəyimdə daşıyıram.
Heç bilmirəm necə olub,
Onsuz hələ yaşıyıram.

Sağaldıqca aram-aram,
Sinəmdəki ağır yaram.
Qaysağını qopardıram,
Yarasını qaşıyıram,
Onsuz hələ yaşıyıram.

Qonaq gəlir qış qəlbimə,
Axır dolur yaş qəlbimə.
Bağlamışam daş qəlbimə,
Öz halıma açıyıram,
Onsuz hələ yaşıyıram.

Bu Talehə dərd olub o,
Saçlarına dən salıb o,
Xəyalımda tək qalıb o,
Təkcə onu daşıyıram,
Onsuz hələ yaşıyıram.

*24 iyul 2016*

## Könül

Bəsdi qəmə yoldaş olub,
Yol yeridin qoşa könül.
Gəl indi də sevinci tap,
Bir az da gül, yaşa könül..

Kədər olur canı üzən,
Sevinci tap, geyin, bəzən.
Çox yalvarma göydə gəzən,
Ağır qara daşa könül.

Sənə dəysə eşqin əli,
Səy olarsan ya da dəli.
Meyl eləmə hər sürməli,
Gözə könül, qaşa könül..

Gül ətrini güldən alar.
Dil ətrini dildən alar.
Şair təbi eldən alar,
Onda gələr cuşa könül.

Bu Talehi qurtar dərddən,
Uzaq et qəmdən-həsrətdən.
Bivəfadan bimürvətdən,
Haşa könül, haşa könül.

*21 iyul 2016*

## Gələn də, gəlməyən də var

Bu dərdimi mənim ilə,
Bölən də, bölməyən də var..
Bəxtimin gözü yaşlıdı,
Silən də, silməyən də var

Ürəyim qubara düşüb,
Boran görüb, qara düşüb,
Arzum ay qız tora düşüb,
Ölən də, ölməyən də var ..

Səhra qumu, od külüyəm,
Dağ küləyi, dağ seliyəm,
Mən də belə cür dəliyəm.
Gülən də, gülməyən də var...

Taleh haqqa nökər gəlib,
Haqq önünə çökər gəlib,
Qəm şələsin çəkər gəlib,
Bilən də, bilməyən də var.

*18 may 2016*

# Yandım Allah

Bu nə qaşdı, bu nə gözdü,
Bir baxışla canım üzdü..
Söz atdım dodağın büzdü,
Yandım Allah, yandım Allah.

Nə acı paymış məhəbbət,
Zindana taymış məhəbbət,
Başa bəlaymış məhəbbət,
Qandım Allah, qandım Allah …

Canım alır durub gendə,
Zəhər varmış yar dilində..
O daş qəlblinin əlində,
Dondum Allah, dondum Allah.

Sevgi dedim gətirmədi,
Arzu tutdum yetirmədi..
Salam verdim götürmədi,
Sındım Allah, sındım Allah..

Qaşı-gözü qanlar etdi.
Süzgün baxdı, çıxdı getdi.
Talehəm, məni incitdi,
Əhdim Allah, andım Allah.

*19 may 2016*

## Şəklini çək

Ləblərində bal dadı var,
Ləblərinin şəklini çək..
Gözlərində eşq odu var,
Gözlərinin şəklini çək..

Qoyma yanım sənsiz hədər.
Sözlərin var çiçək qədər.
Mənə elə şəkil göndər,
Sözlərinin şəklini çək.

Gəl ot olum, orman olum,
Yollarına qurban olum.
Dərdlərinə dərman olum,
Dərdlərinin şəklini çək..

Taleh ovçu, sən bir maral,
Taleh aşiq, sən bir xəyal.
Ürəyimi nəzərə al,
Ürəyinin şəklini çək..

*15 apr 2016*

# Mən kimin dəlisiyəm…

Soruşma ki gözəl qız,
Mən kimin dəlisiyəm.
Mən sazın aşiqiyəm,
Mən simin dəlisiyəm.

Arzularda yaşayan,
Ədalətlə qoşa-yan,
Mənə deyən yaşa,yan,
Eşqimin dəlisiyəm.

Həsrətinə bürünən,
Bir duman tək sürünən,
Q gözlərdə görünən,
Tilsimin dəlisiyəm.

Torpağına ləl deyən,
Şəhidinə dil deyən,
Vətən deyən, el deyən,
Qəlbimin dəlisiyəm.

Tənhalığı qıymayan,
Vüsalından doymayan,
Talehi tək qoymayan..
Dərdimin dəlisiyəm...

*13 apr 2016*

# Bu gecə…

Bu gecə xəyalınla,
Qoşalaşdı xəyalım,
Bu gecə həsrətinlə,
Vidalaşdı xəyalım.

Bu gecə arzularım,
Qanadlandı göylərə,
Uçdu səyahət etdi,
Sən olduğun yerlərə.

Bu gecə əllərimlə,
Əllərindən yapışdım,
Bu gecə xoşbəxt olub.
Sevincimlə tapışdım.

Sevdiridi baxışların,
mənə qaranlıqları.
Sildi atdı yuxumdan,
Qatı dumanlıqları.

Səni görməyə Taleh.
Can atıb, candan keçər.
Məhəbbətin tufanlı,
Qarlı dağından keçər,

Çünki səni qəlbimə,
Həkk edib ötən illər.
Çünki səni qəlbimdən,
Yuya bilmədi sellər.

*26 yanv 2016*

## Bu dağları

Şair dostum gəl mənimlə,
Yayda gəzək bu dağları.
Təbiətə naxış vuran,
Ayda gəzək bu dağları.

Dolu vursun alaçığı,
Duman alsın solu, sağı.
Nəğmə desin el aşığı,
Toyda gəzək bu dağları.

Bənövşəni görmək üçün,
Təzəsini dərmək üçün,
Ona könül vemək üçün,
Mayda gəzək bu dağları.

Taleh doymaz səfasından,
İlqarından, vəfasından,
Görək təmiz havasından,
Fayda, gəzək bu dağları.

*19 yanv 2016*

# Yadımdadı
***(Cavab)***

Yadındamı gətirmişdin,
Yanında bir saz aşiqi.
Qulaq asdım sözlərinə,
Oldum mən də söz aşiqi.

Yadındamı, qara tellər,
Tökülmüşdü bel aşağı.
Yadımdamı, oldun bizim,
Çəmənlərin yaraşığı.

Yadındamı, dodaqların,
Dodağıma yapışmışdı.
Yadındamı, iki sevgi,
Bir gecədə tapışmışdı..

Yadındamı, ləblərinin,
Şirəsinə qondu arı.
Yadındamı tumarladım,
Bağındakı qoşa narı.

Yadındamı utancından,
Od almışdı yanaqların.
Yadındamı həyəcandan,
Titrəyirdi dodaqların…

*17 yanv 2016*

# Yeni il

Xoş gəlmisən yeni il,
Qədəmlərin mübarək.
Dünyamızı bəzəyən,
Fəsillərin mübarək.

Körpələrin ömrünə,
Bahar gətir, qış gətir.
Yaşımızın üstünə,
Yeni-yeni yaş gətir.

Könüllərə nur çilə,
Evlərə varınla gəl.
Təbiətə bəzək vur,
Bağlara barınla gəl.

Xoş gəlmisən yeni il,
Sevindir uşaqları.
Küsənləri barışdır,
Alışdır ocaqları.

*20.12.2015*

# Güllər açıb gəlişinə

Xoş gəlmisən bu diyara,
Güllər açıb gəlişinə.
Gündüz günəş, gecələr ay .
İşıq saçıb gəlişinə.

Hər tərəfi maraq tutub,
Ellər əldə çıraq tutub.
Dost-tanışlar soraq tutub,
Qucaq açıb gəlişinə.

Sevincəkdi bizim dağlar,
Sənin kimi qonağı var.
Dəstələnib şən uşaqlar,
Yola qaçıb gəlişinə.

Yolçu sazla çoşub-daşıb,
Taleh sözlə aşıb-daşıb.
İlhamımız qanad açıb,
Göyə uçub gəlişinə.

*13 noy 2015*

# Deyiləm

Sən bir gülsən, mənsə bülbül,
Yanından ötən deyiləm..
Hara getsən səninləyəm,
Gözündən itən deyiləm.

Səpilərəm gilə-gilə,
Qədəmlərin dəyən çölə.
Özgə bağda özgə gülə,
Mən qonub ötən deyiləm.

Canı veməz hədər Taleh,
Vüsalna yetər Taleh.
Bir ürəkdə bitər Taleh,
Hər yerdə bitən deyiləm.

*22 okt 2015*

## Darıxmışam

Gülüm sənin şəkər dadan,
Sözün üçün darıxmışam.
Qulağıma pıçıldayan,
Səsin üçün darıxmışam.

Ürəyimdə edib pünhan,
Həsrətinlə verirəm can.
Başım altda yastıq olan,
Dizin üçün darıxmışam.

Talehi odlara atan,
Ürəyində ocaq çatan,
O yuxuma haram qatan.
Üzün üçün darıxmışam

## Naz eyləyir

Kəklik yenə düzə enib,
Nəğmə deyir səkə-səkə..
Tumarlayır çiçəklərin,
Tər şehini tökə-tökə.

Gündə yüz yol azı məni,
Dara çəkir nazı məni.
Qoyub zalım qızı məni,
Həsrətini çəkə-çəkə…

Bu Talehi yaxıb gedir,
Süzgün-süzgün baxıb gedir.
Daş ürəkli çıxıb gedir,
Dərdi yola əkə-əkə.

# Divana bax

Ey göydəki haqqı-sübhan,
Bu insafsız zamana bax..
Nə yatmısan, dur bir oyan,
Dünyaya bax, cahana bax.

Min can alır hər atdığı,
İnsanının yaratdığı..
Yoxdu yerin rahatdığı,
Qurğuya bax, mizana bax.

Əyri düzə qara çəkir,
Nahaq haqqı dara çəkir.
Pis yaxşını tora çəkir,
Məhkəməyə, divana bax.

Yeri tutub zülüm, zillət,
Bir-birini yeyir millət.
Olacağı özün düzəlt,
Bu vaxtacan olana bax...

Sən yaratdın, ey yaradan.
Aqil, ailm, cahil, nadan.
Üz çevirib haqq yolundan,
İndi səni danana bax..

Qalıb yana-yana Taleh,
Necə dözsün buna Taleh?...
Az qalıb ki sına Taleh..
Ürəklərdə talana bax...

*10 okt 2015*

## A telli saz..

Dərdin alım a telli saz,
Çağla görək həzin, həzin.
Ötənləri yadıma sal,
Ağla görək həzin-həzin..

Bağ əkmişəm, bar dərdi var.
Ürəyimdə yar dərdi var.
Könlümdə dağlar dərdi var,
Yoxla görək həzin-həzin..

Zilə, bəmlə, qarış inlə,
Yerlə, göylə, danış, inlə.
Talehi öz tilsiminlə,
Bağla görək həzin-həzin.

*31 avg 2015*

## Sən bir incisən

Sən bir mələk kimisən,
Göylərin alovundan,
Odundan yaranmısan.
Sən bir mələk kimisən.
Günəşin işığından,
Nurundan yaranmısan.

Sən bir çiçək kimisən.
Baharın gəlişindən,
Ruhundan yaranmısan.
Sən bir ürək kimisən.
İnsana həyat verən,
Arzudan yaranmısan.

Sən doya bilmədiyim,
Əzizlənən yuxusan,
Son qoya bilmədiyim,
Tükənməyən arzusan.

Sən həyata bəxş olan,
Dəyərli bir incisən.
Sən Talehin dünyası,
Talehin sevincisən.

*3 sen 2015*

## Azərbaycan!

Başın uca şöhrətin çox,
Zirvədəsən Azərbaycan...
Günəş kimi nur saçırsan,
Bir dənəsən Azərbaycan

Adını tarixə salan,
Olub neçə-neçə balan.
Ədalətin carçısısan,
Haqq səsisən Azərbaycan.

Görənlər hüsnünə vurğun,
Qızıldır hər daşın, kolun.
Cavanşirin, köroğlunun,
Ölkəsisən Azərbaycan..

Çox qədimsən, çox ulusan,
Şah dağı tək qürurlusan.
Sevənlərin arzususan,
Niyyətisən Azərbaycan..

Nələr çıxmır torpağından,
Qızıl, gümüş, civə, uran.
Babaların bizə qalan,
Sərvətisən Azərbaycan.

Tərəqqinə baxıb gendən,
İlham alır Taleh səndən.
Sən baharın çiçəklənən,
Müjdəsisən Azərbaycan.

# Bayrağım

Dalğalan ulu bayrağım,
Kölgəni sal kölgələrə.
Qanadlandır şöhrətini,
Zirvələrdən-zirvələrə..

Yaşa səni Azərbaycan.
Canım olsun sənə qurban.
Dillərə düş, süzül dolan,
Nəğmələrdən-nəğmələrə.

Araz günahını atsın,
O tayı bu taya qatsın.
Qanadını gen aç, çatsın,
O elllərdən, bu ellərə.

Yaşa səni ulu diyar.
Hər tərəfin olsun bahar.
Taleh də qoy olsun axar,
Könüllərdən-könüllərə.

*15 apr 2015*

## Sənin həsrətinlə

Dəftərə qəm sıralayır,
Qələm sənin həsrətinlə.
Ötənləri arzulayır,
Sinəm sənin həsrətinlə .

Xəyallarla qucaqlaşan,
Məhəbbətəm aşıb-daşan.
Sevənlərə nəğmə qoşan,
Diləm səni həsrətinlə.

Sınıq könüllərə həyan,
Yorğun yollara yolçuyam.
Bənd-bərəni söküb yuyan,
Seləm sənin həsrətinlə.

Talehin ilk sevgisi sən,
Həm əzəli, həm ilki sən!
Tellərinə tumar çəkən,
Yeləm sənin həsrətinlə.

*16 fev 2015*

# Adısan hər arzunun

Baxışınla torpağın,
Daşı da çiçəy açır.
Gəlişinlə ömrümün,
Qışı da çiçəy açır.

Təbəssümün günəşin,
Nurundan axıb gəlir.
Baxşıların şimşəyin,
Odundan çıxıb gəlir.

Yerişində məhəbət,
Duruşunda həyat var.
Xəyalında səadət,
Arzunda qol-qanad var.

Qanadısan Talehin,
Xəyalının, ruhunun.
Həyatısan Talehin,
Adısan hər arzunun..

*6 yanv 2015*

## Necə unudum səni?

Ürəyimin içində,
Ağır daş kimisən sən!
Gözlərimin içində,
Acı yaş kimisən sən!
Necə unudum səni?

Gecələr qonaq gələn,
Gün çıxanda əriyən,
İliyimə işləyən,
Soyuq qış kimisən sən!
Necə unudum səni?

Hara gedirəmsə sən,
Hardan gəlirəmsə sən!
Qəlbimi sərinlədən,
Bir yağış kimisən sən!
Necə unudum səni..?

Sənsiz ömrü qarlı-qış,
Talehin nəyi varmış..
Taleyimə yazılmış,
Bir qarğış kimisən sən!
Necə unudum səni?

*18 dek 2014*

## Ürəyimdə

Üşüyürəm, isit məni,
Bir ocaq çat ürəyimdə.
Nəfəsinlə oyat məni,
Arzu yarat ürəyimdə.

Bahar olsun hər fəsilim,
Bilinməsin ayım, ilim,
Kədəri qov ay sevgilim,
Gülsün həyat ürəyimdə.

Sevgisi ol bu Talehin,
Nəğməsi ol bu Talehin,
Söz verirəm sənə, yerin,
Olar rahat ürəyimdə.

*16 dek 2014*

## Ürəyimdə

Elə bilmə unutmuşam,
Yad olmusan ürəyimdə.
Elə bilmə quruca bir,
Ad olmusan ürəyimdə.

Yadımdasan mənim hər an!
Unutmuram səni bir an !
Daim yanan alovlanan,
Od olmusan ürəyimdə.

Səndə olan bu gözəllik,
Talehə verib dəlilik.
Şəkil olub bir dəfəlik,
Asılmısan ürəyimdə.

*7 noy 2014*

## Yerdə qalmaz şəhid qanı

Qəm yemə şəhid anası,
Qana-qandı amalımız.
Unudulmaz şəhidimiz,
Yerdə qalmaz al qanımız.

Elin gücü sel kimidi,
Bir olarsa yıxar bəndi.
Bir Həcərdi, bir Nəbidi,
Hər qızımız, oğlanımız.

Hamı bilir biz nəçiyik,
Haq tərəfi, haqq səsiyik.
Qəhrəmanlar ölkəsiyik,
Çox böyükdü ad-sanımız.

Susmağımız rəvadırmı..
Düşmən alıb torpağımı..
Taleh rahat dayanarmı,
Kiriyərmi, vicdanımız?

*2 avg 2014*

## Qurban mən olum

Vətən sənin bulağına,
Çayına qurban mən olum.
Səmandakı günəşinə,
Ayına qurban mən olum.

Bərəkətli çöllərinə,
Allı-güllü ellərinə,
Gözəl keçən günlərinə,
Toyuna qurban mən olum.

Qoy sığınım bir daşına,
Gəlim girim ağuşuna.
Sənin gələn hər qışına,
Yayına qurban mən olum.

Taleh üçün bu verdiyin,
Qismətinə gətirdiyin,
Bağçasında bitirdiyin,
Payına qurban mən olum.

# Getmə

Ay könlümü alan gözəl,
Gəl qadanı alım getmə.
Ay könlümə dolan gözəl,
Gəl yanında qalım, getmə.

Ay çəmənim, çölüm mənim,
Ay çiçəyim, gülüm mənim,
Ay bircə gözəlim mənim,
Ay şəkərim, balım, getmə.

Ay canıma düşən tilsim,
Ay müqəddəs duyğum, hissim,
Ay mənim dərdimə həkim,
Ay şirin xəyalım, getmə.

Gəl, ay mənim gülər üzlüm,
Şirin dillim, şirin sözlüm,
Qara qaşlım, qara gözlüm,
Bir Leyli misalım, getmə.

Gəl, sinəmdən qopar səni,
Gəl ruhumdan apar səni,
Taleh hardan tapar səni?,
Nə olar ki zalım, getmə..

# Sellər olmaq istəyirəm

Saçlarını açıb tökən,
Əllər olmaq istəyirəm.
Yollarına naxış vuran,
Güllər olmaq istəyirəm.

Can gərəkdi baxa, dözə,
Qara qaşa, qara gözə.
Sən çıxanda çölə, düzə,
Çöllər olmaq istəyirəm.

Ay Talehi dərdə salan,
Ay ruhunu candan alan,
Nəfəsinə axıb dolan,
Yellər olmaq istəyirəm.

# Yatma daha

Yatma daha Türkün oğlu,
Oyan, axan al qanı gör.
Öz içində yuva salan,
Dostu tanı, düşməni gör.

Ayağa dur, gəlib zaman,
Kürəyindən vuranı gör..
Xocalıda qoca, cavan,
Uşaqları qıranı gör.

Yatma daha Türkün oğlu,
Tarixini yadına sal..
Soyun ulu, kökün ulu,
Şəhidlərin qanını al,..

Oyan daha Azərbaycan,
Qanına-qan vaxtı gəlib.
Düşməni qov torpağından.
Haqqa divan vaxtı gəlib.

Oyan daha, odlar yurdu,
Nəbi, Həcər ölkəsisən.
Hər əsgərin bir ordudu,
"Mübariz" lər ölkəsisən.

Gəlin burdan aşaq dağı,
Qiblə yolu Qarabağdı,
Körpələrin, qocaların,
Qanı axan o, torpaqdı.

## Məndən döndərmə üzünü

Mən təsəlli qapısıyam,
Məndən gizlətmə düzünü.
Mən məhəbbət dünyasınam.
Məndən qoruma özünü.

Mən səni sevən insanam,
Mən o dediyin oğlanam.
Mən yolunda yanan şamam..
Məndən döndərmə üzünü.

Gəl Talehi dərin axtar,
Hər sözündə məhəbbət var.
Məndən etmə qeybət ey yar,
Gəl üzümə de sözünü.


DİVANİLƏR

# Yazmıram
### *(Divani)*

Bir dəli dağ çayıyam, bulanmasam yazmıram.
Dəryaların qoynuna, calanmasam yazmıram.
Mən ürəkdən yazıram, sevgini də, qəmi də...
Ürəyimə od düşüb, talanmasam yazmıram.

Dərdimin nökəriyəm, şələmdə daşıyıram.
Yaram qaysaq tutanda, qopardıb qaşıyıram.
Bu vəfasız ömrümü, yanaraq yaşayıram,
Pərvanəyəm şamlara, qalanmasam yazmıram.

Yalandan vurulmuram, yaraşıqlı üzlərə,
Yalandan vurulmuram, bər-bəzəkli gözlərə,
Mən onu sevə-sevə, əzizləyib yüz kərə,
O sevginin başına, dolanmasam yazmıram.

Taleh Cəfəroğluyam, hakimimdi vicdanım.
Yalanların dərdinə, həqiqətdi dərmanım.
Çeşmələrin suyundan, su içməsə ilhamım,
Bulaqların gözündən, sulanmasam yazmıram.

*18 avg 2019*

# Yaranmaz

*(Divani)*

Ölümü dərk etməyənin, üzündə nur yaranmaz.
Sızqalara qarışmasa, daşqınlar gur yaranmaz.
Yeri, göyü, tərpətməsə ildırımın zərbəsi,
Çaxmaq daşı çaxmaq ilə, yerdə çuxur yaranmaz.

Ədalətli bir yol tutub, ədəb-ərkan gözləsə,
Yaxşılıqlar önə çıxar, qapı açar hər kəsə.
İnsan oğlu gözü doysa, tamahına "dur" desə,
Yer üzündə müharibə, bu vur-ha vur yaranmaz.

Ürəyində sevgi olan, sevənləri qınarmı?
Öz başına gəlsə əgər, onu nağıl sanarmı?
Məhəbbətin gücü yoxsa, Kərəm odda yanarmı?
Sevən könül Məcnun olar, onda qürur yaranmaz.

Cəfəroğlu, şah taxtına, çox qaldırma alçağı.
Hər başına duman gələn, dağ eyləməz bir dağı.
Əllərinə qılınc verib, bəsləsən də qorxağı,
Uzaq başı baqqal olar, dönüb cəsur yaranmaz.

*30 iyun 2019*

# Söz gətirməz
### *(Divani)*

Ovçunun naşı olmağı, şikara söz gətirməz.
Usta daşı əyri qoysa, divara söz gətirməz.
Yaxşı oğul səf eyləsə, öz səfindən dərs alar,
Böyüyünün qarşısına, dübara söz gətirməz.

Bahalı söz təsir etməz arsız-arsız gülənə,
Söz var ləldi, cəvahirdi qiymətini bilənə,
Söz qapısı açıq olmaz, hər qapıya gələnə,
Söz boğçası yüngül olan, bazara söz gətirməz.

Bizə gəlib belə çatıb, ta qədimdən, binadan,
Oğul ata varisidi, qız dərs alar anadan.
Saf gəlibsə, saf gedibsə, insan oğlu dünyadan,
Görkəminə düşən ləkə, məzara söz gətirməz.

Hər bir əməl, qeybə çıxmaz, axirətə yeriyər.
Böhtan atan, şər danışan, haqq önündə əriyər.
Cəfəroğlu söz deməyi, bacarmasa kiriyər,
Qarışdırıb ortalığa, bekara söz gətirməz.

*16 dek 2018*

# Abırdan gedər

*(Divani)*

Abırsıza abır dərsi, vermək üçün çalışma,
Söz anlamaz, abır bilməz, sözün abırdan gedər.
Həyasızla çox dayanıb, çox danışma üz-üzə,
Utanarsan, o utanmaz, üzün abırdan gedər..

İnsanlığı dərk eləməz, insan olan hər naşı.
Zərgər taxmaz üzüyünə , parıldayan hər qaşı.
Rəva bilmə astarına, yamaq vurma nimdaşı,
İç üzünü göstərəndə, bezin abırdan gedər..

Taleh, namərd dostu olma, haqq işini yola vur.
Hörmətinlə yaxşılıq ək, hörmətinlə qala qur.
Günah işə arxa çevir, ədəbsizdən dala dur,
Baxma çirkin-pis əmələ, gözün abırdan gedər..

*16 apr 2016*

# Qisməti yazılmayıb

*(Divani)*

Ürəyimdə bir sevgi var, qisməti yazılmayıb,
Ürəyimdə bir inci var, qiyməti yazılmayıb.
Ürəyimi bir gözələ bağlamaqdı niyyətim,
Kaş biləm ki , həyatıma, həsrəti yazılmayıb.

Deyəndə ki bir dənəmsən, qeyrisini görmürəm,
Qaş-qabaqla cavab verir, "mən heç kimi sevmirəm",
Sual vermək qorxuludu, oxumağı bilmirəm,
Gözlərinin aynasında, niyyəti yazılmayıb.

Əl çəkərəm, yad olaram, xoş arzudan, diləkdən,
Dərd əkərəm, qəm biçərəm, mənə qalan ürəkdən.
İstəmərəm bir də daha, minnət edib fələkdən.
Bilsəm əgər Taleh üçün, qisməti yazılmayıb,

*8 sen 2015*

# Qalmışam
*(Divani)*

Həsrətini çox çəkmişəm, xəyalınla qalmışam.
Sürətini qucaqlayıb, camalınla qalmışam.
Xəbərin olmayıb sənin, varlığımdan bəlkə də..
Tək qalanda xəyal qurub, vüsalınla qalmışam.

Gözəlliyin məftun edib, ürəyimə od salıb,
Məhəbbətin köçüb gəlib, ürəyimə yurd salıb.
Bir ox çıxıb baxışından, ürəyimə dərd salıb.
O zamandan bu zamana, azarınla qalmışam..

Gecələr yoldaşı olub, yuxuların Talehə,
Qılınc çəkib, hakim olub, arzuların Talehə,
Nurlu dünya bəxş eləyib, xəyalların Talehə,
Qış ömrümə gətirdiyin, baharınla qalmışam..

*2 iyun 2015*

# Yola ver
***(Divani)***

Hörmətini anlamazı, hörmət eylə yola ver,
Gör nəyədi mərifəti, qiymət eylə yola ver..
Üz görəndə quduranı, çox üz verib qudurtma,
Öz yerində oturunca, töhmət eylə yola ver...

Oyunbazın, ikizlünün, oyununda qurulma,
Namərd dosta arxalanıb, kürəyindən vurulma.
Haqq yolunda, daş da daşı, yer də şumla, yorulma,
Yaxşılara nökər işlə, xidmət eylə yola ver.

İnsan oğlu geyinsə də, hər libası, hər donu,
Sonda üryan hiss edəcək, cəhənnəmin odunu.
Əgər rahat istəyirsən, o dünyada yurdunu,
Bu dünyanın allahına, beyyət eylə yola ver.

Zəmanəylə mehriban ol, külüngünü yerə vur.
Ədalətə, haqqa güvən, zəhmətinlə qala qur.
Qocaların qarşısında, ədəblə, ərkanla dur,
Körpələri mərhəmətlə, söhbət eylə yola ver.

Taleh hörmət, hörmət olmaz, edirsənsə acıqla.
Səxavəti göstərəndə, çalış eylə qılıqla.
Ədəbliyə ədəb gösrət , layiqincə qarşıla,
Hər sözünə-söhbətinə, diqqət eylə yola ver.

*14 may 2015*

# Görmədim

*(Divani)*

Utanmazdı fani dünya, onda arı görmədim.
Tərəzisi düz qurulan, bir bazarı görmədim.
Baharı var, çovğunu var, payızı var, qışı var,
Hər fəsili cənnət olan, bir diyarı görmədim.

Nizamını özü qurdu, yaratdı dağ, düz, dərə,
Sevincinə şərik etdi, qan yaş qoydu gözlərə.
Nə aldısa, əbədilik həsrət etdi bizlərə,
Aldığını geri verən, bir məzarı görmədim.

Talehə də kədər verdi , əzəl başdan, binadan,
Taleyinə həsrət yazdı, doğulanda anadan.
Bircə onu haqq yaratdı, hamı köçür dünyadan.
Ondan başqa düzgün olan, bir qərarı görmədim.

*25 fev 2015*

# Var

*(Divani)*

Sevdalıyam sevdasına, neçə yerdən bağı var,
Qəlbi nurlu bir otaqdı, şamı var, çırağı var.
Gözəllikdə bir dənədi, canlar alır qaş-gözü,
Dərdlərimə dərman olan, dili var, dodağı var.

Sevgisinə çox öyünür, coşub-çağlamağı var,
Qəlbi kövrək uşaq kimi, küsüb-ağlamağı var,
Hərdəb könül sındırandı, sinə dağlamağı var,
Hərdən də imtahan edib, dostu yoxlamağı var.

Tanrı bunu yaradıbdı, yaradanda bir dənə,
Mələklər də heyran olur, bu gözəlin hüsnünə.
Siyah tellər yaraşıqdı, töküləndə gərdənə.
Qaş kamandı, kiprik oxdu, lalədən yanağı var.

Eyləyibdi Kərəm kimi, öz eşqinin əsiri,
Bir ilahə, bir mələkdi, yoxdu onun kəsiri.
Açammadı Taleh onda, bağlı qalan bu sirri,
Qorxuludu, hər anında, yanıb-alışmağı var.

*15 dek 2014*

# Xəbərin olmur sənin

Əzizləyib hər gecə, gündə yüz yol gizlicə,
Başına dolanıram, xəbərin olmur sənin.
Öz xəlvət otağıma, çəkilib xəyalınla,
Atəşinə yanıram, xəbərin olmur sənin.

Kölgəni də izləyib, gələndə sevinirəm,
Ayaq səsini belə, biləndə sevinirəm,
Həsrət məni öldürür, öləndə sevinirəm.
Sevdiyimi danıram, xəbərin olmur sənin.

Sən olmusan dünyada, dövlətim də, varım da..
Kök atmısan, bitmisən, şirin arzularımda.
Adını sayıqlayır, dilim yuxularımda,
Hər gün səni anıram, xəbərin olmur sənin.

Xəyalın kor edibdi, açammıram gözümü,
Xəyalının əlində, itirmişəm özümü.
Hər gün dua edirəm, sənə tutub üzümü,
Yoluna boylanıram, xəbərin olmur sənin...

Talehəm mən sevgini, deyəsən anlayıram,
Özümə qapanıram, özümü danlayıram,
Sevincimdən qaçıram, kədəri dost sayıram,
Özümdən utanıram, xəbərin olmur sənin.

*16 avg 2017*

# "Mən yekə şairəm" deyir
*(Divani)*

Bir azca hörmət edib, üz verəndə "pirəm" deyir.
Ağlına dəyər verib, söz verəndə " birəm" deyir.
Tərifi də eyləməyə, peşman olur kimsə bunu,
Onda da lovğalanır, "mən yekə şairəm" deyir.

Qurdalasan yazdığını, təkrarı var hər sətirin.
Yapışıb ətəyindən, bir-neçə əzbər sətirin.
O, qədər tərifləyir, bir noğul, şəkər sətirin,
Az qalıb inandıra, "ləli-cəvahirəm" deyir.

Yoxdur mənim kimisi, xəyalı göylərdə gəzən,
Mahnılardan süzülən, qonub könüllərdə gəzən,
Məşhuram, bir dənəyəm, kimdi qüsur məndə gəzən,
Hər kəsə səf tuturam, irad göstərirəm, deyir.

Talehi tənqid edib, haqq eləyib, düz eləyib,
Bir dəfə üz veribdi, bir dəfəni yüz eləyib..
Qaynadıb, qarışdırıb, ortalığı söz eləyib,
Neynəyək beləsinə hər, sözü leşkərəm" deyir.

# Dayanmaz

***(Divani)***

***(İslam Əzimova…)***

İslam dərin bir dəryadı, dayaz onu duyammaz,
İslam təbi bir vulkandı, aram-aram oyanmaz,
Oyandısa, tufan kimi dərə, təpə, düz, gedər.
Cılız təblər bu tufanın qarşısında dayanmaz.

Yaxşı dostu, yaman dostu, nəzmə çəkər sınayar,
Mərd yolunda mərd dayanar, namərdləri qinayar.
Haqq-ədalət , doğru-düzgün, yaxşı-yaman tanıyar.
Zəiflərə meydan verər, basıb kəsməz, üz gedər.

Taleh İslam zirvəsinə yaxın düşməz hər ötən,
Az yetirib İslam kimi, oğulları bu vətən.
Vay o günə, rəqib gələ, meydanına tənbətən,
Cərgələnər rəqib üstə, qoşun-qoşun söz gedər.

*3 iyul 2017*

# Sıxıldım

Həyatımın rəngi soldu, gümanlara sıxıldım.
Baharımdan pay umanda, dumanlara sıxıldım,
Bu vəfasız taleyimlə, barışmadım bircə gün,
Qüssə verən, kədər verən, zamanlara sıxıldım.

Göz açandan qərib oldum, qürbət eldə yaşadım.
Çadırlarda məsgən saldım, quru çöldə yaşadım.
Bülbül kimi fəğan etdim, meyli güldə yaşadım
Gülü solmuş, kolu qalmış məkanlara sıxıldım.

Bir-yaxşılıq, bir yamanlıq, kəşv elədim hər üzdə.
Hey aldandım, hey vuruldum, ya əməldə, ya sözdə.
Atdı-tutdu zaman məni, dalğalarda, dənizdə.
Azca ümid yerim olan, limanlara sıxıldım..

Yaşa dolub böyüdükcə, gördüm həyat ağırdı.
Rahat yollar sona yetdi, qalan daşlı, cığırdı.
Körpəlikdə keçən günlər, xatirələr çağırdı,
Talehəm qayıtdım geri, o anlara sıxıldım.


TƏCNİSLƏR

## Təcnis

Parıldamaz işləməyən polad qat.
Sürtə sürtə hamar edər daş daşı.
Namərd dosta mərd şələsi yükləmə,
Mərd yolunda şələ götür daş daşı.

Ətrafa bax, aç gözünü sil, kələ.
Vicdanını təmiz yerdə silk, ələ.
Ax köpüklən, bənd-bərəni silkələ,
Çək özünü dəryalara, daş, daşı.

Cəfəroğlu çox gözləmə daşdan ar,
Eylədiyin yaxşılığı daş, danar.
Varın-pulun ətəyindən daşdanar,
Bu fələklə çox oynasan daş-daşı.

## Təcnis

A nazlı ceyranım haralardasan,
Dur, şahlıq taxtına özgə mindi gəl.
Sən mənim gəmimin kapitanisan,
Bu tufana düşən öz gəmindi gəl.

Məcnunun gəzdiyi çölləri mindi.
Məcnuna gəl deyir çöllərim indi.
Deyirlər zavallı çölləri mindi,
Gülür bu halıma özgəm indi gəl.

Qoyma kipriyindən ox ala məni,
Az sanc acı sözlə, oxala məni.
Satdı üzündəki o xala məni,
Talehin bu könlü özgəmindi gəl.

*13 yanvar 2019*

## Təcnis

Oğul ziyan gəlməz ata sözündən,
Durma böyüyünlə ayağ-ayağa.
Böyuksüz olmaqdan çəkin hər zaman,
Söylə öz atana ay ağa ağa.

Oğul boş-boşuna qaynamaz qazan,
Get eldə ad qazan, get hörmət qazan.
Ucalmaz dostunun ayağın qazan,
Başından var-dövlət ha yağa yağa.

Taleh deyər gəl yuxuma dol ana,
Dərya deməz hər boşalıb-dolana.
Qorx o ruzigardan tərsə dolana,
Başa qar yağmağa ayağa yağa.

*16 dek 2018*

## Təcnis

Yaradan heç kimi darda qoymaya,
Möhtac olub yalvarmaya göz, ələ.
Görkəminə bəxş edəndə gözəllik,
Verə bir də, abır, ismət gözələ.

Heç tutmaya məhəbbətdə yeri var.
Heç denəyə pul ağıla yeri, var…
Hamı deyə gözəlliyin yeri var,
Hamı deyə nə gözəldi gözəl ə.

Taleh səni çaşdırmaya yar adı.
Məhəbbətdən neçə könül yaradı.
Gör eşqinə yaramadı, yaradı,
Qoy ona kənardan bir az göz, ələ.

*30 noy 2018*

## Təcnis

Hədəfi olmuşam qara gözlərin.
Az meylin deyəsən qanadı axı...
Məni öldürməkmi qəsdi-qərəzin?
Yaraşmaz hüsnünə "qan" adı axı...

Həsrətin ay zalım, mən əsirindi.
Açmğın xeyri yox mənə sirr indi.
Sən azad bir quşsan, mən əsir indi.
Sınıqdı eşqimin qanadı axı...

Yaradıb gör necə yaradan göz, əl.
Açma hər sirrini yara, dan gözəl!
Ölər Taleh bu cür yaradan gözəl,
Qoyma, yaralarım qanadı axı...

*30 noy 2018*

## Təcnis

Elə sönübdü ki könlümün odu,
Çətin ki qayıda o, yana bir də...
Əslidən ötəri Lələsiz Kərəm,
Aşmaz bu dağlardan o yana, bir də...

Söyləsəm bir dəfə can, o dayanmaz,
Çəkməz mənim kimi can, o da yanmaz.
Ürəyim yumşalmaz, can oda yanmaz,
Könlümü neşdərlə oyana bir də…

Xəbəri yox bu vurduğu yaradan,
Can üstəyəm, yenə gəlir yara, dan!
Kömək olsa Talehinə yaradan,
Bəlkə yatan bəxtim oyana bir də.

*18 okt 2018*

# Təcnis

Döydü pəncərəni payız küləyi,
Yenə soyuq qışın ayağı gəldi.
Qurudu çəmənlər, soldu çiçəklər,
Xəzan bağçalara a yağı gəldi.

Meşə başsız oldu şirin tapmadı,
Fərhad qaya çapdı, Şirin tapmadı.
Bir ömür yaşadım, şirin tapmadı.
Başı “a” yazıldı, ayağ “ı” gəldi.

Yağdı saçlara qar , düşdü təzə dən,
Köhnə zəmim bir də verməz təzə dən.
Taleh gəzməz cavanlığı təzədən.
Ordan illər ötü, ay ağı gəldi.

*9 okt 2018*

## Təcnis

***Mənə təcnislə hədyan yazan bir nəfərin təcnisinə cavab.***

Dünən yalvarırdın biz əmioğluyuq.
Özün demirdinmi yeri yada yaz?..
Demək ki namərddən əmioğlu olmaz,
Fərqi yoxdu dərin olsun, ya dayaz.

Götür mizrabını vur nəfə, simdi.
Sənin bu əsməyin bir nəf əsimdi.
Vulkan ürəyimdi, od nəfəsimdi,
Düşünmə üşüdər məni yad ayaz.

Dedim ki zəifsən, söz yaram azdı.
Tut bu sözlərimi, tap yara, mazdı.
Sözün də özün tək çox yaramazdı,
Talehə çox gəlməz sən tək yad, ay az..

*12 fev. 2019*

## Təcnis

Səndən xəbər alım biləndər oğlan,
Sənət aləmində birinci kimdi?
Kimi dara çəkdi odun sevgisi?
Zindanlar küncündə bir inci kimdi?

Kimlərə dedilər düz başa keç di?
Kimlər kitab yazdı düz başa keçdi?
Harda əyri sındı, düz başa keçdi?
Şeytana daş atdı birinci kim, di?

Göydə kəsilibdi o hansi bənddi?
O nədi doqquzu birinə bənddi?
Təcnis yaz Talehə tək bircə bənd di.
Cavab ver ay mənim bir incikim di.

*12 fev. 2019*


AD GÜNLƏRİ

## Ad günün mübarək olsun

Sən mənim yaşamaq, yaratmaq eşqim.
Sən mənim qəlbimin döyüntüsüsən.
Sən mənim dünyamda əbədi sevgim,
Sən mənim dünyamın müqəddəsisən.

Ad günün mübarək illərin dostu.
Ad günün mübarək güllərin şahı.
Mənim ürəyimin sevgi dənizi,
Mənim ürəyimin sevgi allahı.

Sən mənə göylərlə bir vasitəçi,
Sən mənim ruhuma azan səsisən.
Sən mənə verilən ilahi payı,
Sən mənə yadların ən əzizisən.

Ad günün mübarək evimin nuru,
Ad günün mübarək həyat yoldaşım.
Ad günün mübarək bulaqdan duru,
Mənim bir ömürlük dostum, sirdaşım.

Səni yaradanım insan donunda,
Talehə göylərdən mələk göndərib.
Dünyamı bir rəngdən xilas eyləyib,
Səni bu dünyama bəzək göndərib.

Ad günün mübarək illərin dostu.
Ad günün mübarək evimin nuru.
Sən mənim dünyamın əmanətisən,
Mənim sənli olan dünyamı qoru.

# Ad günün mübarək

Düz on səkkiz ildi hər il bu günü,
Sənin ad gününü qeyd eləyirəm.
Düz on səkkiz ildi, bir uşaq kimi,
Səni sevə-sevə əzizləyirəm.

Ad günün mübarək incə bənövşəm,
Ad günün mübarək mələyim mənim.
Ad günün mübarək ruhumun səsi,
Ad günün mübarək ürəyim mənim.

Düz on səkkiz ildi şah sayılıram.
Düz on səkkiz ildi başımda tac var.
Düz on səkkiz ildi eşqinə acam.
Düz onsəkkiz ildi eşqinə ac var.

Ad günün mübarək gül üzlüm mənim,
Yerimin, göyümün nazlı sonası.
Ad günün mübarək, sevincim-qəmim,
İki gül balamın əziz anası.

Güc gələ bilməzdi Talehə qürbət,
Verdiyi həsrəti sən olmasaydın.
Bu onsəkkiz illik məhəbbətimdən,
Bu gün uzaq olub, gen olmasaydım.

Ad günün mübarək, gözümün nuru,
Nə yaxşı gəlmisən dünyaya bu gün.
Açıram əlimi göylərə doğru,
Talehə verdiyi məhəbbət üçün.

*08.07.2018*

## Gül götürüb gəlmişəm

Bu gün sənin ad günündü deyirlər,
Eyvana çıx, gül götürüb gəlmişəm.
Öyrənmişəm hər nazını çəkməyə,
Sənə şirin dil götürüb gəlmişəm..

Gəl yaz edək könlündəki qubarı,
Səndə qalıb ürəyimin açarı.
Aramızda bitən soyuq divarı,
Yıxmaq üçün fil götürüb gəlmişəm..

Mən Talehəm şirin candan keçmişəm,
Məhəbbətin badəsindən içmişəm.
Hər obadan bir ağsaqqal seçmişəm,
Qapınıza el götürüb gəlmişəm.

## Doğum günü

Doğum günün mübarək,
Doğulan gözəl inci.
Doğum günün mübarək,
Doğmaların sevinci

Sən göylərin ulduzu,
Yerin çiçək payısan,
Sən baharın müjdəsi,
Günəşisən, ayısan.

Doğum günün mübarək,
Günəş bala, Ay bala.
Doğum günün mübarək.
Ömrümüzə pay bala..

*21 yanv 2016*

## Həyat yoldaşım

Sən ey mənim qəlbimin,
Ürəyimin sevinci.
Sən ey mənim ömrümə,
Bəzək vuran bir inci.

Qədəmin dəyən yerə,
Çiçəklər açıb gəlir.
Sən evim deyən yerə,
Arzular uçub gəlir.

Sən ey sevgi mələyim,
Sən ey tanrıdan payım.
Sən ey mənim dünyamın.
Doğan Günəşim, ayım.

Sən bitib-tükənməyən,
Məhəbbətimsən mənim.
Sən şirinim, şəkərim,
Səadətimsən mənim.

Adınla yazılıbdı,
Talehin hər arzusu.
Sənsən onun ömrünün,
Göydə yanan ulduzu.
Sən Talehin son eşqi,
Son məhəbbət mövzusu.

*8 avg 2017*

# Gətirmişəm

Dur çölə çıx qapına,
Gül-çiçək gətirmişəm.
Sənə məhəbbət dolu,
Bir ürək gətirmişəm.

Dur çölə, çıx qapında,
Adımla dindir məni.
Əlini ver əlimə,
Odunla dindir məni.

Gəl, mənə gəlişinlə,
Sevgi dolu həyat ver.
Göyləri fəth etməyə,
Arzulara qanad ver.

Təbəssümün Talehin,
Qəlbinə məlhəm olsun.
Xoşbəxtlik, sevgi mənim,
Ətrafımda cəm olsun.

## Ad günün mübarək

Yaşının üstünə yaş gəlir bu gün,
Deyirlər bir il də yaşa dolursan.
Bir il də ömrünün üstə yazılır,
Deyirlər böyüyüb gəlin olursan.

Ad günün mübarək ay sarı gəlin,
Böyüyüb boy atıb çinar olasan.
Bir dağın ömrünə bənzəsin ömrün.
Çinar ağacı tək yaşa dolasan.

Qalmaya bu dünya zarafatından,
Bir də görəsən ki onbeşindəsən.
O vaxt uşaq bilib bəyənmədiyin,
Deyə ki balaca körpə, necəsən....

Tarixin təkəri geriyə dönə,
Sütül qız olasan İrəvanında.
Dönəsən dağların tər çiçəyinə,
Cavanlar dolana dörd bir yanında.

Sevgi etirafın o vaxtı gələ,
Yüzündə atıla gəlin örpəyin.
Başına yığışa təzə yengələr,
Yenidən bəzənə gəlin gərdəyin.

Bir zalım oğlunun yarı olasan,
Götürə xəlvətcə qaçırda səni.
Yüz ildən də sonra qarı olasan.
Nəvələr top qoya uçurda səni

Ad günün mübarək ay sarı gəlin,
Qıymasın bu dünya gözəllərinə.
Söylə, gül satandan alım gətirim,
Hansı gül yaraşır gül əllərinə?

Ürəkdən süzülüb gələn sözləri,
Gəl verim ürəklə hədiyyə sənə.
Ən böyük hədiyyə sözdü şairdən,
Sən Allah gülməzsən hədiyəsinə.

Ad günün mübarək ay sarı gəlin,
Başında olanlar yaşına gəlsin.
Çoxunun başına olsun sağ əlin,
Talehin sevgisi başına gəlsin.

# Ad günü

Elə baxma ovçuna,
Bir naşı maral kimi.
Baxışların toxunar,
Ürəyimə xal kimi.

Yanağında gül ətri,
Üzündə min məna var.
Nəfəsində yaz mehi.
Gözlərində dünya var.

Necə sevməyim səni?
Bir səbəb də sən mənə.
Yoxdu elə bir qüsur,
Tapamıram mən sənə.

Niyə belə yaradıb,
Səni axı yaradan?
Nöqsansız insan olmaz.
Sən gəlmisən haradan?

Bəlkə göydən enmisən,
Bəlkə mələksən gözəl?
İnsanlar arasında,
Sən axı təksən gözəl.

Bəlkə dəryalar qızı,
O sular sonasısan?
Bəlkə zöhrə ulduzu,
Göylərin hilalisan?

Neynəmisən sən mənə?
Nə sehir var gözündə?
Dünyanın gözəlliyi,
Cəmlənibdi üzündə.

Sehirindən sirrindən,
Baş aça bilməmişəm.
Dedim səndən qaçaram,
Yox, qaça bilməmişəm.

Yandirmisan Talehi,
Odunda, atəşində.
Görüm başına gəlsin
Bu atəşdən sənin də.......

*12 fev. 2019.*

## Yadıma düşdün

Bu gün yada salıb mələklər səni,
Min arzu qurublar ürəklərində.
Təbrikə gəliblər çiçəklər səni.
Məhəbət gətirib ləçəklərində.

Camalın andırır ayı, ulduzu,
Göylərə nur verir, torpağa ruzu.
Yumşalır nəfəsi, əriyir buzu,
Həzin pıçıltılı küləklərin də…

Xəyalın olubdu Cəfəroğlunun,
Ağlını alıbdı Cəfəroğlunun,
Əbədi qalıbdı Cəfəroğlunun,
Şirin arzusunda, diləklərində.

*12 fev. 2019*

# Yüz yaşayasan..

Dostum doğum günün mübarək olsun.
İki əlli, bir də yüz yaşayasan.
Bu həyat bəxtini əyri qurmasın.
Nə qədər ömrün var düz yaşayasan..

Dostların çox olsun, gəlməsin saya,
Qoy bürünsün hər tərəfin qalaya .
Şeirlərin səpələnsin dünyaya,
Aləmə paylayıb söz yaşayasan..

Dağ kimi ağarsın ağarsa da baş,
Kədərin əliylə çatılmasın qaş
Zirvələrdən alaq sədanı qardaş,
Görkəmə çıxasan, üz yaşayasan.

Taleh arzu edir, görmə yamanlıq,
Olsun dörd tərəfin əmin-amanlıq.
Buraxmasın heç yaxanı cavanlıq,
Vurub gözəllərə göz yaşayasan..


VƏTƏNPƏRVƏR
ŞEİRLƏR
AZERBAIJAN

# Etinasız ötüb getmə...

Etinasiz ötüb getmə, sən bu yolu, vətən oğlu,
Qaldır yerdən o başını, sağına bax, soluna bax.
Burda yatan şəhidlərin, əllərində qalxıb göyə.
Başın üstə dalğalanan, ay ulduzlu, o al bayraq.

Etinasiz ötüb getmə, sən bu yolu vətən qızı,
Azadlığın heykəli bil, burda yatan hər nəfəri.
Günəş kimi uyumadan, işıq saçır qışı, yazı,
Vətəninə keşik çəkir burda bu daş cərgələri.

Qaldır yerdən o başını, bu daşların üzünə bax.
Gör silinib itməyib ki, o məğrurluq yağışlarda?...
Qaldır yerden o başını, o daşların gözünə bax,
Gör nə qədər sual yatır, o daşlaşan baxışlarda!...

Küsüb baxma solğun-solğun, boynu bükük, sola, saga,
Qəm eyləmə məzarliqda, daş üstündə solan çiçək.
Qələbənin sevinciylə, səni bir gün sevə-sevə,
Başı üstə qaldıracaq, qız-gəlinim, gün gələcək.!

Etinasız ötüb getmə sən bu yolu, Cəfəroğlu,
Yeridiyin hər qarışda, şəhidlərin haqqı yatır.
Ayağa dur vətən qızı, ayağa dur vətən oğlu.
Al qisası, çox gecikmə, bu qan batır, bu qan batır.

*27 apr 2019*

# Heyif ana dilimə

Yüz yerdən dil gətirib, dilimizə qatdılar.
Dilimizi kor qoyub, alovlara çatdılar.
Öz dilini bilməyən bir nəsil yaratdılar,
Heyif ana dilimə,
Heyif ana dilimə...

Gah rusa oxşadılar, gah ərəbə çəkdilər,
Gah fransız doğdular, gah ingilis əkdilər.
Qarışdırıb hər dili, ətimizi tökdülər.
Heyif ana dilimə,
Heyif ana dilimə...

Əvvəl molla çağırıb, əl-zəbər öyrətdilər.
Sonra onun böyrünə, kurikulum dürtdülər.
Yazıq dilimizə də, siyasət yürütdülər.
Heyif ana dilimə,
Heyif ana dilimə...

Çox sözümüz yozuldu, işarəsi boş oldu.
Əvəzlik yaratdılar, qulaqlara xoş oldu.
Savadlı quldurların, hiyləsinə tuş oldu.
Heyif ana dilimə,
Heyif ana dilimə...

Siz ey ana dilimin, laylasinda yatanlar,
Siz ey özgə dilini, doğma əziz tutanlar,
Siz ey ana dilini, özgə dilə satanlar,
Heyif ana dilimə,
Heyif ana dilimə...

Öz soyunu itirsə, öz adının itirsə,
Öz tamını itirsə, öz dadını itirsə,
Taleh, öz qohumunu, öz yadını itirsə,
Heyif ana dilimə,
Heyif ana dilimə...

*6 yanv 2019*

# And içmişəm

Hazırlaş igid əsgər, qalx ayağa ey vətən,
O şəhid balaların canına and içirəm.
Qoymayaq şəhidlərin, gecikməyə qisası,
Xocalının tökülən, qanına and içirəm.

Ancaq qisasla durar, bu tökülən göz yaşı,
Ancaq qan yuya bilər, bu torpağı, bu daşı.
Körpəmi qətl edənin, kəsilməyincə başı,
Girməyəcək qılıncım, qınına, and içirəm.

Qayıdıb Qarabağım, öz yurduna köçməli,
Lacınımda qan tökən, öz qanını içməli.
Kəbəmə gedən yolum, Kəlbəcərdən keçməli.
O Kəbənin, Məkkənin, yoluna and içirəm.

Ölsəm ağlama oğlum, bayrağıma bük məni.
Yandır, külümü götür, vətənimə tök məni.
Talehəm, hər qarişda, hər addımda ək məni.
Canım vətənə fəda, mən ona and içirəm.

*26 fev. 2019*

## Əmr elə komandanım

Kəbə ata ocağı, qiblə vətən torpağı,
Ürəkdə vətən eşqi, əldə vətən bayrağı.
Bircə əmrinə bəndik, almağa Qarabağı,
Hazırdı vuruşmağa, hər qızım, hər oğlanım,
Əmrini gözləyirik , əmr elə komandanım.

Qaldır şahinlərini, meydan oxu göylərə.
Şığı düşmən üstünə, alov yağdır yerlərə.
Dalğaları ram eylə, hücum çək dənizlərə,
Qoy haqq olsun qılıncım,qoy haqq olsun qalxanım.
Əmrini gözləyirik, əmr elə komandanım.

Qələbə marşımızı, Şuşamızda çaldıraq.
Qələbə bayrağını, İrəvanda qaldıraq.
Qələbə sevincini, ürəklərə dolduraq.
Qələbəndən danışsın, cümlə Azərbaycanım,
Əmrini gözləyirik, əmr elə komandanım.

Kəlbəcərdə qalıbdı, odu sonmüş ocağım.
Qisas yolu gözləyir, hər yamacım, hər dağım.
Andım var, and içmişəm, alınmasa torpağım,
Talehəm bu torpağa, qoy axsın şəhid qanım.
Əmrini gözləyirik, əmr elə komandanım.

*10 noy 2018*

## Qələbəyə doğru

Oğuzların yurduna, göz dikənə ar olsun,
Haqq səsini aləmə, çatdıranlar var olsun.
Qoy ədalət üstündə, dünya bərqərar olsun.
Şər qüvvələr çəkilsin, ədalətin yolundan.
Allahın elçisidi Rəcəp Tayyip Ərdoğan.

Allahın buyruğuyla, zəfər səni gözləyir,
Ölümlərdən qorxma, hünər səni gözləyir.
Yeni tarix yazmağa, bəşər səni gözləyir.
Vur azadlıq əsgəri, qılıncını hər zaman.
Allahın elçisidi, Rəcəp Tayyip Ərdoğan.

Sızıldayır məzarda, şəhidlərin ruhları,
Ərşə çıxıb günahsız körpələrin ahları.
Artıq göy də götürmür, bu qədər günahları,
Dinimə, quranıma, qayıdıbdı müsəlman.
Allahın elçisidi, Rəcəp Tayyip Ərdoğan.

Allahın əmrindədi, ildırımın çaxmağı,
Allahın əmrindədi, yağışların yağmağı,
Allahın əmrindədi , ayı- günün çıxmağı,
Allah belə buyurub, qopmalıdı bir tufan,
Allahın elçisidi, Rəcəp Tayyip Ərdoğan.

Gərək ilanın başı, taptalana, əzilə,
Gərək namərdin başı, boğazından üzülə.
Gərək düşmən ayağı, bu torpaqdan kəsilə.
Ancaq dostlar adlaya, bu torpağın yolundan,
Allahın elçisidi, Rəcəp Tayyip Ərdoğan.

Bu torpaq neçə-neçə, igid ərlər yetirib.
Bu torpaq neçə-neçə, Mübarizlər yetirib,
Bu torpaq çox Nigarlar, çox Həcərlər yetirib.
Bu torpağın hər oğlu, hər qızı bir qəhrəman,
Allahın elçisidi Rəcəp Tayyip Ərdoğan.

Göylər açdı qapısın, göylərdən nida gəldi.
Yuxuların birində, Taleha səda gəldi.
Şərə qarşı durmağa, o durdu, dada gəldi.
Tanrı narahat deyil, yaratdığı qulundan.
Allahın elçisidi Rəcəb Tayyib Ərdoğan.

# Mənə çatmır?...

Tutubdu hər tərəfi, zülm ilə zillət,
mənə çatmır.
Məmurlar alır rüşvəti xəlvət,
mənə çatmır.

Kasıbın canı çıxır,
əzab-əziyətdədi hər gün.
Villa-saraylar qurulur,
varlı rəqabətdədi hər gün.
Bir yanı kef dağıdır,
bir yan fəlakətdədi hər gün.
Talanır, qoy talan olsun,
o fəlakət mənə çatmır.
Tutubdu hər tərəfi, zülm ilə zillət,
mənə çatmır.
Məmurlar alır rüşvəti xəlvət,
mənə çatmır.

Ölkəmdə qohumdan kənara,
min qada gəlsin, mənə dəyməz.
Nə gəlir qoy özü bilsin,
yada gəlsin, mənə dəyməz.
O Məhəmməd, o da Lenin,
o da gəlsin, mənə dəyməz.
Tökməyin zəhləmi hər gün,
eləmən yaxşı nəsihət, mənə çatmır .
Tutubdu hər tərəfi zülm ilə zillət,

mənə çatmır.
Məmurlar alır rüşvəti xəlvət,
mənə çatmır.

Müəllimlərin canı sağ,
milli qürurla, çevrilirlər qula, matdı.
Bankları güc-bəla ilə, yubadırlar,
gətirirlər yola matdı.
Cərrah yanaşır xəstəyə qəssab bıçağıyla,
pula matdı.
Ölsə tapılmır kasıba,
pulsuz axirət , mənə çatmır.
Tutubdu hər tərəfi, zülm ilə zillət,
mənə çatmır.
Məmurlar alır rüşvəti xəlvət,
mənə çatmır.

Heç utanmır a balam,
zərrə qədər dünya özündən.
Aca nifrət və rəzalət,
vara rəğbət, tökülür varlı gözündən.
Taleh cana doydu,
çox usandı, zamanın haqsız üzündən.
Demərəm qanmazam artıq,
belə dəhşət mənə çatmır,
Tutubdu hər tərəfi, zülm ilə zillət,
mənə çatmır?
Məmurlar alır rüşvəti xəlvət,
mənə çatmır?

# Gedirəm Əsgərliyə

Ağlamaq daha bəsdi, ağlamağı yana qoy,
Ağlamasın dalımca, o gül üzlü sona qoy.
Vətənə qurbanlğam, tellərimə xına qoy,
Tapşır əziz balanı, əmanət eylə göyə,
Xeyir-dua ver ana , gedirəm əsgərliyə.

Düşmənimin gözünə, ox olum, batım gedim,
Düşmənimin canını, odlara atım gedim.
Qarabağı qaytarım, arzuma çatım gedim.
Bağla qapıda qoçu, arzuma nəzir deyə...
Xeyir-dua ver ana , gedirəm əsgərliyə.

Borçalımdan adlayım, İrəvana qovuşum.
Zəngəzurda yurd salım, Naxçıvanı soruşum.
Qanadlansın Təbrizə, yol alsın könül quşum,
Heyran olum Şuşamda İlahi gözəlliyə,
Xeyir-dua ver ana , gedirəm əsgərliyə.

Axı Kəlbəcər kimi, qalam girovdu mənim,
Boynu bükük bənövşəm, lalam girovdu mənim.
Xocalıda gör neçə, balam girovdu mənim,
Orda şəhid ruhları, hər gün əl açır göyə,
Xeyir-dua ver ana, gedirəm əsgərliyə.

Dünya Qoç Koroğlumun, hünərindən danışır,
Xətai qılıncının, kəsərindən danışır.
Babəkimdən, Nəbimdən, Həcərimdən danışır,
Hünərsiz kim olubdu, güc gəlir hünərliyə.
Xeyir-dua ver ana , gedirəm əsgərliyə.

Azərbaycan oğluyam, odlar ölkəsiyəm mən!.
Əzrailin düşməni qovan kölgəsiyəm mən!.
Talehəm bu vətənin, elin haqq səsiyəm mən!.
Haqqı çatır bu xalqın, bütövlüyə, birliyə,
Xeyir-dua ver ana , gedirəm əsgərliyə.

*4 apr 2017*

## Ağlama şəhid anası

Bəzədi güllər balanı,
Apardı sellər balanı,
Ağlayır ellər balanı,
Ağlama şəhid anası.

Çəkmə bu cür dağı bizə,
Yaraşmayır ağı bizə,
Baxar, gülər yağı bizə,
Ağlama şəhid anası.

Tanrı sevir mələkləri,
Əsir cənnət küləlkəri,
Nalə çəkib ürəkləri,
Dağlama şəhid anası,
Ağlama şəhid anası.

Qisas vaxtı yaxındadı,
Ağlama, şəhid anası

# Şiriyev Aydın

***Dostum Şiriyev Aydına …***

Canını, qanını qoydu ortaya,
Neçə döyüş gördü Şiriyev Aydin.
Sağlam həyatını qıydu orduya,
İgidlik göstərdi Şiriyev Aydin.

Bir ucu Goranboy, bir ucu Tərtər,
Bir ucu Qarabağ, Laçın, Kəlbəcər,
Döyüş yolu keçdi Ağdama qədər.
Bu yurda can verdi Şiriyev Aydin.

Vətən sevgisiylə düşüdü çöllərə,
Yayıldı şöhrəti bütün ellərə..
Şaxtalı, sazaqlı ağır illərə,
Dözdü, sinə gərdi Şiriyev Aydin.

Xəyala dönüşən sonam dağların,
Qəlbinə qan düşən sonam dağların.
Yaralı köksünü anam dağların.
Qucağına sərdi Şiriyev Aydın..

*26 yanvar 2017*

## Goranboydu bu

Şanlı tarixinə töhfələr verən,
İgidlər yetirən Goranboydu bu..
Kazımı, Göyüşü, Qatır Məmmədi,
Dünyaya gətirən Goranboydu bu..

Söyləsin sazımın gərək hər simi,
Dinləsin gələcək nəsil dərsimi.
Ələkbəri, Maşallahı, Rasimi,
Mamedi bitirən Goranboydu bu..

İçibdi əlindən ağı düşməni.
Qovub sinəsində dağı düşməni.
Vətən torpağından yağı düşməni.
Süpürüb itirən Goranboydu bu..

Cəfəroğlu gərək desin düzünü.
Tanıdıbdı hər tərəfə özünü..
"Qəhrəman" sözünü, "igid" sözünü..
Çiyninə götürən Goranboydu bu..

*30 noy 2016*

# Mənim əsgər qardaşım..

Addımını elə at , ana torpaq oyansın,
Məqsədinə elə çat, düşmənlərin utansın.
Vətən oğul istəyir keşiyində dayansın,
Vətəninə oğul ol, götər hünər qardaşım,
Qoy adınla fəxr edim mənim əsgər qardaşım..

Babəkin yurdudu bu, Koroğluyuq, Nəbiyik..
Hərəmiz bir orduyuq, qoç igidik, dəliyik..
Qeyrətimiz yolunda ölümə getməliyik,
Qeyrətimizdi verən, bizə hünər, qardaşım,
Qoy adınla fəxr edim mənim əsgər qardaşım..

Kəlbəcərim, Laçınım, Cəbrayılım dardadı,
Xocalım işğal olub Qarabağım tordadı,
Bizim qiblə yolumuz talan olmuş yurdadı,
Qiblənə qurban olum qibləsevər qardaşım..
Qoy adınla fəxr edim mənim əsgər qardaşım..

Dostlarına mehriban, düşməninə acı ol.
Vətəninə, elinə dərd gəlsə əlacı ol.
Taleh Cəfəroğluna başda qeyrət tacı ol.
Düşmənin üzərində çalaq zəfər qardaşım.
Qoy adınla fəxr edim , mənim əsgər qardaşım.

*2004*

## Qanla tarix yazdılar

O gecə oyandılar güllələrin səsinə,
Söndü neçə körpənin, neçə gəncin həyatı..
O gecə göyə çıxdı, qarışdı bir-birinə,
Anaların naləsi, anaların fəryadı.

O gecə, qapıları, döydü, qara bağladı.
O gecə, neçə-neçə, ürəkləri dağladı.
O gecə, şəhid oldu, Azərbaycan övladı,
O gecənin dərdinə Azərbaycan ağladı.

Adını qanla yazdı, o qanlı qara tarix.
Neçə günahsız qanı, körpə qanı töküldü.
Vurdu bu millətimin, köksünə, yara tarix.
Neçə körpə bədəni, ağ kəfənə büküldü.

O səhər günahların, üstünə doğdu Günəş,
O səhər dəhşətlərin, göründü qaranlığı.
O səhər tanrının da, baxışı saçdı atəş,
Qınadı bu vəhşəti, qınadı insanlığı.

Əzizim qalası var,
Dərdimin qalası var.
Susmur ana fəryadı,
Bir şəhid balası var.

Əzizim baxar ağlar,
Göz yaşı axar ağlar.
Dərdlilər yata bilməz,
Yollara çıxar ağlar.

Əzizim oda yandı,
İlqarım oda yandı.
Qərənfil qan ağladı.
Dözmədi, o da yandı.

*16 yanv 2016*

# Yumdu şəhidlər

Adları tarixdən silinməz oldu,
Qüruru, mənliyi əyilməz oldu.
Vətənə sevgisi müqəddəs oldu.
Ölümün qoynuna cumdu şəhidlər,
Yumdu gözlərini, yumdu şəhidlər.

Arzusu dayandı, qəlbi dayandı ,
Sinəsi qırmızı qana boyandi.
Odlu mərmilərin odunda yandı,
Soyuq məzarlarda dondu şəhidlər,
Yumdu gözlərini, yumdu şəhidlər.

Büküldü qırmızı qərənfillərə,
Yazıldı dastana , düşdü dillərə.
Müqəddəs ruhları uçdu göylərə,
Uca zirvələrə qondu şəhidlər,
Yumdu gözlərini, yumdu şəhidlər.

*17 fev 2015*

# Dağlara

Nə həsrət qurtarır, nə hicran bitir,
Nə vaxtdı həsrətəm anam dağlara.
Nə harayım çatır, nə ünüm yetir,
Nə də aparan var salam, dağlara.

Unudam ağrımı, qucam dərdimi,
Götürüb qoynuna qaçam dərdimi.
Bir saz havasına açam dərdimi,
Tarda bir şikəstə çalam dağlara.

Deyəm, satdı səni nanəciblərin,
Deyəm, atdı səni nanəciblərin.
Deyəm, keç səhvini biz qəriblərin.
Baş əyəm, minnətçi olam dağlara.

Talehəm, dayanam sözümün üstə.
Sürünəm düzündə dizimin üstə.
Düşəm ayağına üzümün üstə.
Qoy hamı görsün ki qulam dağlara.

*7 fev 2015*

# Nə vaxtdı düşməyir iz Qarabağa..

Çalın, kiriməsin qələbə marşı,
Tutaq hər birimiz üz Qarabağa.
Verək sinəmizi düşmənə qarşı,
Yol alaq, yeriyək düz Qarabağa.

Nə vaxtı bu hicran vüsala yetmir,
Nə vaxtı, bu dərdin ağrısı bitmir,
Nə vaxtdı doğması, əzizi getmir,
Nə vaxtdı düşməyir iz Qarabağa..

Çalın o cəngini, susmasın bir an,
Düşmənin yurdunu eyləyək viran.
Qoy olsun Taleh də yurduna qurban.
Aparın dəfn edin tez Qarabağa.
Nə vaxtdı düşməyir iz Qarabağa..,

*13 avg 2016*

# Ana dağlar

Neçə ildi həsrətinlə,
Ağlayıram ana dağlar.
Boz-bulanlıq çaylar kimi,
Çağlayırmam ana dağlar.

Təmənna var çörəyimdə.
Yad baxışlar kürəyimdə.
Sürətini ürəyimdə,
Saxlayıram ana dağlar..

Utanıram əməlimdən,
Cana doyub qəm əlimdən.
Sökülmüşəm təməlimdən,
Laxlayıram, ana dağlar.

Qalmayıbdı daha sözü,
Talehin qaradı üzü.
Gəlib yuxularda sizi,
Yoxlayıram ana dağlar.

*3 iyul 2014*

# Dağlarıma

Qaytar məni vətənimə, qeyrətimi ver özümə
Qız-gəlinlə əsir düşən, ismətimi ver özümə.
Vətəndə qoyub gəldiyim, hörmətimi ver özümə.
Ya da azad bir quş eylə, uçum gedim dağlarıma.
Yol aç mənə ulu tanrım, çıxım gedim dağlarıma.

Cavanşirin, Koroğlunun,mərdliyinə səslə bizi.
Babəkimin qılınc kimi, sərtliyinə səslə bizi.
Vətənimin azadlığı, birliyinə səslə bizi.
Sərhədləri vurum açım, çatım, yetim, dağlarıma.
Yol aç mənə ulu tanrı, çıxım gedim dağlarıma.

Mənim ağır dərd yükümü, körpələrim çəkməməli.
Mənim yaraddıqlarımı, başqaları sökməməli.
Mənim doğma vətənimdə, başqası yurd tikməməli,
Xoş gələrmi, belə cılız,aqibətim dağlarıma?...
Yol ac mənə ulu tanrım, çıxım gedim dağlarıma.

İgidlikdən, kişilikdən, dəm vuranda utanıram.
Qoçaqlıqdan, dəlilikdən, dəm vuranda utanıram.
Artıq ötüb iyirmi il, nəyə görə yubanıram.
Xoş gedərmi, bu vəfasız, hərəkətim dağlarıma .
Yol aç mənə ulu tanrım, çıxım gedim dağlarıma.

Höküm sənin əlindədi, icazə ver ey sərkərdə.
Bəsdi yatdıq, cəngi çaldır, dilə gəlsin təbillər də…
Qılınc çalım, güllə atım, düşmənimə döyüşlərdə.
Bəlli olsun igidliyim, sücaətim dağlarıma.
Yol aç mənə ulu tanrım,çıxım gedim dağlarıma.

Körpəlikdə çıxdığımdı, indi qoca sayılıram .
Saçlarıma dən düşübdü, yavaş -yavaş çallayıram.
Bu yaşım da uşaq kimi, kövrəlirəm, ağlayıram .
Talehəm heç azalmayıb,məhəbbətim dağlarıma.
Yol aç mənə ulu tanrım,çıxım gedim dağlarıma .

*2 iyul 2013*

# Ey insanlar..

Ac-yalavac olan gördük, ötüb getdik,
Soyuqlarda donan gördük. ötüb getdik,
Diri-diri yanan gördük, ötüb getdik.
Nə vaxt bitir bu dəhşətlər, bu acılar,
Oyanmağın vaxtı gəlib, ey insanlar…

Ədaləti qolu sındı, qarışmadıq,
Haqqımızı kimlər yedi, soruşmadıq.
Əyrilyi düzəltməyə çalışmadıq,
Sizcə daha bəs deyilmi bu yalanlar,
Oyanmağın vaxtı gəlib, ey insanlar…

Kasıb haqqa, namərd taxda arxalandı,
Şər dilinə, kasıb baxta arxalandı.
Yer zülmlə, göy zülmlə çalxalandı.
Sizin üçün bəs etmirmi bu divanlar,
Oyanmağın vaxtı gəlib, ey insanlar…

Azadlığın adı qaldı dildə, niyə?
Qarabağı saxlamadıq əldə, niyə?
Qaçqın, köçgün, səfil oldu çoldə, niyə?
Dilə gəlmək istəmirmi bu vicdanlar .?
Oyanmağın vaxtı gəlib, ey insanlar…

Gəlin tapaq, sapı bizdən baltaları,
Çəkək qıraq, qırılmayan xaltaları,
Gəlin tutaq, dara çəkək saxtaları,
Daha, qaysaq bağlamalı bu yaralar,
Oyanmağın vaxtı gəlib, ey insanlar…

*2 noy 2015*

## Yaşıyammadı

Alışıb-yananda gizlicə yandım,
Mənim alovuma naşı yanmadı.
Bilmədi qaçqınlıq köçkünlük nədi,
Torpağı yanmadı, daşı yanmadı.

Üzümə açıldı acı sabahlar,
Gecələr qəlbinmi dəldi günahlar,
Göyləri yandırdı çəkdiyim ahlar,
Kiminsə qəlbinin başı yanmadı.

Qürbətə tapşırdıq neçə sağları,
Torpaq qucaqladı neçə ağları.
Talehi köksünə sıxan dağları,
Taleh ürəyində daşıyammadı.

*26 oktyar 2018*

# İndi

Hər yan qan göləndədi, hər tərəfdə ölüm var,
Hər yanda ah səsləri, hər tərəfdə zülüm var.
Kəsib şikəst qoyublar, harda mənim əlim var.
Vəhşilərin içində vəhşimi gəzək indi ?

Oğul yoxmu düşmənin, canına od salmağa?
Bütövləşib, bir olub, Azərbaycan olmağa,
Xocalının, Ağdamın, qisasını almağa,
Erkəklər dura-dura, dişimi gəzək indi?

Yanımızda olanı, yanımızda tapmayıb,
Qanımızda olanı, qanımızda tapmayıb,
Kişiliyi, qeyrəti, canımızda tapmayıb,
Bir də başı papaqlı, kişimi gəzək indi?

İş-gücümüz bu yurdun, qeydinə qalmaqdısa,
Amalımız yağıdan, qana-qan almaqdısa,
Oğul vətən qoruyar, lap şəhid olmaqdısa,
Bundan öncə nə iş var, işimi gəzək indi?

Pas tutubdu divarda, tüfəngimin lüləsi,
Taleh ayıldacaqmı, bizi qeyrət silləsi?
Başımızda oynayır, yağı düşmən gülləsi.
Çayxanada zər atıb, şeşimi gəzək indi?

*15 oktyabr 2018*

# QƏZƏLLƏR



# Bu gün də...

Vurğunam mən o gözəl sərvi-xuramana bu gün də...
Sadiqəm qurduğum o, əhd ilə peymana, bu gün də..

Mənim ağ saçlarımın, rənginin aşiqə nə fərqi...
Sönmədən hey yanıram, həsrəti-hicrana, bu gün də...

Daş üstə qoymasa daş, ömrümü illər talan etsə,
Salır onun xəyalı, ruhumu sahmana, bu gün də...

Baxmayın siz bu yaşa, mən onun Məcnunu olub,
Asıb öz boynuma zincir, düşərəm çöllü-biyabana, bu gün də....

Gəlişindən o yarı, könlümə sultan elədim mən!
Göz üstə saxlayıram könlümə sultanı, bu gün də...

O eşqə mubtəladı, xəstədi Taleh həmin eşqə,
Ehtiyac var o gözəl, dərdimə dərmana, bu gün də...

*12 fev. 2019*

# Olub

Eşqinin bülbülüyəm, məhəbbətim aşkar olub.
Səni mən vəsv edirəm, hər sözümlə, memar olub.

Öldürmə aşiqini, eşidənlər söz eyləyər,
Deyərlər bülbül ölüb, gül buna səbəbgar olub.

Nə günah eyləmişəm, mən səni sevəndə axı,
İndi bu boyda geniş dünya mənimçün dar olub.

Etmirdin həsrətə tab, deyildin əvvəl belə sən!,
Arada bəlkə gülüm ara vuran əğyar olub?.

Soruşanlar olanda səndə günah görmürəm heç,
Deyirəm bu Talehə taleyi zülümkar olub..

*13 dek 2016*

# Gəlib

Şeytan yalan danışıb, Adəmə, Həvvaya, gəılib,
Onlar da tərk eləyib, cənnəti, dünyaya gəlib.

Sonradan rəhm eləyib, unutmayıb bəndəsini,
Allah namaz əhlinin üstə salıb sayə gəlib.

Bir qətrə nütfədən hasil eləyib ətlə sümük,
Bədənə ruh üfürüb, bədən ruha dayə gəlib.

Altı gün müddətində yerlə göyü xəlq eləyib.
Saysız ulduz yığını, ərş ilə əlaya gəlib.

Tanrı məhkum eyləyib zülmətə şər qüvvələri.
Zülməti qovmaq üçün Günəş də səmayə gəlib.

Şəkk etmə, xəlq olana, tək bir Allah "ol" buyurub,
Allaha şərik qoşan, lənətə-bəlaya gəlib.

Taleh yer aləminin ruhudu odnan su, külək.
Nə gözəllik gəlibsə bu gözəl simaya gəlib.

*26 iyul 2018*

# A zalım

Necə ki mən yanıram, sən də alış yan a zalım,
Məhəbbətin dadını, sən də çalış, qan, a zalım.

Nə biləsən ki nədir, ruh ilə sevməyi axı,
Sənə həsrətdi könül, dərdə düşüb can, a zalım.

Olmadım dünyada mən, kimsəyə könüllü nökər,
Səni seçdim əbədi, könlümə sultan, a zalım.

Mən artıq nə istədim, bu dünyada səndən axı,
Qıymadın bircə gülüş, aşiqə ehsan, a zalım.

Gəl verim, al canımı, yoxdu təmənnam canıma,
Desələr sənsən onun dərdinə dərman, a zalım.

Sən bircə kəlmə sözə, xəsislik etdin mənə bax,
Taleh sənin eşqinlə oldu qəzəlxan, a zalım.

*22 iyul 2018*

# Adam allahlı olar

Unutma aşiqi ey yar, adam allahlı olar,
Allahın bəndəsinə olma zülümkar, adam allahlı olar.

Küsəndə söylə mənə, qoy səbəbin, mən də bilim.
Nə demişəm ki sənə, mən dili bimar, adam allahlı olar.

Vermə sən gəl bu qədər aşiqinə ahi- fəğan,
Bizə rişxənd eləyir xar, adam allahlı olar.

Bir könül vardı ki ey gül, o da meyl etdi sənə.
Bir qəlbi qırmağa gəl, olma səbəbkar, adam allahlı olar.

*22 iyul 2018*

# Başıma

O baxışlar salıbdı, bir belə fitfa başıma,
Dolanır dayanmadan bir dəli sevda başıma.

İstəmirəm səhraların bir dəli Məcnunu olam,
Ağıl qoy ey yaradan, xaliqi-mövla başıma.

Bir gözəl sima məni, salıbdı öz tilsiminə,
Gəlməyib sevgidən heç bu qədər bəla, başıma...

Elə çox vurğunam ki mən o könül sutanıma,
Nə ola, qismət ola, bəxt quşu qona başıma.

Yar deyib yandı könül, yanmadı yar eşqim ilə,
Talehəm sevdim onu, dar oldu dünya başıma.

*31 may 2017*

# Aşiqdi deyə

Bu qədər naz eləmə, el sənə aşiqdi deyə,
Unutma bağbanını, çöl sənə aşiqdi deyə.

Ötüşən hər gününü, ahu-fəğannan keçirir,
Bir şirin nəğmə deyən, dil, sənə aşiqdi deyə.

Bir inci zərgər əlindən yetişər qiymətinə,
Gəl qırma, zər bəzəyən, əl, sənə aşiqi deyə.

Sən ona şəkk eləmə, sevgilərin tanrısı var,,
Qayıt öz sevginə dön, gəl, sənə aşiqdi deyə.

Talehə vermə zülüm, olma zülümkar belə sən,
Alçaltma aşiqi ey yar, sənə aşiqidi deyə..

*27 may 2017*

# Mən ona yar demişəm

Mən ona yar demişəm, bir gülü-rəna demişəm,
Hüsnünə vurulmuşam, ömrümə məna, demişəm.

Üz tutub Allahıma, təkcə onu istəmişəm,
Yoxdu qəlbimdə mənim, baqa təmənna, demişəm.

Onsuz keçən günümü, ömrümə gün saymamışam,
Nə qədər keçsə də xoş, o günə fəna demişəm.

İstəyən kimsələrə qıymamışam, sevgimi heç,
Bir ürək sahibiyəm, onu da ona, demişəm...

Mənə onsuz yaşamaq, bir qaranlıq zindan olar,
Ona nə gəlsə qada, qoy gəlsin cana, demişəm.

Talehəm memar olub, o gözəlin eşqi üçün.
Qurmuşam, yaratmışam, bir gözəl bina, demişəm.

*1 may 2017*

# Gəl

Zülm eyləmə sən, mən kimi divanəyə, gəl!
Geri dön, dağıtdığın bu qəlbə, viranəyə gəl..

Yaşamaq ardı mənə, yer üzü zindan kimidi,
Hər kəsdən gizlənirəm., dönmüşəm əfsanəyə, gəl..

Dəyərmi heç bu dünya çəkdiyim əzablara yar ?
Daha nifrətim qalıb bu dövrə, zəmanəyə, gəl...

Gəl yandır ki yanım, eşqinə ey nazlı mələk,
Görsünlər qatil oldu şam, necə, pərvanəyə, gəl..

Taləhə güldü bu aləm, həsrətdə yandı deyə,
Çün Taleh aşiq olub sən kimi biganəyə, gəl..

*28 iyun 2016*

# Verib

Tanrı ki yoxdan yaradıb, Adəmə -Həvvaya verib.
Qoca Dünyanı bizə, bizi də Dünyaya verib.

Günəşə nur çiləyib, köksünü sabah yaradıb.
Gecənin zülmətini öz payından aya verib.

Hər kəsin taleyinə əkibdi bir dərd toxumu.
Leylini qəbr evinə, Məcnunu səhraya verib.

Talehin bəxtinə də xoş günü az yazıb fələk
Dərdlərini desin deyə meylini misraya verib.

*13 may 2015*

# Gecələr

Olur aləmdə nə var, kəm, mənə sənsiz gecələr,
Sübhəcən keşik çəkir, şəm, mənə sənsiz gecələr.

Gündüzlər dərd evinə dusdaq edir yar xəyalı,
Yığışır hakim olur, qəm, mənə sənsiz gecələr.

Dururam, arzularla dərdləşirəm, baş-başa, tək,
Dar olur dünyeyi-aləm, mənə, sənsiz gecələr.

Təsəlli tapmaq üçün pərdələrlə dərdləşirəm,
Layla çalır tardakı tək sim, mənə, sənsiz gecələr.

Gözümdə kiççilib aləm, itirib öz dəyərin,
Daha yaddır belə, kölgəm mənə, sənsiz gecələr.

*1 mart 2015*

# Ölürəm

Gözəlim salma belə ortaya hicran, ölürəm.
Dağıdıb eyləmisən qəlbimi viran, ölürəm.

Aşigar deyə bilmirəm, dərdimi ey nazlı mələk,
Eyləyib hisslərimi qəlbimə pünhan, ölürəm.

Xəstənəm ey təbibİm, gəl ki, sağalsın yaralar.
Yoxdumu səndə məgər, zərrəcə vicdan, ölürəm.

Dəyəri yox gözümdə, bu dünyadan incimişəm,
Kaş olam bircə gecə, qoynuna mehman, ölürəm.

Az qalıb Talehin də, ömrü gedir dağdan aşa,
Ey nağıllar mələyi, sərvi-xuraman ölürəm.

*28 yanv 2015*

# Beləsən sən!

Ey gül, yaradıb Tanrı səni, zövq ilə, əhsən, beləsən sən!
Dəxi güllər sənə çatmaz gözəlim, bir dənəsən sən!.

Yığıla, huri-mələklər gələ göydən, ayağıyla.
Dəyməz hüsnündəki vəsvə, gözəli, tək yenə sənsən.

Çəkirəm həsrətini, bax, yanıram eşqin oduyla.
Yandıran aşiqi, ey yar, naz ilə, min zövq ilə, sənsən..

Eytiyacım var sənə, gəl, eyləməsən dərdimə dərman..
Yazıb aləmlərə car eyləyəcəm ki, beləsən Sən!...

Ölsəm nə deyər el sənə, bu dərdin əlindən,
Qınamazlarmi, sevən bir ürəyin qatilisən sən!

Düşüb eşqinlə yanıb, şöləlenən bir şamam artıq,
Talehin qəlbində sənin bir məkanın var, biləsn sən!

*13 iyul 2014*

# Olsun

***(Haqverdi Dilxəstə ilə deyişmədən)***

Eşq-əhlinin eşq aləmi pünhan gərəy olsun.
Canana söz şairdən ehsan gərək olsun.

Gözəllik olmasa da, qəlbi təmiz ruhu pak olsun.
Dili bal, sözü şəkər, dosta mehriban gərək olsun.

Oxuyub gözlərini, qəlbinə yol tap gözəlin,
Eyhamdan anlamağa, arifi-ürfan gərək olsun.

Hərdən qoy alışsın o könül, bir gözəlin atəşinə,
Yanmağın öz dadı var, ortada hicran gərəy olsun.

Hər şair vəsv eləməz, könüldən pıçıltıları,
Sevgidən söz deməyə əsl qəzəlxan gərəy olsun.

Taleh elə sev, sevdiyinin qəlbinə yol tap necə olsa...
O yarın eşqi sənin, dərdinə dərman gərəy olsun.

*8 iyul 2014*

# Könül

Demədimmi verməy olmaz, hər vəfasız yara könül.
Bilmədinmi naşı olub, düşərsən azara könül!

Vermisənsə daş ürəkli , qədirbilməz bir gözələ.
Vəfasızın dad əlindən, neynəsin biçarə könül.

Oynayıb hisslərinlə, qismətini lal elədi,
Yazdı daş kitabına , eylədimi qarə könül.

Talehin ağlına sən, inanmadın, getdin ona.
İndi peşman olmusan, düşmüsən ah-zarə könül.

# Eyləyər

Dost bilmə hər yetəni  ürəyni qan eləyər.
Sirr vermə hər nadana aləmə bəyan eləyər.

Yaxşı gəlməz axırı şahla dostluq eyləyənin.
Gün gələr qəzəblənər, ölümə fərman eləyər.

Könlünü vermə könül, çoxdu sərvət ovçuları,
Könlünə sahib olar, sonra da viran eləyər.

Namərdlə deyib gülüb, ömrünü xərab eyləmə ,
Axıdar göz yaşını, gözündə giryan eləyər.

İnsan Allahdan əzəl, hesab verir vicdanına,
Pislik də yaxşılıq da eyləsə vicdan eyləyər.

Yorulmaz ürəyində bir ilahi sevgi olan.
Həqiqi sevən könül, dünyaya üsyan eləyər.

İnanma ey dili qafil gördüyün hər gözələ.
Yalnız haqq aşıqləri düz əhdi-peyman eləyər.

Göydəkində yoxdu günah, şeytan ona futva verər.
Nə günah varsa yerdə, hamsını insan eyləyər.

Edib ey Taleh o qız, eşqinə mubtalə səni.
Məhəbbət çox sevəni, şair-qəzəlxan eyləyər.

***Hörmətli İlyas Dağlaroğlu Abbasovun Məhəbbət Kəlbəcərsizə və mənə yazdığı şeirinə cavab:***

## Mən sənin yanında şair deyiləm

Mənə şair demə ay İlyas əmi,
Sən olan zamanda şair deyiləm.
Sənin əlindədi Bəhmən qələmi,
Mən sənin yanında şair deyiləm.

Hər ulduz tay deyil parlayan günə,
Burdan ulduzacan uzağam sənə.
Nə qədər yazsam da, pozsam da yenə,
Mən sənin yanında şair deyiləm.

Sözlərində laylay səsi, yuxu var,
Üst-başında Kəlbəcərdən qoxu var.
Mənim kimi şeir yazan çoxu var,
Mən sənin yanında şair deyiləm.

Yazdığınız söz tərəfə gedirik.
Açdığınız iz tərəfə gedirik.
Biz hələ də, siz tərəfə gedirk,
Mən sənin yanında şair deyiləm.

Qayaların sərtliyi var canında.
Bulaqların mayası var qanında.
Cəfəroğlu kimdi sənin yanında,...
Mən sənin yanında şair deyiləm.


CAVABLAR
VƏ
ÜNVANLI OLANLAR

*22 Avqust 2019*

***Şair Kərbəlayi Ümidə cavab:***

# A Kərbəlayi

Zildə də ağlaram, bəmdə də ağlar,
Sevincə naşıyam a Kərbəlayi.
Girovdu o mənim gəldiyim dağlar,
Bir ocaq daşıyam, a Kərbəlayi.

Varmı haqq sözünü üzə söyləyən,
Satqını bu yurddan qovub-teyləyən.
Bizi azadlıqda dustaq eyləyən,
Dövrana qarşıyam, a Kərbəlayi.

Belə yaşayışa dözmürəm düzü,
Mən necə götürüm bu qədər sözü?...
Görəndə həsrətdən ağlayan gözü,
Bax o göz yaşıyam, a Kərbəlayi ..

Özümü haqq üçün oda atıram,
Köməksiz görəndə dada çatıram,
Yıxılan görəndə onu tuturam,
Onun qardaşıyam, a Kərbəlayi.

Özümü korluğa qoya bilmirəm,
Elə qəm yeyirəm, doya bilmirəm.
Talehəm, gərdişlə uya bilmirəm.

Hələ də naşıyam a Kərbəlayi.

***Şair Məhəbbət Kəlbəcərsizə…***

## Məhəbbət

Elə bil ki sözlərinə bal qatıb,
Çiçəklərdən şirə çəkib Məhəbbət.
İlhamını çəmənlərə daşıyıb,
Bağ-bağatlı yerə çəkib Məhəbbət.

Əzizləyib həm sevinci, həm qəmi,
Sözləriylə vəsv eləyib aləmi.
Min gözəllik yaradibdı qələmi,
Əllərini pirə çəkib Məhəbbət.

Dostu bilib telli sazın simini,
Orda tapıb yaşamağın çəmini.
Bu dünyanın həsrətini-qəmini,
Ürəyinə görə çəkib Məhəbbət.

Cəfəroğlu, o şeytanı daşlayıb,
Haqqa doğru yolçuluğa başlayıb.
Qələmini zalımlara tuşlayıb,
Qılıncını şərə çəkib Məhəbbət.

*Şair dostum Məhəbbət Kəlbəcərsizə…*

## Bu şair

Bir az söz oynatdıq söz cıdırında,
Gördüm ayə, çox zirəkdi bu şair.
Ha yana çəkdimsə, kəsdi qarşımı,
Sözünü poladdan tökdü bu şair.

Dedim: hansı camdı, hər gələn içdi,
Dedi: o körpünü, sevənlər keçdi.
Dedim: gəraylı de, təcnisə keçdi,
Məni imtahana çəkdi bu şair !

Yalan danışmağın daha nə xeyri,
Bağladı Talehi, məntiqi, şeiri.
Düzü düz danışdı, əyrini əyri,
Həqiqət "qalası" tikdi bu şair !

*Ağcakənd-26.07.2019.*

***HÖRMƏTLİ BƏHMƏN VƏTƏNOĞLUNUN QARDAŞI, HÖRMƏTLİ ŞAİR, İLYAS DAĞLAROĞLUNA CAVAB.***

## Ay İlyas əmi

Ana laylası var şeirlərində.
Səsin doğma səsdi ay İlyas əmi.
Yad eldə isidən biz cavanları,
O isti nəfəsdi ay İlyas əmi.

Arzularım qalıb Kəlbəcərimdə.
Vətən həsrəti var dərdi-sərimdə.
Mənim Cəmillim də, Seyidlərim də,...
Hamsı müqəddəsdi, ay İlyas əmi.

Biz axı neynədik çərxi-fələyə...
Bizə oyun qurdu saldı kələyə.
Üz tutduq göylərdə əsən küləyə,
O da tərsə əsdi ay İlyas əmi..

Elimin xətridi sənin xətirin,
O eldən, obadan gəlir ətirin.
Kəlbəcər qoxuyur sözün-sətirin.
O Talehə bəsdi, ay İlyas əmi.

***Şair dostum Məhəbbət Kəlbəcərsizə...***

## Kəlbəcərsizin

Bilmirəm duz deyim, yoxsa bal deyim,
Dadından doymuram Kəlbəcərsizin.
Elimin dərdi var təxəllüsündə,
Adından doymuram Kəlbəcərsizin,

Qoymayın, qəlbinə dəyməsin naşı,
Vətən deyə-deyə ağarıb başı,
O yurda bağlıdı yadı, yaddaşı,
Yadından doymuram Kəlbəcərsizin

Dinəndə kamandı, neydi, sızlayır.
Deyirəm ay Allah, nəydi, sızlayır.
Bir qərib simlərə dəydi, sızlayır.
Udundan doymuram Kəlbəcərsizin.

Yandırır Talehi, lələ, yandırır,
Dağ çəkir elədən-belə, yandırılır,
Kəlbəcər həsrəti elə yandırır,
Odundan doymuram Kəlbəcərsizin.

*Şair Nəsib Qocalının məktubuna cavab.*

## Yaz..

Təbindən incimə ay Nəsib dayı,
Hərdən bir yada sal o dağlara yaz.
Əlini qaşının üstünə qaldır,
Zirvəni seyr elə, uzaqlara yaz.

Yəhərlə köhləni, qamcını götür,
Xəyal köhlənini yoxuşlara sür.
Yol azan yolçunu dumandan ötür,
Utanıb xal düşən yanaqlara yaz.

Get əyləş bulağın elçi daşında,
Çim, yuyun dağların o göz yaşında.
Gözlə bir gözəli bulaq başında,
İçdiyin buz kimi bulaqlara yaz.

Şair də küsərmi ilhamından heç...
Bu dəfə inadı bu Talehə keç.
Könlünə ismətli bir el qızı seç,
Bəzəksiz boyasız dodaqlara yaz.

# A molla

Neynirəm rəhməti öləndən sonra,
Sağ-sağ rəhmətimi göndər a molla.
Göstər haqq yolunu, Məkkə yolunu,
Üzünü qibləyə döndər a molla.

Durmur doğruların doğru tayında.
Gəl, dur bu millətin, ağla vayında.
Şeytan şahlıq edir şah sarayında,
Götürüb ölkəni cindər a molla.

Dərd çəkilməz olub, artıb dağ olub.
Başımız işləmir, balqabaq olub.
Bütün işlərimiz dal-qabaq olub.
Axırıncı gedir öndər, a molla.

Dayanıblar insanlığın qəsdinə.
Cəfəroğlu, bəlkə göydən qəsd enə...
Dönər bu dünyanın altı, üstünə,
Versə bircə dəfələngər, a molla.

*22 oktyabr 2019*

*Şair Nəsif Qocalının məktubuna cavab*

## Nəsif dayı

Hər məmur şərəfsiz olmur.
Dolaşdirma Nəsif dayı.
Şərəfsizi sərəfliylə,
Qarişdirma Nəsif dayı.

Gəlib çıxar sonumuza,
Vais olar qanımıza.
İt qurdu canımıza,
Daraşdirma Nəsif dayı.

Çək-cevirlə, vur-ha-vurla,
Gəda kişi olmaz zorla.
Tülküləri canavarla,
Dalaşdirma Nəsif dayı.

Sən çox yaxşı mərd kişisən.
Qürulusan, sərt kişisən.
Düşməninə dərd kişisən.
Çalış durma Nəsif dayı.

Qoyma səndə ağıl çaşa,
Qulluq eylə cana- başa.
Pislikləri gözə-qaşa,
Bulaşdirma Nəsif dayı.

Bağ becərib, bostan əkib.
Söz yaradıb Qala tikib.
Gəl Talehi nəzmə çəkib.
Dolaşdirma Nəsif dayı.

*12 fev. 2019*

# CANIMÇÜN- CANINÇÜN

Taleh Cəfəroğlu.

Nə deyib çıxmısan qarçıma mənim?
Erkək ürəyi var səndə canümçün..
Heç qorxun yoxdumu canında sənin?
Məəttəl qalmışam mən də canımçün.

Südabə İrəvanlı.

Qorxusuz həyatda bir dəfə ölür,
Qorxaqlar ölürlər gündə canınçün.
Aslanın erkəyi-dişisi olmaz.
Bunu ağlına tax sən də canınçün .

Taleh Cəfəroğlu.

Nazlanıb canımı yandırma, yaxma.
Dərdindən ölərəm, qıyqacı baxma.
Tərifədim deyə çox zilə çıxma.
Səni bağlayaram bəmdə canımçün.

Südabə İrəvanlı.

Alçaq təpələrdən uçmağa nə var,?
Yoxuşdan aşağı qaçmağa nə var ?
Uzaqdan əsməyə-coşmağa nə var?
Hamı xoruzlanır gendə canınçün.

Taleh Cəfəroğlu.

Bəlkə bir az danışasan, güləsən,
Sallanasan, görüşümə gələsən.
Talehi özünə həmdəm eləsən.
Başına dönərəm gündə canımcün.

Südabə İrəvanlı.

İnanma Südabə yolunu azsın,
Vadar eyləmə ki, quyunu qazsın.
Varsa qismətində qoy Allah yazsın,
Bacarmaz bu işi bəndə canınçün.

*16 dek 2018*

*Şair Əjdər Əslisafın şeirinə cavab*

## Satırlar

Ehh, təkcə budumu olan ay Əjdər,
Beş-altı dollara qarı satırlar.
Lüks otellərdə bazar açılıb,
Namusu tapdayıb, arı satırlar.

Aldanıb şeytana, sussayıb qana,
Qənim kəsilibdi insan insana.
Dirini sağ vaxtı gətirib cana.
Öldürüb ölüyə goru satırlar.

Yaxşıya xeyir də, duva da, puldu.
Bir kolun dibində yuva da, puldu.
Allahın verdiyi hava da puldu,
Qışın ortasında qarı satırlar.

Ay Taleh, insanlıq gözəlləşməyib,
Tamah at üstədi, hələ düşməyib.
Yaxşı ki Günəş də özəlləşməyib,
Yoxsa görərdik ki nuru satırlar.

*12 sentyabr 2018*

***Şair Xəlil Zeynalovun mənə ünvanladığı "Mən necə dözüm" şeirinə cavab.***

## Döz görək, şair

Bilirəm ağırdı yurd dərdi çəkmək,
Neyləyə bilərik döz görək şair.
Bu qədər həsrəti, bu qədər qəmi,
Dözüb daşımağa, diz gərək şair.
Döz görək, döz görək, döz görək şair..

İncidib ülkütmə kolda əliyi,
Çəməndə ceyranı, daşda kəkliyi.
Yada sal vəsv elə o gözəlliyi,
Yazıb-yaşatmağa, söz gərək şair,
Döz görək, döz görək, döz görək şair..

Fələyin hiyləsi yamandı qardaş.
Yolu dolaşıqdı, dunandı qardaş.
Qürbətə can vermə, amandı qardaş,
Yaşını yüz görək, yüz görək şair,
Döz görək, döz görək, döz görək şair..

Az qalıb bu hicran qəmi bitməyə.
O doğma vətənə-yurda getməyə.
Körpə balaları, tanış etməyə,
Tanış cığır gərək, iz gərək şair,
Döz görək, döz görək, döz görək şair..

*27 yanv 2018*

# Mən!

Dostlar soraqlayıb gəzməyin məni?
Bir ala gözlünün dustağıyam mən.
Süzdürüb gözünü, alıb canımı,
Bir gözəl cananın dustağıyam mən.

Könül sevib o bir gül üzlü sənəmi,
Atıb müjgan oxu, deşib sinəmi.
Toruna salıbdı göz-qaşı məni,
Onun sevgisinin ortağıyam mən!

Nağıldı, sehirdi, durub çaşmışam,
Bir şirin yuxudu, qabaqlaşmışam.
Elə bil qayıdıb uşaqlaşmışam,
Bu yaşda oyuncaq uşağıyam mən !

Olmuşam qonağı mərhəmətinin,
Uymuşam ətrinə, təravətinin.
Talehəm, o gülün məhəbbətinin,
Əriyən şamıyam, çırağıyam mən!

*6 yanv 2018*

# O hardan bilsin....

O hardan bilsin ki bir məhəbbətin,
Çovğunu nə dedi, qışı nə dedi.
O hardan bilsin ki onsuz həsrətin,
Gözlərindən axan yaşı nə dedi..

O hardan bilsin ki coşan dalğalar,
Sildi, daş bilmədi, qaya bilmədi,
O hardan bilsin ki köpüklü sular,
Tək onun adını yuya bilmədi.

O hardan bilsin ki onsuz olan gün,
Nə ömür sayıldı, nə gün sayıldı.
O hardan bilsin ki bir dəli könlün,
Sorağı aləmə, elə yayıldı..

O hardan bilsin ki, çəkildi getdi,
Talehin ömründən bahar da, yay da...
O hardan bilsin ki, yox oldu, itdi,
Talehin göyündən Günəş də, Ay da..

*1 noy 2017*

# Səni görmək üçün oyanıram mən!

Sən mənim ruhuma gələn sabahsan,
Səni görmək üçün oyanıram mən!
Pəncərəm önündə hər səhər-axşam,
Sənə baxmaq üçün dayanıram mən!

Xoşbəxti oluram xoşbəxtlərin də,
Yuxuma gələndə günün birində.
Qəribə insanam, səni görəndə,
Lalənin rənginə boyanıram mən..

Həsrətin şəkərə, noğula dönür,
Xəyalın ən şirin nağıla dönür.
Elə ki otaqda işığım sönür,
Gecənin qoynunda tək yanıram mən.!

Güldürüb günümə yaxın yadları,
Hərdən unuduram başqa adları,
Əziz bilib alışdığım odları.
Talehəm adını hey anıram mən !

# Sonra

***Şair İslam Əzimova***

Küsdü Cəfəroğlu səndən ay İslam,
Tezbazar yolüstü görüşdən sonra.
Bizim peykanlıya səfər eyləyib,
Xəbərsiz-ətərsiz gəlişdən sonra.

Adət var, dost gələr dostun evinə,
Qurbanlar kəsilər dost gəlişinə.
Bilsə bu el-aləm nə deyər mənə,
Bir quru salamla gedişdən sonra..

Dosta kef məclisi qura bilmədi,
Şairi söhbətlə yora bilmədi,
Yaxşı qulluğunda dura bilmədi,
Taleh nə düşünsün bu işdən sonra?

*3 sen 2017*

# Gəl qayıdaq gəncliyə

Gəl sənə şeir yazım, sözlərimə bəzək vur,
Gəl sən vəsv eyləyim, varaqlarda yaşadım,
Gəl sənə nağıl qurum, nağıllara aparım,
Gəl sənə nəğmə qoşum, dodaqlarda yaşadım.

Gəl səni qonaq edim, ürəyimin səsinə,
Dinlə pıçıltısını, könül arzularımın,
Gəl qayıdaq yenidən gəncliyin həvəsinə,
Tut əlindən, yeridək, şirin xəyallarımın..

Qoşul qaçaq əl-ələ, uzaqlara üz tutaq,
Ötüb gedən gəncliyi, uşaqlığı çağıraq,
Gəl bu yaşı gizlədək, gəl bu yaşı unudaq,
Gedək görüş yerinə, bəxtimizi gözləyək.

Gəl tutşaq əl-ələ, sən duman ol, mən külək,
Səni üzü zirvəyə, o dağlara aparım,
Yollarına səpilsin, qarşılasın gül-çiçək,
Səni güllər içində, bulaqlara aparım.

Gəl, Talehin sehirli, aləminə işıq saç.
Parla səmalarında, günəş kimi ay kimi.
Gəl, Talehin qəlbinin, qapısını geniş aç,
Tale verən payı ol, bir əbədi pay kimi,

*19 avg 2017*

# Yığ gətir

Sənə gülüş, mənə kədər yaraşır
Nə qədər qəmin var mənə yığ gətir.
Öyrəşmişəm qəm şələsin çəkməyə,
Nəyin varsa azdı yenə, yığ gətir.

Ya sev, ya at , taleyimi seç mənim,
Öldür, ya at, ürəyimə köç mənim.
Ya da bütün günahımı keç mənim,
Saçlarıma düşən dənə, yığ gətir.

Dözəmməzsən o çəkilməz dərdə sən.
Tək pənahım göydə odu, yerdə sən.
Sınağa çək, bir də yoxla, bir də sən!
Bu Talehi, dönə-dönə, yığ, gətir.

*19 iyun 2017*

# Ayrıl

Barı ayrılırıq, çıxıb gedirsən,
Səni sevdiyimi bil onan ayrıl.
Gətir gözlərimə titrək əlini,
Gözümün yaşını sil ondan ayrıl.

İkimiz bir olaq bir ürək kimi,
Qoxlayım qoxunu bir çiçək kimi,
Yenə qarşıma çıx bir mələk kimi,
İlk görüş yernə gəl ondan ayrıl.

Gəl, kəsim qurbanı qədəmlərinə,
Gəl, dözüm nazına, sitəmlərinə.
Gəl, yetsin qoy əhdim, vədəm yerinə,
Bircə yol üzümə gül ondan ayrıl.

Talehəm, taleyim oynayır mənlə,
Sevincim, qürurum gedibdi sənlə.
A zalım şərik ol, dərdimi dinlə,
Dərdini mənimlə böl ondan ayrıl.

*13 iyun 2017*

# Yenə görüşünə gəldi bu sevgi

Həsrətinə dayanmadı, dözmədi,
Yenə görüşünə gəldi bu sevgi.
O verdiyin zülümlərdən bezmədi,
Yenə görüşünə gəldi bu sevgi.

Sadiq olub dəyişmədi yolunu,
Yerdə səni seçdi göydə ulunu.
Açdı qucağını, açdı qolunu,
Yenə görüşünə gəldi bu sevgi.

Qoyma həsrətindən sınam a zalım.
Sənsən tək gül üzlü sonam a zalım,
Qınama Talehi, qınama, zalım.
Yenə görüşünə gəldi bu sevgi.

*6 iyun 2017*

# Bir də geri qayıtma...

Dönüb geri baxmadan, getdiyini xatırla.
Nağıllara qarışıb, itdiyini xatırla .
Mənə hansı zülmlər, etdiyini xatırla,
Qurban olum, getmisən, bir də geri qayıtma..

Cığırımdan-yolumdan, izini də silmişəm,
Yaddaşımdan-yadımdan, sözünü də silmişəm,
Üzünü unutmuşam, özünü də silmişəm,
Gözlərimdən itmisən, bir də geri qayıtma.

O zamandan gör neçə, aylar- illər ötüşüb?
Küsülülər barışıb, sevgililər görüşüb,
Gözlərimə tor gəlib, saçlarıma dən düşüb,
O yaşımdan ötmüsən, bir də geri qayıtma.

Yoxdu daha inamım, bir kəlmənə,sözünə,
Görmə bir də Talehi, heyran etmə özünə.
Çıxa bilmərəm sənin, qarşlaşıb üzünə,
Özgə bağda bitmisən, bir də geri qayıtma.
Qurban olum, getmisən, bir də geri qayıtma..

*27 may 2017*

## Götür məni itirdiyin yerlərə

Ürəyimi zincirə vur, qisas al,
Götür məni götürdüyün yerlərə.
Gecə ovut, səhər tezdən yola sal.
Gətir məni itirdiyin yerlərə.

Gəl aç apar gözlərimdən pərdəni,
Həsrətin say saçımdakı hər dəni,
Qaytar bir də görüş verib bəndəni,
Heykəl edib bitirdiyin yerlərə..

Yoluma çıx, yollarıma işıq saç,
Üstümə cum, qollarını genış aç.
Apar məni, xəyalınla götür qaç,
Vüsalına yetirdiyin yerlərə.

Hisslərimi dustaq eylə, dərdə çək.
Məhəbbəti gözlərimə pərdə çək.
Bu Talehi bir də sına, bir də çək.
Ayağına gətirdiyin yerlərə.

*24 may 2017*

## "Sən məni axtarma, gəzmə" demişdin

Yəqin dediklərin yadından çıxıb,
"Sən məni axtarma, gəzmə" demişdin.
Mən belə xoşbəxtəm güllər içində,
"Məni bu çəməndən üzmə" demişdin.
"Sən məni axtarma, gəzmə" demişdin.

"Get ağlayan göz ol, get axan yaş ol!
Get cansız bədən ol, get cansız daş ol.!
Get, özün bilərsən, qəmə yoldaş ol!
Ayrılığa döz, ya dözmə" demişdin.
"Sən məni axtarma, gəzmə" demişdin.

"Doğruya bənzədib yalan sevgini,
Salma ürəyimə talan sevgini.
Dəfn elə qəlbində olan sevgini,
Varaqlar üstünə düzmə " demişdin.
"Sən məni axtarma, gəzmə" demişdin.

Bax, indi bu Taleh ey vəfasız yar,
Səni unutmağa veribdi qərar.
Daha bu Talehi az ara-qaxtar,
"Məni oğrun-oğrun süzmə" demişdin
"Sən məni axtarma, gəzmə" demişdin.

*23 may 2017*

# Yolların üstə

Əlimdə bir dəstə Məhəbbət gülü,
Bitmişəm, durmuşam yolların üstə.
Qurbanam gəlmişəm sənə könüllü,
Boynumu burmuşam yolların üstə .

Sevən sevdiyini qıyıb kimsəyə,
Unutmaz deyirdin, unutdun niyə?
Bəlkə xatırlayıb tanıdın deyə,
Gəlib oturmuşam yolların üstə.

Sevgini əkmişəm, bağ yaratmışam.
Eşqini göylərə, tağ yaratmışam.
Talehəm, qəlbimdə dağ yaraymışam.
Qalalar qurmuşam yolların üstə.

*19 may 2017*

# Mələk deyirəm sənə...

Bülbül kimi vurğunam, sözlərinin ətrinə,
Lap yenicə açılmış, çiçək deyirəm sənə.
Öz adınla səsləyib, çağırmıram mən səni,
Mələk kimisən deyə, mələk deyirəm sənə.

Ruhumda yaşayırsan, canım kimisən mənim,
Ötüb gedən dəqiqəm, anım kimisən mənim.
Damarımda dövr edən, qanım kimsən mənim.
Qəlbimdə döyünürsən, ürək deyirəm sənə.

Varlığını ilahi, payıma bənzədirəm,
Hüsnünü baharıma, yayıma bənzədirəm.
Qəlbini bulağıma, çayıma bənzədirəm,
Talehəm, bu dünyamda, bəzək deyirəm sənə.
Mələk kimisən deyə, mələk deyirəm sənə.

*7 may 2017*

# Gedirsən...

***(Səni öldürüb gedəcəm şeirinə cavab)***

Səhər -səhər nə hədyandı, nə qandı?
Gözəl sona yenə qana gedirsən.
Kim pozub kefini, yaxşı deyilsən?
Kim dəyib xətrinə yana gedirsən?

Bunu açıq deyir baxanda göz, əl,
Məncə sevdiyini danırsan gözəl.
Nə hala düşmüsən yanırsan gözəl.
Bürünüb alovdan dona gedirsən.

Sevdin hansı səyi, ağıldan kəmi,
Kim düzdü yoluna həsrəti-qəmi,
Niyə yas yerinə gedənlər kimi,
Bürünüb qapqara dona gedirsən?

Açıq de, bir anlat Cəfəroğlunu,
Hansı bəxtəvərdi, sevmisən onu?
O kimdi dəyişdi sənin yolunu,
Ölüm arzulayıb ona gedirsən.

*5 may 2017*

# Bu gözəl

Gör neçə ürəyi daşa döndərib,
Gör neçə könülü qırıb bu gözəl..
Gör neçə can alıb baxışlarıyla,
Gör neçə könüldən vurub bu gözəl..

Söz atır eyhamla qandırır məni.
Qatır düşüncəmi, dandırır məni.
Naz edir, nazıyla yandırır məni,
Elə bil qəsdimə durub bu gözəl.

Nazlı gözəllərin başı olsa da,
Can alan kipriyi, qaşı, olsa da.
Sevgidən bixəbər naşı, olsa da,
Dolayıb Talehi qurub bu gözəl.

*4 may 2017*

# Mələklər sənə

Bu elin-obanın a gözəl qızı,
Təşəkkür eyləyir ürəklər sənə.
Bülbül nəğmə qoşur gözəlliyinə,
Baş əyir, diz çökür çiçəklər sənə .

Əzizi olmusan bizim ellərin.
Doğması olmusan saf könüllərin.
Aləmə səs salıb xoş əməllərin,
Tamaşaya gəlir mələklər sənə.

Atsın günü-gündən boy məhəbbətin,
Calansın qoluna toy məhəbbətin.
Qış ömrü görməsin qoy məhəbbətin.
Baharı gətirsin küləklər sənə.

Talehin ürəyi min arzu dolu.
Talehin tutduğu ədalət yolu.
Yazsın peşgəş etsin göydəki ulu,
Şirin xoş arzular, diləklər sənə.

*3 may 2017*

# Gəlmişəm barışaq

Gəlmişəm üzündən siləm kədəri,
Gəlmişəm könlünü alım mən sənin.
Gəlmişəm yanından qovum dərdləri,
Gəlmişəm, yanında qalım mən sənin.

Gəlmişəm baharın nəfəsi kimi,
Yox edim soyuğu yanaqlarından.
Gəlmişəm ilk eşqin həvəsi kimi,
Sevgi payı alım dodaqlarından .

Gəlmişəm qapına ümidimlə mən!
Gəl məni qapından boş yola salma.
Gəlmişəm dünyaya tək sənə görə,
Gəl məni qəlbimdə qış yola salma.

Gəl nazlı mələyim, anla dilimdən,
Götür aramızdan küsdüyümüzü.
Barış Talehinlə, yapış əlimdən,
Hamı qoşa görsün yenə də bizi.

*2 may 2017*

# Şair Yusif Hüseyinə

Qaymağı, yağıdı Kəlbəcərimin,
Qələmi bal kimi olandı Yusif.
Hikmətli sözü var, kəlamları var,
Elinin qeydinə qalandı Yusif.

Bir dərdli görəndə saralıb, solub,
Bir yazıq görəndə gözləri dolub,
Qəmli könüllərin həmdəmi olub,
Qəmli könülləri alandı Yusif.

Dostluğa möhkəmdi əhdi-ilqarı.
Dosta etibardı dövləti- varı,
Vəfalı dostları, yaxşı dostları,
Hər zaman yadına salandı Yusif .

Taleh, yaxşı bilir, yalan olubdu.
Dərdi ürəyinə, salan olubdu.
Kəlbəcərlə birgə talan olubdu,
Kəlbəcər çıxandan talandı Yusif.

*30 apr 2017*

# Qayıtma

***Şair Zakir (Xəlil) Zeynaolva cavab***

Gəlsən biz tərəfə ay Xəlil qağa,
Bu Talehi yoxlamamış qayıtma.
Kol dibində bənövşəni, nərgizi,
Sevə-sevə qoxlamamış qayıtma,

Çəməndə çiçəyin özündən öpüb,
Buzlu bulaqların gözündən öpüb,
Dağlara əl verib, üzündən öpüb,
Əhdi-peyman bağlamamış qayıtma.

Yolun düşsə bu dağların başına,
İnanmıram heç gəlməyə xoşuna.
Tamaşa dur torpağına, daşına,
Burda ayaq saxlamamış qayıtma.

Burda vətən havası var deyirlər,
Çox oxşayır vətənimə bu yerlər.
Burda təbə, cuşa gəlir şairlər,
Gəlib burda çağlamamış qayıtma .

Gəl qonaq ol bizə birində yazın,
Mat etsin bülbülü sözün, avazın.
Səsinə səs verib o telli sazın,
Ürəkləri dağlamamış qayıtma.

Əsir edib vətənimi şər dini,
Mat qoyubdu ellərimin mərdini.
Bu Talehin Kəlbəcərsiz dərdini,
Taleh ilə ağlamamış qayıtma.

*14 apr 2017*

# Ağlama gözlər…

Ağlayıb incitmə bu qədər məni,
Dözmürəm göz yaşın axanda sənin.
Qəmə qərq oluram, dərdə batıram,
Qəmli gözlərinə baxanda sənin.

Ağlama sən allah, ağlama bir də,
Məni göz yaşının selində qoyma.
Ağlayıb sinəmi dağlama bir də,
Mənə qəmi qıyma, kədəri qıyma.

Sənin gözlərindən axan hər gilə,
Od olub Talehi yandıra bilər.
Üzündə görünən adi qəm belə,
Buz olub Talehi dondura bilər.

*1 apr 2017*

# Xəbərim olmaz
*(Cavab)*

Çox getmə uzağa dumandı yollar,
Gözümdən itərsən xəbərim olmaz.
Çox çətin görünən kölgə kimisən,
Yanımdan ötərsən xəbərim olmaz.

Gəl qırma könlümə calanan simi,
Sonra qovuşmağın tapılmaz çəmi.
Qaçarsan nərgizim, bənövşəm kimi,
Dağlarda bitərsən xəbərim olmaz.

Zirvənin yağışdan içən vaxtıdı,
Selin dərələrdən keçən vaxtıdı.
Uçan durnaların köçən vaxtıdı.
Qoşulub gedərsən xəbərim olmaz..

Qıyarsan bilməyib, Talehə qəmi,
Dərdi oraq olar, həsrəti zəmi.
Gedib özgələrdən dilənçi kimi.
Məhəbbət güdərsən, xəbərim olmaz..

# Xəbərin olmaz

Kəsərəm yolunu dəli sel kimi,
Qəlbinə dolaram xəbərin olmaz.
Girərəm gizlicə dəli könlünə,
Könlündə qalaram xəbərin olmaz.

Hoparam hissinə, duyğlarına,
Qarışıb axaram arzularına.
Qandalı taxaram qanadlarına.
Sevgilin olaram xəbərin olmaz.

Demə qona bilməz toz ürəyinə
Basıb yandıraram duz ürəyinə.
Soyuq ürəyinə, buz ürəyinə.
Eşq odu salaram xəbərin olmaz.

Hər görüb keçəndə Talehi gendən,
Yağaram, saçına düşərəm dən, dən.
Əsir götürərəm ruhunu səndən,
Canından alaram xəbərin olmaz..

*15 dek 2016*

# Şeirdi

***Yusifin özü şeirdi...***

Bir qocaman dağdı, zrvədi Yusif,
Gülləsi şeirdi, sözü şeirdi.
Başdan-ayağa tək nəğmədi Yusuf,
Başdan- ayağacan özü şeirdi.

Çaya da qarışıb axsa, yaraşır,
İldırım da olub çaxsa, yaraşır..
O hansı tərəfdən baxsa yaraşır,
Dərəsi şeirdi, düzü şeirdi...
Şeirdi, Yusifin özü şeirdi.

Zalım da tanıtıb, fağır da görüb,
Yüngül də götürüb, ağır da görüb.
Yamac da adlayıb, cığır da görüb.
Gülləri vəsv edən gözü şeirdi,
Şeirdi, Yusifin özü şeirdi..

Taleh, çox məqamı tutan olmayıb,
Dərdləri dərdinə qatan olmayıb..
Yusifin şeirinə çatan olmayıb,
Nə olsun çoxu var, yüzü şeirdi,
Şeirdi, Yusifin özü şeirdi..

*25 okt 2016*

# Vəfasız oldun

Mən səni dünyamın sultanı bildim,
Sən məni dilənçin belə bilmədin.
Mən sənin eşqinlə ayağa gəldim,
Sən mənim yuxuma belə gəlmədin.

Səndən nə gözləyim, nəyimsən mənim?
Nə deyim soruşsa qohumum, yadım?
Deyimmi o mənim ölüm mələyim,
Onun kitabında başdadır adım?

Mənim ürəyimi oyuncaq edib,
Çatdığın ocağa atmadınmı sən!
Mənim mənliyimi aparıb gedib,
Doğmana-yadına satmadınmı sən!

Gəlmə, gəlişini səbəbi yəqin,
Bu cansız daşı da dağıtmaq olar.
Od vurub bir qəlbə, niyyətin sənin,
Bir könül mülkünü uçurtmaq olacaq.

İndi gəlməyinin nə mənası var,
Bir ürək varıydı yandı odunda.
İndi nə səsi var, nə sədası var,
Bir quru daş qalıb “Taleh” adında.

*26 dek 2015*

# İndi necə deyirsən "gəl eləcə dost olaq "?

Əvvəl məhəbbətinlə, həsrətinlə yaşadım.
Əvvəl xoş arzun ilə , niyyətinlə yaşadım.
Sənə sevgi bəslədim , hörmətinlə yaşadım.
Sənsə mənə verdiyin, qəm oldu qucaq-qucaq,
İndi necə deyirsən "gəl eləcə dost olaq"?

Qollarını boynuma, doladığın an hanı?
Məni canından əziz, bilib sevən can hanı?
Mənə "həyatım" deyən, sevgili-canan hanı?
Demirdinmi üşüsən, mən olaram od-ocaq?
İndi necə deyirsən "gəl eləcə dost olaq "?

Sənə qəlbən inandım, əhdi-peyman eylədim,
Ürəyimi eşqinə, verib qurban eylədim.
Hisslərimi yolunda , sərib viran eylədim.
Oxuduğun mən idim, sən açıb varaq-varaq,
İndi necə deyirsən " gəl eləcə dost olaq "!?

Məhəbbətin gözümdən, yaş kimi axdı getdi,
Gül kimi açdı gəldi, daş kimi çıxdı getdi.
Baharımı apardı, qış kimi çıxdı getdi ,
Eylədi bu Talehin , həyatını baş-ayaq,
İndi necə deyirsən, " gəl eləcə dost olaq "?

*21 avg 2015*

# Bax belə öyrət
***(cavab)***

Pıçılda sevgini qulaqlarıma,
Piçıldа sevgini dodaqlarıma,
Qoy gəlsin kədərim ayaqlarıma,
Sən mənə sevgini bax belə öyrət.

Qəlbimə sevinc ol, arzular gətir,
Ömrümə günəş ol, xoş bahar gətir,
Bu körpə sevgimə qanadlar gətir,
Sən mən sevməyi bax belə öyrət..

Yandır külə döndər, külümü qoy get.
Əlinin üstünə əlimi qoy get.
Mənə həsrət adlı zülümü qoy get..
Sən mənə sevməyi bax belə öyrət.

Gedəndə qəlbimdən səni qoparma,
Gedəndə Talehi qırıb aparma.
Gedəndə elə get, tufan qoparma,
Sən mənə sevməyi bax belə öyrət.

*3 iyun 2016*

# Taparsan
***(cavab)***

Salıb itirdiyin yerləri axtar,
Mənim ürəyimi orda taparsan.
Görərsən üşüyüb, görməyib bahar,
Dərddə qəmdə, ahu-zarda taparsan.

Harda sənlə adı qoşa çəkilmiş,
Bu eşqin qələmi daşa çəkilmiş.
Bəxti qara gəlib, qışa çəkilmiş,
Puça dönən arzularda taparsan.

Qıydın bu Talehə yar həsrətini,
İtirdi, tapmadı səadətini.
Onun sevgisini , məhəbbətini,
Sətirlərdə, mistalarda taparsan.

*11 noy 2015*

## Görərsən
***(cavab)***

Sənə canan demişəm,
Deyəcəyəm, görərsən,
Sürünərək dalınca,
Gələcəyəm, görərsən.

Aralıdan baxanda,
Gül ətri var yaxanda.
O ürəyə, yaxında,
Dönəcəyəm görərsən.

Çox çətindi, çətindən,
Sənin məhəbbətindən.
Mən bir gün həsrətindən.
Öləcəyəm görərsən...

*22 noy 2015*

# Yazdırır
***(cavab)***

Bəzən elə olur şeir yazanda.
Şeiri insana kədər yazdırır.
Coşur tufan kimi daşır çay kimi.
Qüssə qucaq açır, qəhər yazdırır.

Göy yaşı doyanda qəlbinə axıb.
Getməy istəyirsən dünyadan çıxıb.
Əlinə götürüb, dadına baxıb
İçə bilmədiyin zəhər yazdırır.

Gör dünya nə haldan, nə hala gəlmiş,
İndi başa gəlir xəyala gəlmiş…
İnsanın əliylə zavala gəlmiş,
Xaraba kənd deyir, şəhər yazdırır.

Düşür məhəbbətin dumanlığına,
Hərdən qonaq gedir, cavanlığına.
Hərdən də Talehin qaranlığına,
Boylanan günəşli səhər yazdırır..

# Gələrsən
***(cavab)***

Darıxma gözəl qız bu qışın ömrü,
Axıb suya qarışanda gələrsən.
Ağaclar keçəndə çiçək dövrünə,
Bülbül gülə qovuşanda gələrsən.

Dumanlar çıxanda göylərə yerdən,
Günəş boylananda pəncərələrdən.
Yaşıl yamaclardan, gen dərələrdən,
Sellər sular axışanda gələrsən.

Çiçəklər yoluna naxışlar vurub,
Eşqinə min arzu, min dilək qurub,
Sevənlər həsrətlə kənardan durub,
Bir-birinə baxışanda gələrsən.

Yuxusu qaçanda çəmənin, çölün,
Dili söz tutanda şeyda bülbülün.
Marallar bulağın , sonalar gölün,
Ətrafına yığışanda gələrsən.

Günləri, ayları talan Talehin,
Gözləri yollarda qalanTalehin,
Bu eşqi çarəsiz olan Talehin,
Taleyiylə barışanda gələrsən.

*21 okt 2015*

***Kəlbəcər rayonunun Cəmilli kəndində anadan olmuş, səfalı dağların suyundan içib, gözəl təbiətində gözəl zəngulələri ilə gözəllik qatan aşıq Telmana…***

## Alqışlayır

Heç kim bənzəməyir Aşıq Telmana,
Onu neçə-neçə dil alşqışlayır.
Tək ayrım dərəsi tərif eyləmir.
Azərbaycan adlı el alqışlayır.

Doymaq olmur o sehirli səs ilə,
Qonaq olur hər duyğulu könülə.
Bəmi utandırır yendikcə zilə,
Nə qədər yenirsə zil alqışlayır.

Ozan məclisində o, olan yerdə,
Sevinc də çox olur, qəm də, kədər də…
Gəzdikcə simləri pərdə və pərdə,
Pərdələr sevinir, tel alqışlayır.

Taleh, soraq gəzir obada, eldə,
Bülbül nəğməsi var dodaqda, dildə.
Elə cəh-cəh vurur çəməndə, çöldə,
Çəmən alqışlayır, çöl alqışlayır.
Telmanı hər yerdə el alqışlayır.

# Dünya

Görmədim ədalət, görmədim insaf.
Seçmədi yaxşıyla, yamanı dünya.
Əyrilər vermədi doğruya hesab.
Saymadı ilqarı, imanı dünya.

Ona fərqi yoxdu, ya şah, ya vəzir,
Boynunu burmağa bəhanə gəzir.
Qoyur zindanında, tapdayır, əzir.
Heç kimə verməyir amanı dünya.

Neynəyə bilərik, taleyə bağlı,
Bir ömür yaşadıq qaralı, ağlı.
Ötdü günlərimiz, ay Murovdağlı,
Geriyə qaytarmaz zamanı dünya.

Bizi qəmə saldı, qəm eyləmədi.
Xoş günü bir yerə cəm eyləmədi.
Nədənsə heç zaman kəm eyləmədi,
Talehin başından dumanı dünya.

*27 sen 2015*

## Taleh dəvət edir səni dağlara

Ay bahar nəfəsli duman çəkilib,
Bu yaz nəfəs gətir yeni dağlara.
Dağlar bəzənibdi gülə, çiçəklə,
Özü dəvət edir səni dağlara..

Nə rəssam, nə şair vəsv edə bilməz,
Belə bir gözəlik ölçüyə gəlməz.
Tanrı qüdrətiylə göstərib həvəs,
Özü çəkib qələmini dağlara.

Gəl tapaq bulağa sallanan yolu,
Bir yanı gün vursun, bir yanı dolu.
Qoy təqdim eyləsin bu Cəfəroğlu,
Bir dağların gözəlini dağlara.

*26 sen 2015*

# Salamlayır

***(Dağlarda bir görüş )***

Xoş gəlmisən Zaman müəllim,
Yollar səni salamlayır.
Bələnib lalə-nərgizə,
Dağlar səni salamlayır .

Hər qayası qüdrət olan,
Hər tərəfi cənnət olan,
Hər tarixi hikmət olan,
Diyar səni salamlayır.

Aşıq Yolçu sazla gəlib,
Bir şirin avazla gəlib.
Rəsul çörək -duzla gəlib,
Dostlar səni salamlayır .

Meh havanı əzizləyir,
Şeh, çiçəyi təmizləyir.
Hər tərəfdə nəğmə deyir,
Quşlar səni salamlayır

Vəfalı dostları görüb,
Taleh də ilhama gəlib.
Çiçəklərdən xalı sərib,
Bahar səni salamllayır.

*7 iyun 2015*

# Elə sevdim...

Həsrətin, ayrılığın, səni məndən almadı.
Xəyalın mənim oldu, bir an tənha qalmadı.
Mən özüm yaşa doldum, esqinsə qocalmadı,
Mən səni elə sevdim,
(mən səni elə sevdim)

Sətirlərimə köçdün, varaqlarda yaşadın.
Nəgmələrə qoşuldun, dodaqlarda yaşadın.
İki gözdə çağlayan, bulaqlarda yaşadın,
Mən səni elə sevdim,
(mən səni elə sevdim)

Əlim çatmadı deyə, ümidimi üzmədim.
Vüsalını gözlədim, hicranından bezmədim.
Bir həyan axtarmadım, bir özgəni gəzmədim,
Mən səni elə sevdim,
(mən səni elə sevdim)

Sən ulduz oldun deyə, mən gecəni yaşadım.
Sən keçib gedən oldun, mən keçəni yaşadım.
Yalnız səni düşündüm, yalnız səni yaşadım,
Mən səni elə sevdim,
(mən səni elə sevdim)

Razı qala bilmədin, dünyanın heç nəyindən.
Asılıdın bir daş kimi, bəxtimin ürəyindən.
Əllərimi üzmədim, sevginin ətəyindən,
Mən səni elə sevdim,
( mən səni elə sevdim.)

Talehin bu sevgisi, ürəyini dağladı.
Bu bir gözü güləndə, o bir gözü ağladı.
Bu ayrılıq daha da, məni sənə bağladı.
Mən səni elə sevdim,
(mən səni elə sevdim.)

*30 iyun 2019*

# Gələsi deyil

Özünü gəl yorma ay üzü nurlu,
Yaman yaxşı yola gələsi deyil.
Lap onun ömrünə bir ömür cala,
Onun da qədrini biləsi deyil.

Vəfasız nə bilir düz ilqar nədi…
Verilən söz nədi, etibar nədi..
O hardan anlasın həya, ar nədi,
Abrından utanıb öləsi deyil.

Taleh dərk eləyib işin düzünü,
Tülkülər göstərməz əsl üzünü,
Yaltaq, şah taxtına dikər gözünü.
Kişilik hər kəsin şələsi deyil.

*6 noy 2016*

# Gedirəm

Sonuncu görüşdü bu gəldiyimiz,
Di gəl ürəyini boşalt, qoy gedim.
Könlündən keçəni deyəndən sonra,
Dalımca bir qara daş at, qoy gedim.

Qəlbimi, ruhumu qıymışam sənə,
Ən böyük arzumu qıymışam sənə,
Şirin xatirələr qoymuşam sənə,
Onları özünlə yaşat, qoy gedim.

Görüşə çağırıb Talehi hər gün,
Görüşdün Talehlə gileyli, küsgün.
Şad ola bilmədin onunla bir gün,
Ol onsuz aləmdə di şad, qoy gedim.

*2 noy 2016*

## Demişdim
***(cavab)***

İnsafsız ovçunun gözünə baxma,
O səni tez salar tora, demişdim..
Könülsüz kiminsə könlünə axma,
Zorla girmək olmaz ora, demişdim.

O yollar həmişə çiçək bitirmir,
O yollar həmişə bahar gətirmir,
O yollar yolçunu sakit ötürmür,
Salır gədiklərə qara, demişdim..

Özünə inci tap, özünə ləl sev,
Tapdığın incinin köksünü dəl, sev.
Sevdinsə Talehi, əbədi gəl sev,
Ayrılıq yaraşmaz yara, demişdim.

# Öyrət mənə
***(cavab)***

Oduna yanmağı öyrədə bildin.
İndi, unutmağı gəl öyrət mənə.
Sevib,-vurulmağı, öyrədə bildin,
İndi də, atmağı gəl öyrət mənə.

Belə yuxu kimi, gözümdən itmə.
Belə kölgə kimi, yanımdan ötmə.
Məni haqsız yerə tərk edib getmə,
Günaha batmağı gəl öyrət mənə..

Yaşa, ürəyimdə, canımda yaşa,
Yaşa, dəqiqəmdə, anımda yaşa.
Qayıt, xəyalınla yanımda yaşa,
Səni yaşatmağı gəl öyrət mənə.

Gəl şirin yuxunu çin eylə gülüm.
Gəl gendən Talehə əl eylə, gülüm.
Mənə nə eyləsən sən eylə gülüm.
Arzuya çatmağı gəl öyrət mənə..
Ya, səni atmağı gəl öyrət mənə.

*27 apr 2016*

# Danışardın?

***(cavab)***

Özünün aparma günahsız kimi,
Bu günə düşsəydin sən danışardın?
Ürəyini alıb ürəksiz biri,
Bölsə o ürəyi tən, danışardın?

Biri min naz ilə yanından ötsə,
Verdiyin salama peşiman etsə,
Ürəyin gedənin dalınca getsə,
Saçlarına düşsə dən, danışardın?

Hər gün kədər çəksə telinə tumar,
Hər gün səni çalsa zəhərli şahmar.
Sən ona "can" desən o da zəhrimar,
Olub bircə qırıq şən, danışardın?

*18 dek 2015*

# Niyə mən?

Dolaşıbdı bu dünyanın kələfi,
Durammıram ürəyimə yiyə mən!
Yerdə əlac tapılmayır dərdlərə,
Şikayətə gedəsiyəm göyə mən!

Bir zamanlar həyatımda o vardı,
Son pənahım, son ümidim o yardı.
O da getdi, ümidlərim qutardı.
Onsuz ümid bağlayaram nəyə mən!

Cəfəroğlu, nədi ona xoş gələn,
Niyə sənsən hər əzaba tuş gələn!
Yaz olmamış həyatına qış gələn,
Bəs həmişə niyə mənəm, niyə mən!?

# Yuxu

Yuxuma gəlmişdin mənim bir gecə,
Əlini ovcuma daraqlamışdım.
Ulduzlar altında bir yaz axşamı,
Səni dəli kimi qucaqlamışdım.

Yuxuma gəlmişdin, o qədər yaxın,
O qədər əzizdin sən mənə o an!
Bəlkə də cənnəti görürdüm elə,
Durub dayanmışdı, donmuşdu zaman!

Yuxuma gəlmişdin mələkər kimi ,
Qollarım belini qucaqlamışdı.
Yuxuma gəlmişdim çiçəklər kimi,
Nəfəsim telini sığallamışdı.

Təbiət gülürdü, çiçəkləyirdi,
Bitib-tükənməyən arzular kimi.
Göylər üstümüzə nur ələyirdi,
Torpaq bəzənirdi bir bahar kimi..

Sona yetməyəydi o yuxular kaş,
O gün, o yuxudan oyananmayaydım.
Talehəm, həsrətə mən endirib baş,
Həsrətin qulu tək dayanmayaydım.

# Qayıt gəl

Taladı, dağıtdı, yıxdı dərd məni,
Bu qədər qəddarlıq etmə, qayıt gəl.
Dəli eyləyibdi məhəbbət məni,
Yad kimi yanımdan ötmə, qayıd gəl.

Gəl qırma yalançı qürurla məni,
Ölürəm, məzara hazırla məni.
Yanımdan keçəndə, xatırla məni,
Kölgə tək gözümdən itmə, qayıt gəl.

Qollarım darıxıb belindən ötrü.
Nəfəsim, darıxıb telindən ötrü.
Dodağım darıxıb dilindən ötrü,
Gedib özgə bağda bitmə, qayıt gəl.

Həsrətin qəddardı, sıxar Talehi,
Yoxluğun öldürür yıxır Talehi
Yoxluğun yandırır, yaxır Talehi,
Sən Allah uzağa getmə, qayıt gəl.

*8 iyun 2015*

# Yanım mən...

Bu həsrətin, bu hicranın odunda,
"Yan" demədin, bircə dəfə yanım mən!
Məhəbbətdən söz salanda yanında,
"Qan" demədin bircə dəfə qanım mən!

Ürəyimə axışınla üşütdün,
Çovğununla, yağışınla üşütdün.
Soyuq baxdın, baxışınla üşütdün,
"Don" demədin bircə dəfə dönum mən!

Sənə yaxın ola-ola yad oldum,
Sənin üçün quruca bir ad oldum.
Həsrətinlə atəş oldum, od oldum,
"Sön" demədin birdəfəlik sönüm mən!

Götürmədin bu Talehi məzara,
Bəlkə canım bu azardan qurtara.
Fərhad olum, Məcnun olum, daşlara,
Yon demədin, heykəlini yonum mən!

*31 may 2015*

# Çən olar

Çox güvənmə cavanlığın atına,
Zaman gələr, qaçar səndən, gen olar.
Bel bağlama bu dünyaya, dost deyib,
Çətin sənlə dostluğunda tən olar..

Tamaşa et səfasına dağların,
Qızın ılıq havasına dağların.
Bax, aldanma vəfasına dağların,
Qəfil çaşar, duman olar, çən olar.

Taleh zaman, öz hökmüylə yarışar.
Çətin haqqa, ya nahaqqa qarışar.
Yaltaq gülər, namərd şirin danışar,
İşi düşən qulluğunda şən olar..

*1 may 2015*

# Çiçək

Mən səni dərməyə tələsməyirəm,
Bağımda böyüyüb, boy atan çiçək.
Dərərəm, əlimdə sola bilərsən,
Mənim həyatıma rəng qatan çiçək.

Bəzənib, bürünüb yaşıla-ala,
Min yaraşıq verib yanaqda xala,
Boynu bükük durub, sığınıb kola,
Aləmə, dünyaya naz satan çiçək.

Bəsləyirəm səni gündə su töküb,
Qoxlayıram səni önündə çöküb.
Talehi sehirli ətrinə büküb,
Talehi eşqiylə yaşadan çıçək.

*14 apr 2015*

# Alqış..

Belə gözəlliyi, bu yaraşığı,
Sənə bəxş eləyən kəsə min alqış.
Tanrı qələmiylə sürmə çəkilən,
Bu cür qaşa alqış, gözə min alqış.

Görən könüllərə məhəbbət salan,
Sevən könülləri eyləyən talan,
Ay kimi parlayan, gün kimi yanan,
Yanağa min alqış, üzə min alqış.

Duruşu can alan, yerişi nazlı,
Başı kələğaylı, sinəsi sazlı,
O şirin ləhcəli, bülbül avazlı,
Nəğməyə min alqış, səsə min alqış.

*12 apr 2015*

# El dəlisiyəm

***(P. Zəngəzlu ilə deyişmədən)***

Ana dağlarıma min naxış vuran,
Mən çiçək dəlisi, gül dəlisiyəm.
Sözdən inci düzən, ilmələr vuran,
Mən dodaq dəlisi, dil dəlisiyəm.

Könüllərə dolub üşüdən qışam.
Yanaqlar aşağı süzülən yaşam.
Ay deyil, gün deyil vətənsiz daşam,
Əsir dəlisiyəm, il dəlisiyəm.

Yaz gələndə yaşıl dona bürünən,
Ətəyində dumanları sürünən,
Zirvələri vuran İldırımam mən,
Dağlara səs salan sel dəlisiyəm..

Talehəm taxtını itirmiş şaham.
Muğamda naləyəm, kamanda aham.
Şikəstəyəm, heyratıyam, segaham,
Bəm səsi neynirəm, zil dəlisiyəm.

*3 fev 2015*

# Pərvanə Zəngəzurluya.

İsit alovunla-odunla bacım,
Topla işığına Pərvanələri.
Sizdən ilham alsın, sizdən güc alsın,
Ozan sənətinin divanələri,

Sevinci, şadlığı gözlərə köçür.
Təbəssümü payla, üzlərə köçür.
Nəğmələrə köçür, sözlərə köçür.
Şirin xəyalları, düşüncələri ..

Yaz, Pərvanə xanım, o dağlardan yaz,
Səsinə-səs versin, əldə telli saz.
Vətən nəğməsiylə sevindir bir az,
Gözləri qürbətdə yol çəkənləri.

Çiçək nəfəsidi, qoxuyur ətir,
Yazdığın hər misra, yazdığın sətir.
Yaz-yarat, Koroğlu ruhuna gətir,
Vətən qeyrətini çəkməyənləri....

Sözündə Cavanşır obrazı yarat,
Dəmirçini yarat, Eyvazı yarat.
İgid , qəhrəmanlar dünyası yarat,
Xar eylə düşmənə baş əyənləri..

Həmişə səsiniz bax, belə gəlsin.
Yayılsın nəsildən-nəsilə gəlsin.
Axıb varaqlarda qoy dilə gəlsin.
Talehin qəlbində kiriyənləri...

*26 dek 2015*

## Tanrının işidi bu rəsm əsəri

Gəl sənə göstərim bizim diyarı,
Ətirli güllərə şehlərə qarış.
Adla zirvələrdən aş dərələrdən,
Sərin küləklərə, mehlərə qarış.

Gəl sənə göstərim bizim diyarı,
Gülərüz mehriban üzləri tanı.
Varaqla tarixin min illiyini,
Babanın qoyduğu izləri tanı.

Gəl bizə qonaq ol dağda bir gecə,
Səni qarşılasın səhərlər duman.
Günəş təbiətə qonaq gəlincə,
Səni salamlasın yamyaşıl orman.

Bax bu təbiətin gözəlliyinə.
Mən bunu yazmaqla, deməklə bitməz.
Nə qədər yazsa da bir şair ömrü,
Belə gözəlliyi yazmağa yetməz.

Gəl özün qonaq ol bu yurda dostum.
Zövq al təbiətin naxışlarından.
Dağlar bütünlüklə görsənə bilməz,
Hansısa rəssamın baxışlarından.

Gəl özün seyr elə gör bu tablonu,
Gör necə aparır düşüncələri.
Tək tanrı yarada bilərdi bunu,
Tanrının işidi bu rəsm əsəri.

# Ölürəm

Bu gözəllik ilahinin payıdı,
Dön mənə bax, qız amandı ölürəm.
Süzdürüb qaş altdan qara gözləri,
Çox eyləmə naz, amandı ölürəm.

Salıbdı toruna qurğun aşiqi,
Yorma yollarında yorğun aşiqi.
Bu biçarə, könlü vurğun aşiqi,
Qismətinə yaz, amandı ölürəm.

Bir vədə ver, ortalığa görüş qoy,
Tez qovuşsun vüsalına bu iş qoy.
Bal süzülən ləblərinə gülüş qoy,
Dünya olsun yaz, amandı ölürəm.

Qaşların oxdandı, kipriyin yaydan.
Camalın gözəldi günəşdən, aydan,
Ayır Talehə də o şirin paydan,
İnsafa gəl az amandı ölürəm.
Çox eyləmə naz amandı ölürəm.

# Verim mən!

Adi gül yaraşımaz gül əllərinə.
Sənə hansı gülü dərim verim mən?
Gəl səpim yoluna tər çiçəkləri,
Ayağın altına sərim verim mən.

Yar sinəmi, bir ürək var, dəl apar,
Bircə cana borcluyam, gəl apar.
Qurbanındı, ala, qurban bil apar,
Yetər camalını, görüm verim mən.

Canımı al o can alan baxışla,
Sonra gəlim günahımı bağışla.
Sözlərimi qoy bəzəyim naxışla,
Sözlərimlə sənə çələng hörüm mən.

# O qız..

Yolunda can verib qurbanı olsam,
Görəsən qədrimi bilərmi o qız. !
Başına dolanıb qadasın alsam,
Bircə yol üzümə gülərmi o qız. !

Bilsə ki olmuşam sağ ikən ölü,
Naləsi tutarmı çəməni, çölü?...
Əlində bir dəstə qərənfil gülü,
Qəbrimin üstünə gələrmi o qız !

Dilə gətirərmi daş sevgisini,
Görərmi gözümdə yaş sevgisini?
O qış ürəyinin qış sevgisini,
Nə vaxtsa mənimlə bölərmi o qız..

"Qarşına səcdəyə gəldi", desələr,
"Sevgini dərmanı bildi", desələr,
"Taleh həsrətindən öldü", desələr,
Talehin dərdindən ölərmi o qız.!

# Axı…

Yazmıram, nə yazım mən sənə indi,
Yazaram, yazımı pozarsan axı...
Gəlsəm əlimdə gül görüş yerinə,
Başqa tərəflərə yozarsan axı.

Bulanıb sel kimi, axıb gedərsən,
Göstərib üzünü, çıxıb gedərsən.
Yanaram, oduma baxıb gedərsən,
Sağ-sağ məzarımı qazarsan axı...

Gələrsən bir qərib səsdə könlümə,
Olarsan bir qəmli bəstə könlümə.
Talehəm a zalım, xəstə könlümə,
Dərmanı tapılmaz azarsan axı...

# Dayandır İlahi, dayandır məni..

Qıyma günahlara bu qədər batım,
Dayandır İlahi, dayandır məni.
Qıyma cəhalətdə bu qədər yatım,
Oyandır İlahi, oyandır məni.

Vicdan məhkəməsi, haqq divanı qur.
Yaxşıları qoru, tərəfində dur.
Etdiyim əməli düz üzümə vur,
Utandır İlahi, utandır məni.

İnsan zirvəsindən enməyə qoyma,
Varın əsirinə dönməyə qoyma.
Cəhənnəm atına minməyə qoyma,
Yubandır İlahi, yubandır məni.

Dünyanın bir əldə cəm olduğunu,
İnsanın əcələ yem olduğunu,
Xatırlat Talehə kim olduğunu,
İnandır İlahi, inandır məni.

# A Məmməd

***(Şair Məmməd Kərəmə cavab )***

Get-gəlinə saldı bu dövran bizi,
Çəkdi, imtahana çəkdi a Məmməd.
Didərgin eylədi düzü düzlərə.
Əkdi, səhralara əkdi a Məmməd.

Yığıb, qucaqladıq gələn dərdləri,
Öldürə bilmədik bu həsrətləri.
Dünya neçə-neçə məhəbbətləri,
Tikdi, arxivinə tikdi a Məmməd..

Neyləyək yaxşıya dəyən olmasın,
Haqqı-ədaləti-əyən olmasın.
Hərdən köməyə gəl deyən olmasın.
Təkdi Cəfəroğlu, təkdi a Məmməd.

# Başına dolandır

Bu fəqırdan kəm eyləmə sevgini,
Arada-bir yaz, başına dolandır .
Əsirgəmə çiçəyinin ətrini,
Eylə bir az naz , başına dolandır,

Say həmişə ürəyində "var" məni,
Qorxutmasın boran məni, qar məni.
Qoy ağlasın kaman məni, tar məni,
Dilə gəlsin saz, başına dolandır ..

Anla bir az cəfasını-cəbrini,
Sınağa çək duyğusunu- səbrini,
Yaxın eylə bu Talehin qəbrini,
Ürəyində qaz, başına dolandır.

# Gördüm..

***(Deyişmədən..)***

Daha istəmirəm yuxular görəm,
Çünki yuxuların pisini gördüm.
Ulu babaların a dağlar qızı,
Girov fəryadını, səsini gördüm.

Yuxu aynasıydı doğru acımın,
Yarası göynədi ağrı-acımın.
Şəhid qardaşımın, şəhid bacımın,
Torpağına çökən dizini gördüm.

Seçirəm ot olub, orman olmağı,
Daş olub vətənə qurban olmağı.
Daha istəmirəm insan olmağı,
İnsanların çılpaq üzünü gördüm.

Tökülməsə əgər, qana, qan dedim.
Talehəm, düzəlməz bu dövran, dedim.
Ana fəryadına yandım, can dedim,
Ağlayıb, qan tökən gözünü gördüm.

# İndi.
**(Musviq Meherremova.)**

Müşviq elə yazmısan ki,
Taleh durub ağlar indi,
Yada düşdü ömrümüzdən ,
Ötüb keçən çağlar indi.

Həsrəti var o çağların,
Odu sönən ocaqların .
Yorubdu ana dağların,
Gözlərini yollar indi ,

Bağlanıb ürəklərə daş,
Gözlərdə quruyubdu yaş.
Oralarsız keçir qardaş,
Toy-düyünlü, çağlar indi,

Ürəklər boşalıb, dolub,
Duyğuların rəngi solub,
Taleh, nənə-baba olub,
Ordakı uşaqlar indi,

# Batan kəsləri.

İlahi qeyrət ver, qeyrətə gətir,
Qeyrəti unudub yatan kəsləri.
Göstər ayıbını, cürətə gətir.
Üzünə örpəyi tutan kəsləri.

Şeytan azdıranda yolundan, tutub,
Qandır noxtasından, çulundan tutub.
Doğma anasını qolundan tutub,
Qocalar evinə atan kəsləri.

Qaytar özünə ver ötən yurdunu,
Parça-parça olub bitən yurdunu.
Qandır adam eylə, vətən yurdunu,
Yağı düşməninə satan kəsləri.

Göstər Talehə də işıqlı bir yol,
Qoy kökdən qurusun haqqı kəsən qol,
Tanrım , xilas eylə, xilaskarı ol,
Günah girdabında batan kəsləri.

# Sevgi mövzusu..

Daha məhəbbətdən yazan deyiləm.
Bitdi ürəyimdə sevgi mövzusu.
Qovuşa bilmədi öz arzusuna,
İtdi ürəyimdə sevgi mövzusu.

Uçdu kərpic-kərpic, söküldü lay-lay,
Çökdü xəyalımda qurduğum saray.
Oldu bir yuxuya, bir nağıla tay,
Getdi ürəyimdə sevgi mövzusu.

Bu dünya Talehi saldı felinə,
Qul etdi dünyanın bir gözəlinə.
Son görüş yerində son mənzilnə,
Yetdi ürəyimdə sevgi mövzusu.

# Dünya

Ömür keçib Zəngəzurlu,
Mənə indi qışdı dünya.
Sevinclərə kədər qatan,
Gözdən axan yaşdı dünya.

Baş açılmaz sirrlə dolu,
Möcüzədir sağı-solu.
Dolaşıqdı onun yolu,
Qorxudu, təlaşdı dünya.

Hiylə görüb, tələ görüb,
Ağa görüb, kölə görüb.
Cəfəroğlu belə görüb.
Davadı, savaşdı dünya.

# "Hara qoyum ürəyimi" şeirinə cavab.

Arzuların dil açmayıb,
Qundağa qoy ürəyini.
Bülbülə ver qoy oxusun,
Bir bağa qoy ürəyini.

Kövrələndə bulağa qaç,
Dərdlərinə olsun əlac.
Qanad çalan qartala aç,
Bir dağa qoy ürəyini.

Ötən günü yada salsın,
Göndər bizdə qonaq qalsın.
Çəmənlərdən ilham alsın,
Yaylağa qoy Ürəyini.

Çal, oxusun könül sazı,
Görsün Taleh əsil nazı.
Vətənə gəl vətən qızı,
Torpağa qoy ürəyini.

# Mənim

Vətən nisgili var, yurd həsrəti var.
Məhəbbət axtarma sözümdə mənim.
Sellər-sular axır, çaylar ağlayır,
Hər bahar gələndə üzümdə mənim.

Kimlər ki qəribdi, vətəni yoxdu,
Ona "yurdsuz" sözü, tənədi, oxdu,
Vallah beş qəpiklik dəyəri yoxdu,
Dünya kiççilibdi gözümdə mənim.

Hər səhər ümidlə durub yerimdən,
Xəbər gözləyirəm Kəlbəcərimdən.
Təsəlli alıram özgə birindən,
Özümü tapmıram özümdə mənim.

Düşmənlər eşidər gələr üstümə,
Ey təbib Talehə "xəstəsən" demə.
Dözürsə bu qədər həsrətə, qəmə,
Demək kəl gücü var dizimdə mənim.

# İnsan

Özgədən küsəndə yaşaya bilər,
Özündən inciyib, küsməsin insan.
Özgənin dərdini daşiya bilər,
Özündən yorulub, bezməsin insan.

Daşqına güc gələr, selə güc gələr,
Dağın da, daşlın da köksünü dələr,
Özgə küləklərə dayana bilər.
Özünün üstünə əsməsin insan,

Arzu tərk edibsə insan oğlunu,
Deməli  yaşamır, gəlibdi sonu,
Arzular ümidlər yaşadar onu.
Özündən ülfəti kəsməsin insan.

Qoy pisi, pisliyi alıb götürsün,
Dünya bəndəsinə sevinc gətirsin.
Taleh, arzum budu, çiçək bitirsin.
Bircə çiçəyi də, əzməsin insan.

# El kimi..

Qarışqa nər deyil fil meydanında,
Qopsa tufan kimi, əssə yel kimi.
Qarğa qızılquşun rəqibi olmaz,
Gəlsə qoşun-qoşun, gəlsə sel kimi.

Misin adı misdi, əzəl ya axır,
Nə vaxtsa üzünə çıxacaq paxır.
Onu tanımağa zərgəri çağır,
Qiymətə mindirmə hələ ləl kimi.

Kimsə qaça bilməz el qınağından,
Hər kəsi asarlar öz ayağından.
Qürbətdə xan kimi yaşamağından,
Yaşamaq yaxşıdı eldə el kimi.

Nazını çəksə də mini-milyonu,
Anan ola bilməz, gəl anla bunu.
Ana qayğısıyla səf salma onu,
Əl görə bilməzsən elə əl kimi.

Taleh qədirbilən qardaşın olsa,
Köməksiz olmazsan savaşın olsa.
Yanında vəfalı yoldaşın olsa,
Çəkərsən hər qəmi qoşub kəl kimi.

# Məni dərdə salmısan

Unuda bilməmişəm , bircə an da mən səni,
Ha yana getmişəmsə, xəyalımda olmusan.
Qəlbimə həkk etmişəm, surətini, rəsmini,
Əvvəl necə idinsə, eləcə də qalmısan,
Ay zalımın balası, məni dərdə salmısan.

Sənə ünvanladğım, suallarım cavabsız,
Nağıllarda yaşayan, xəyallarım cavabsız.
Belə nə qədər olsun arzularım cavabsız?
Dinib-danışmamısan, kirimisən, susmusan,
Ay zalımın balası, məni dərdə salmısan.

Bir meh olub əsmisən, bürkü tutan qəlbimə,
Hər vuruşu adını, deyib atan qəlbimə.
Talehəm, tək sən oldun, ocaq çatan qəlbimə.
Damla-damla süzülüb, ürəyimə hopmusan,
Ay zalımın balası, məni dərdə salmısan

# Bir məhəbbət kitabından
*(cavab)*

Hədər sürdüm həyatımı,
Kim eşidər fəryadımı.
Oxumadım öz adımı,
Bir məhəbbət kitabından.

Dər-qəm oldu dörd bir yanım,
Onsuz keçdi hər bir anım.
Qoy qurtarsın yazıq canım,
Bu məhəbbət əzabından.

Ürəyimdə sarı sim var,
Üzərimdə bir tilsim var.
Tək qanadla uçan kim var?...
Yaralıyam qanadımdan.

Taleh, sağalmaz azarım,
Gülşənimə yağıb qarım,
Küsüb gedib nazlı yarım,
Daha dönməz inadından.

# Könlümü al

Kefim yoxdu əziz dostum,
Bir yaxın dur, könlümü al.
Saqiyə de mey gətirsin,
Dərdlərimə çəkib sığal.

Sazda gəzib pərdə-pərdə,
Dincəlirəm könüllərdə.
Ümidlərdə, bəlkələrdə,
Uzaqlara uçur xəyal.

Ölüm gəlir qorxu-hədə,
Asda-asda yetir vədə.
Həyat sıxır məngənədə,
Dövran edir sorğu-sual.

Can qocalıb, qalıb yasda,
Örtə bilmir heç libas da,
Düşür vallah asda-asda,
Başa qırov, saqqala çal.

Görən böyük arzularla,
Sığarammı dar məzara…
Getsə Taleh bir gün ora.
Haqqınızı edin halal.

# Biri çıxa qarşıma
## *(Xuraman Camalqızına cavab)*

Cərgələnsə önümdə, min gözəli görməyəm,
Ürəyim onluq ola, başqasına verməyəm…
Sevəndə elə sevəm, bir daha itirməyəm,,
Fərhad olam qayalar, dayana savaşıma,
Könlümü diz çökdürən biri çıxa qarşıma .

Atəşində əriyəm, alovunda alışam,
Ürəyində yer tutam, hisslərinə qarışam,
Hər gün nazını çəkəm, əhvalını soruşam,
Cilvələnə naz sata, gəlmək üçün xoşuma,
Könlümü diz çökdürən, biri gələ qarşıma..

Baharın mehi olam, tellərində gəzinəm.
Gündə nazını çəkəm, güllərində gəzinəm.
Bələnəm gül ətrinə, nəfəsində gəzinəm.
Qocalıqdan utanıb, deyinməyəm yaşıma,
Könlümü diz çökdürən biri gələ qarşıma .

Dağlar ucalığından, qürurundan pay verə.
Günəş təbəssümündən, Ay nurundan pay verə.
Tanrı Cəfəroğluna eləsini tay verə,
Sirli bir aləm kimi, sığına ağuşuma,
Könlümü diz çökdürən biri çıxa qarşıma .

# Qış kimi

Vaxt vardı oduna yanırdım sənin,
İndisə gəlmisən qarlı qış kimi.
Ha yana çəkildi şən gülüşlərin?
İndi dərdin yağır bir yağış kimi..

Günah dənizimsən batmağım olmur,
Sənə qovuşmağım, çatmağım olmur.
Səni unutmağım, atmağım olmur,
Qəlbimə dolmusan bir qarğış kimi..

Aramızı vurub aranı qatmış,
Bizi sevməyənlər arzuya catmış..
Adın asılıbdı ay adı batmış,
Talehin qəlbində qara daş kimi..

# Dostlarıma…

Kababı çəkəsən əmliy ətindən,
Yanında dostların cağbacağ ola.
Qəm- kədər döyməyə dost qapısını,
Həmişə toy-düyün, kef-damaq ola.

Pis gözə gəlməyə, nazar görməyə,
Canı sağlam ola, azar görməyə.
Dostların ürəyi qubar görməyə,
Həmişə, hər zaman canı sağ ola.

Toy-düyün çaldıra, əyləncə görə.
Nəvə qucaqlaya, nəticə görə.
Qoçalıq taxtında kötücə görə,
Bir kökü boy ata min budaq ola.

Talehin cibi də tanıya dollar,
Bu kasıb komama açıla yollar.
Gələ bizə qonaq nə qədər dost var,
Dostların yanında üzüm ağ ola.

# Öz arasında

Həyatı, ölümü paylaşıb-bölüb,
Allahla əzrail öz arasında.
Hər kəsin tutulub əməl dəftəri,
Mələklər eyləyib söz arasında.

Biz də köçəriyik qəbir dünyaya.
Ötəri qonağıq bu bir dünyaya.
Hamı yol gedəcək o bir dünyaya,
Sirat körpüsü var düz arasında.

Taleh Cəfəroğlu uyma şeytana,
Havayı şöhrətə, quru ad-sana.
Bil ki, çox yaxındı ölüm insana,
Durubdu qaş ilə göz arasında.

# Görüş yerinə gəl

Görüş yerinə gəl, görüşək bir gün,
Aylı bir gecədə, bir yaz axşamı.
Bizə şahid olsun xəyallarımız,
Mələklər göylərdə yandırsın şamı.

Görüş yerınə gəl, gəlinlik geyin,
Ulduzlar bəzəsin otağımızı.
Quşların səsiylə edək toy-düyün,
Çiçəklərdən sərək yatağımızı.

Görüş yerinə gəl, hər addımında,
Sevən ürəyimə döyüntü gətir.
Küləklər telinin tumarı olsun,
Buludlar başının üstünə çətir.

Görüş yerinə gəl,görüşək bir gün,
Sanki min illərin ayrısı kimi.
Daha dolanmayaq ayla günəşin,
Ürəyində qalan arzusu kimi.

Görüş yerinə gəl, tanış eyləyək,
Ayrılıq öldürən məhəbbətləri.
Bir yolluq unudaq, suya söyləyək,
Talehdən etdiyin şikayətləri.

***Şair Haqverdi Dilxəstənin şeirinə cavab.***

## Dostum

Amandı gəl puldan söhbət açmayaq.
Pul xarab edibdi milləti dostum.
Pul ilə dostluqdan aralı duraq,
Uzaq gedir pulun minnəti dostum.

Pul çomaq deyilmi şərəfsizlərə?
Pul dayaq deyilmi ədəbsizlərə?
Pulsuz çıxa bilmir molla minbərə,
Pul minib çapmırmı qeyrəti dostum?

Çox da tülkü taxır canavar dişi,
Qarğa da sayılır ət yeyən vəhşi,
Erkəyin altında kişnəyir dişi,
Adamın tökülür lap əti dostum.

Qızıl sarayları əbədi sayma.
Şairsən, şairlik adına qıyma .
Sən allah amandı, yaxına qoyma.
Pulun gətirdiyi şöhrəti dostum.

Qalıb ədalətin gözündən uzaq,
Pulun üzərində ucalan alçaq.
Səbr elə, hər şeyi zamana burax,
O özü verəcək qiyməti dostum.

Taleh haqqa gedir, haqqa can atır.
Yolunda savablar, günahlar yatır.
Əli çox uzundu, hər yerə çatır,
Böyükdü allahın qüdrəti dostum.

# Gedər astaca..

Ömür əsib gedən küləyə bənzər,
Sürüşər asdaca, gedər asdaca.
Dayanmaz heç zaman saatlar, anlar.
İnsanı izləyər, güdər asdaca.

Gələndə qurular toyu-büsatı,
Gedəndə deyilər ağı, bayatı.
Torpağa qarışar insan həyatı,
Çürüyər asdaca, itər asdaca.

Taleh bir gün ömür çatar qaşları.
Qonşuların olar məzar daşları.
Qəbrinə tökülən o göz yaşları,
Quruyar asdaca, bitər asdaca..

# Mən bir özgəninəm, sən bir özgənin

Nə gəlir əlimdən söylə gözəl qız,
Sənə pay düşməyir cavanlığımdan?...
Nə gözəl həyatmı vəd edim sənə,
Bu payız vaxtımda dumanlığımdan..

Nə ümid verim ki könlümü alsın,
Bir könül bağım var, talandı o da...
Mənə çox inanma, yadında qalsın.
Desəm ki sevirəm, yalandı o da...

Nə deyim könlünü oxşasın sənin,
Vermək istəmirəm yalan vəd sənə.
Mən bir özgəninəm, sən bir özgənin.
Desəm yalanım da dərd olar sənə.

Mənim bu yaşıma yaraşmaz axı,
Bir sevən ürəklə oynayıb atmaq.
Bir könül bağını viranə qoyub,
Tanrı dərgahında günaha batmaq.

Bağlama Talehə ümidlərini,
Əyməsin yolundan arzular səni.
Sən bir yaz gülüsən, dərilməmisən.
Gəl öz günahına batırma məni.

***Rahim Xudiyev: Yəni aftafa daşıyan, diplomat gəzdirən, üzə dirənən, adam güdən, qonşunu satan,adın "qanunsuzdu" qoyub kasıbın evin sökən və s. kimi iş yerləri.***

## Rahim Xudiyevə

Hələ nə görmüsən canım a qardaş.
Yenicə başlayır gədə dünyası.
Bunun arxasında çox işlər yatır,
Bununla bitmir ki hədə dünyası.

"Kişidir" sözünü demə alçağa.
Ondan qeyrətlidi, bir halal dığa.
Namərdin, nakəsin dini yox qağa,
Nə allahı olub, nə də dünyası..

Günahı böyükü biz insanların,
Çox üstünü örtük nahaq qanların.
Bilmirsən, bildiyin bu naqanların,
Dünyanı da udar mədə dünyası.

İnam da, ilqar da dəyibdir daşa,
Nə dostuna inan, nə də qardaşa.
Yoxdu Cəfəroğlu, gedib birbaşa,
Kişilik dünyası, dədə dünyası.
Çoküb insanlığın vədə Dünyası..

# Sevindir məni

Barışa bilmirəm bu yoxluğunla,
Qayıt, gəlişinlə sevindir məni.
Canımı yandırma bu həsrətinlə,
Şirin sözlərinlə gəl dindir məni.

Çətindimi bunu bilməyin axı…
Başqa adı olmur ölməyin axı.
Nə yaman gecikdi gəlməyin axı.
Ölürəm, məzara gəl endir məni.

Ya gətir Talehin xoş xəyalını,
Ya sil yaddaşımdan boş xəyalını.
Ya da, gəl yaz eylə qış xəyalını,
Bahar nəfəsinlə, bəzəndir məni..

# Sev gözəlim

Onda məni dolu kimi,
Tufan kimi sev, gözəlim.
Onda məni dəniz kimi,
Ümman kimi sev, gözəlim.

Cağla mənim ürəyimdə.
Qoy çin olsun arzularım.
Dünya gülsün gözlərimdə,
Qanadlansın xəyallarım..

Talehindən kənar durub,
Talehinə vermə qəmi .
Gəl gəzək əl-ələ tutub,
Sənlə qoşa bu aləmi.

# Haradasan Allah?

Harada qalmısan, harada, allah,
Bizi qurd-quş yeyir burada, allah
Adamlıq, kişilik olmayan yerə,
Tüpür bu dövlətə, vara da Allah.

Kasıbı, fəhləni bitirir qanun,
Milləti, sonuna gətirir qanun,
Pərdəni aradan götürür qanun,
İndi pul alırlar gora da, Allah.

Dur ağla kasıbın yesir gününə,
Bax bu millətinin əsir gününə.
Pul qoy büdcələrin kəsir gününə,
Həsrətik dağdakı qara da, Allah.

Siçovul olublar, cibə cumurlar ,
Haqq haray salıbdı, qulaq yumurlar.
Adi fəhləliyə rüşvət umurlar,
Toyuq pulsuz çıxmır tara da, Allah.

Tox yeyir acları, adamlıq itir,
Namərd mərdi yıxır, talayır, gedir.
Talehəm, susmağın zamanı yetir,
Bir hökm imzala orada, Allah.

## Çıxıb demə mən də haa...

Şeytan don dəyişdirir, maskası üzdən düşüb,
Fırıldağı açılıb, yalanı gözdən düşüb.
Vəzifəsi köhnəlib, dərisi xəzdən düşüb.
Ehtiyatla dolanın, tək-tək çıxman kəndə haa...
Təzə qoçular gəlib, salar sizi fəndə haa..

Qarabağı neynirsiz, istəyirsiz almayın.
Bu gün, sabah düzələr, içinizə salmayın.
Yeyin, için, kef edin, kefinizdən qalmayın.
Uşaqları buraxman, polis durub tində haa...
Neçəsini basırlar, içəriyə gündə haa...

Gördün biri döyülür, nə işin var, görmə, qaç,
Lap belə qardaşındı, ona fikir vermə, qaç.
Tüpür yalın dabana, ayağını çirmə, qaç.
Yuyulmamış qaşıq tək, çıxıb demən "mən də" haa...
Ağrın alım şəkər qat, sal dilini qəndə haa...

Aşağıyla yuxarı, yaxınlarda dalaşıb,
Bir çoxunun əlləri, nahaq qana bulaşıb.
Taleh Cəfər qarışma, bu məsələ dolaşıb,
Yerdə çaşıb allaha, təpik atır bəndə haa...
Lazım gəlib çıxmayıb, tamaşa et gendə haa...

# Ayə

İndiki vəziyyət sən deyən deyil.
Sonrasını hələ bilmirəm ayə.
Daha eniş-yoxuş yorur dizimi,
Öhdəsindən gələ bilmirəm ayə..

Gülmə, əsəblərim tarıma gəlir.
Dünya sıxır məni, darıma gəlir.
Zarafat eyləmək, arıma gəlir,
Əvvəlki tək gülə bilmirəm ayə.

Kefdəsən, dalınca uşaq ağlamır.
Dükançı kartını girov saxlamır,
Bankomat verdiyi, bangı bağlamır,
Nisyələri silə bilmirəm ayə...

Müftə dağdan enmir əlik çəpişi.
Bağlar daha vermir qozu, kişmişi.
Xirtdəyinə girsin asetrin şişi,
Nə tikə, nə lülə, bilmirəm ayə..

Talehəm, gözünü tuşla gözümə,
"Sən öl"süz , "mən öl"süz inan sözümə.
Bu yalan "sən öl"ü az vur üzümə,
Sən öl sənsiz ölə bilmirəm ayə..

# Başından sənin
*(Cavab)*

Özünə hörmət qoy ay qoça baqqal.
Bu dəfə kecmədim yaşından sənin.
Ağıllı ol, bir ayağın gordadı,
Torpaq iyi gəlir başından sənin.

Bir gün düşüb o dilinin oduna.
Gedəcəksən yerli-dibli badina.
Ləkə yaxma şairliyin adına,
Get yeyək halvandan aşindan sənin.

Dəryaya baş vurma, səninki göldü.
Tünlüyə girişmə, səninki çöldü.
Öl, deyək gorbagor şərəfsiz öldü,
Bir söyüş də asaq daşından sənin.

Adamı ağladıb mələr qoyarlar,
Sonra da ağ sərib qara yuyarlar.
İti sahibinə görə sayarlar,
Keçmirəm hələ ki bosundan sənin

Qartal dimdiyindən bir tikə salar
Qartalın ovuna qonar qarğalar.
Həcv yazma bu Talehə, pis olar,
Çıxmasın öyüdüm huşundan sənin.

# Ana

***(Dünyasını dəyişən gənc dostumun diliylə)***

Bu taleyi bəxti qisməti mənə,
O yazan fələyi qarğışla ana.
Səni gözü yaşlı qoyub gedirəm.
Sən Allah oğlunu bağışla ana.

Toplasın vayıma ağır elləri.
Qoy çəksin nazımı ana əlləri,
Sula məzarımda açan gülləri,
Gözündən tökülən yağışla ana.

Gör kim bu fələklə bəxtlə yarışıb?,
Əzrail qurduğu işə qarışıb.
Burda yatanların hamısı barışıb,
Taleyin çəkdiyi naxışla ana.

# Xına qoyub gələrsən

Nə vaxtsa rastlaşırıq döngələrin birində.
Ağaran tellərinə xına qoyub gələrsən.
Nə vaxtsa yolum düşər, küçənizdən keçərəm.
Onda qonşularından xəbər duyub gələrsən.

Onda olarıq həmdəm, əllərim əsə-əsə.
Yapisaram əsamdan, görüşünə gələrəm.
Danışaram hər şeyi sözünü kəsə kəsə,
Yolların ayrıcında sənə uğur dilərəm.

Nə vaxtsa qismət olar yollarımız kəsişsə.
Məni baxışlarimin qəmindən taniyarsan.
Nə vaxtsa bu baxışlar baxışınla görüşsə
Bu Talehi indi yox bax onda qınayarsan.

# Gülər üzlüm

Gözümün önündən uzağa getmə,
Hər gün yanımda ol, gəl, gülər üzlüm.
Axşam da mənim ol, sabah da mənim,
Sevən ürəyimi bil, gülər üzlüm.

Bir divin sığıbsa şüşəyə canı,
Sındır, qoy qurtarsın, az onu yanı.
Məni bu sevginin qurbani tanı,
Sən də bu sevgiyə uy, gülər üzlüm.

Talehəm, mən sənə belə uymuşam,
Səni bir qanadlı Mələk saymışam.
Yolunda bu boyda ürək qıymışam,
Sən bircə kəlmənə qıy, gülər üzlüm.



# DEDİM-DEDİ

# Dedim-dedi

Dediim -sənə vurulmuşam,
Sevgi oyuncaqdı? dedi.
Dedim- Fərhadın olmuşam,
O biçarə sağdı ? dedi

Dedim- Məcnunam biləsən…
Dedi - yəni sən dəlisən?
Dedim - gözəl sevimlisən.!
Səninki maraqdı, -dedi.

Dedim- nazlı Nigarım ol !
Dedi- çəkmirəm buna qol.
Dedim- yazım, baharım ol!
Bu hansı axmaqdı? -dedi.

Dedim- sən ocağım, pirim.
Dedi- ora deyil yerim
Dedim - sənə çiçək verim,
"Bu ki lap uşaqdı"-dedi.

Dedim- gözəl az naz elə,
Dedi- gümüş demə lələ.
Dedim - Tanrı yardım elə..
Hamıya dayaqdı - dedi..

Dedim - Taleh səni sevir.
Dedi- onu nahaq edir.
Dedim- Taleh küsüb gedir,
Get, qapı açıqdı -dedi.

*12 fev 2015*

# DEDİM- DEDİ

Dedim bir etiraf edəcəm sənə,
Vədəsi çatanda edərsən - dedi.
Dedim icazə ver gəlim qəlbinə,
Orda tənha qalıb bezərsən -dedi.

Dedim -kəm olubdu sevgidən payım.
Dedi -mənim sənə çatmaz harayım.
Dedim- gəl qəlbimi sənə bağlayım.
Bunu necəsinə deyirsən - dedi..

Dedim-sənə verim saf məhəbbəti,
Dedi-yanmaq üçün çalışma qəti.
Dedim-tələsirəm görüm həsrəti,
Bir gün sevilərsən, sevərsən-dedi.

Dedim-məhəbbətdən payım ol mənim.
Dedi- gəl əvvəlcə tayım ol mənim.
Dedim- baharım ol, yayım ol mənim.
Atəşimdə yanıb bişərsən -dedi .

Dedim- qoy əlinə toxunsun əlim,
Dedi - hər yetənə pay deyil eşqim.
Dedim -qoy Məcnuna bənzəyim, sevim,
Ay yazıq çöllərə düşərsən -dedi,

Dedim- qoy mən olum bir səhər mehi,
Dedi- gəl incitmə gül üstə şehi.
Dedim -sev, qurbanlıq istə Talehi,
Deyəsən bax buna dəyərsən -dedi..

*26 yanv 2015*

# DEDİM-DEDİ

Dedim gözəl, ülfət eylə mənimlə,
Mənə bir əlçatmaz arzusan, dedi!
Dedim gözəl , gəl qovuşaq səninlə,
Sən mənə bir şirin yuxusan dedi !

Dedim həsrətinlə can verirəm gəl!
Özünü öldürmə nahaqdan dedi !
Dedim mənimkisən sən axır-əzəl,
Baxmağın bəs edər uzaqdan, dedi !

Dedim camalında Günəş nuru var.
Çox yaxına gəlmə yanarsan dedi !
Dedim ürəyimdə min-bir arzu var.
Ona o dünyada çatarsan, dedi !

Dedim yaradana şikayətim var,
Ay yazıq Məcnundan betərsən, dedi !
Dedim tükənməyən məhəbbətim var.,
Mənimçün daşları çaparsan? dedi !

Dedim qaşın kaman, kipriyin oxdu,
Tərifini saxla çaşırsan , dedi!
Dedim çox gözəlsən, rəqibin yoxdu,
Artıq sərhədi də aşırsan dedi!

Dedim öldürəcək Talehi dərdin.
Ağlama , elə bil uşaqsan dedi!
Dedim bircə busə verib gedərdin,
Vədəsi yetəndə alarsan, dedi !

*23 yanv 2015*

# BAĞLAMA

O nədi mütləqdi, döyür hər qapı,
O hansı varlıqdı, kölgəsi yoxdu?
O, hansı geyimdi , görünmür sapı?
Onun tikişləri, ilməsi yoxdu.

O hansı aləmdi, onu sevirik?
Hər birimiz ora gedib, gəlirik.
O nədir ki, hər adama veririk?
O hansı qonaqdı, vədəsi yoxdu?

O nədir ki, dört tərəfi qaladı?
Həm xilasgar, həm də başa bəladı:
O nədir, bir ucdan qurub-yaradır,
Bir ucdan da yeyir, mədəsi yoxdu..

O nədir ki, qara dona bürünür,
Hər adamın arxasınca sürünür.
O nədir, hər gecə doğur-görünür,
Onun heç anası, dədəsi yoxdur..

O nədir ki yerdə də var, göydə də?
Girə bilir, ürəyə də, qəlbə də..
Peydah olur ocaqda da, pirdə də,
Allahı tanımır, qibləsi yoxdu..

O nədir ki, yeddi qatdan yuxarı,
Orda yanır, burda çıxır buxarı.
O nədir ki , göylərədi axarı?
O nədir ki, kəsir, tiyəsi yoxdur..

Nədi hey yığırıq, kisəsi dolmur,
Nə qədər paylasaq artır, azalmır?
O nədir axırda heç kimə qalmır ?
O nədir hey yanır, şöləsi yoxdur?

O nədir ki Taleh onu xoşlayır?
Qara salır, varaqları yaşlayır,
O nədir ki , könüllərdə yaşayır?
Onun başqa yerdə dünyası yoxdur..

*24 yanv 2015*

***Sudabə İrəvanlı -Taleh Cəfəroğlu.***

# "G Ö R Ü N M Ü R"

Sudabə İrəvanlı.

"O nədi ki,asılıdı havadan?,
Kəndiri görünmür,izi görünmür.
Bir dairə cızıb,yol açıb ona,
Bunu kim eləyib,özü görünmür?.

Taleh Cəfəroğlu.

O Günəşdi asılıbdı havadan,
Kəndiri görünmür, izi görünmür.
Bir dairə cızıb yol açıb ona,
Bunu Allah edib özü görünmür.

Sudabə İrəvanlı.

O hansı bulaqdı,qaynayır hardan?,
Qurtarır insanı dərddən-azardan.
O kimdi hamını çıxardır dardan?,
Çoxuna əl tutur,üzü görünmür.

Taleh Cəfəroğlu.

O zəm-zəmdi nazil oldu Məkkədən.
Onu içdi paklıq tapdı hər bədən.
Cəbrayıldı kimsə onu görmədən,
Çoxuna əl tutur, üzü görünmür.

Sudabə İrəvanlı.

O kimdi ki,əmr verdi haqq ona?,
Tabe oldu o, verdiyi qanuna,
Kimdi yazdı, imza atdı altına?,
Nə imzası, nə də sözü görünmür.

Taleh Cəfəroğlu.

Əzraildi, əmr verdi haqq ona,
Tabe oldu o verdiyi qanuna.
Tanrı Tale, qismət yazdı hər alna,
Nə imzası, nə də sözü görünmür.

# Təcnis

***( Deyişmə)***

Taleh Cəfəroğlu.

Hədəfi olmuşam qara gözlərin.
Az meylin deyəsən qanadı axı...
Məni öldürməkmi qəsdi-qərəzin?
Yaraşmaz hüsnünə "qan" adı axı...

Südabə İrəvanlı.

Həsrətin ay zalım, mən əsirindi.
Açmğın xeyri yox mənə sirr indi.
Sən azad bir quşsan, mən əsir indi.
Sınıqdı eşqimin qanadı axı...

Taleh Cəfəroğlu.

Dayanıb üz-üzə şər atma mənə.
Çəkmədim mən burda qan adı axı.
Məhəbbət qatili deyiləm mən ə
Kim deyib ki meylim qanadı axı?

Südabə İrəvanlı.

Od-ocağın sönüb yerin sərindi,
Görünmür başında ağıl, sər indi.
QƏlbini qarşıma gətir sər indi.
Tək uçmaz sevginin qanadı axı...

Taleh Cəfəroğlu.

Yaradıb gör necə yaradan göz, əl.
Açma hər sirrini yara, dan gözəl!
Ölər Taleh bu cür yaradan gözəl.
Qoyma, yaralarım qanadı axı...

Südabə İrəvanlı.

Mən cənnət bağıyam, tərsinə, sən dən.
Bax gör nə istəyir tər sinə səndən,?
Şair Südabənin tərsi nə səndən?
Niyə yaraların qanadı axı?

# BAĞLAMA

## SÜDABƏ İRƏVANLI- TALEH CƏFƏROĞLU

Südabə İrəvanlı.

Şair dostum, isbat eylə sən mənə.
Hansı güldü hansı bağda xar aldı?
O kimiydi "OL" deyildi var oldu?
O kimiydi gədiklərdə qar aldı?

Taleh Cəfəroğlu.

Şair dostum cavabını qoy verim.
Xarı Bülbül gülüdü o, xar aldı,
O Adəmdi, "OL" deyildi var oldu.
O Kərəmdi gədiklərdə qar aldı

Südabə İrəvanlı.

O kimiydi diri getdi cənnətə?
O kimiydi vəhl yetdi qüdrətə?
O kimiydi baş əymədi sərvətə?
Beşi yazdı, beşlik ilə ucaldı.

Taleh Cəfəroğlu.

O Musadı diri getdi cənnətə.
Məhəmməddi vəyhlə yetdi qüdrətə.
Nizamidi baş əymədi sərvətə.
"XƏMSƏ yazdı beşlik ilə ucaldı..

Südabə İrəvanlı.

O nədir ki görünməyir adı var.?
O nədir ki yeyilməyir dadı var.?
O nədir ki özü yoxdu odu var.?
O nədir ki ilahidən nur aldı?

Taleh Cəfəroğlu.

O Sevgidi görünməyir, adı var.
O vüsaldı yeyilməyir, dadı var.
O həsrətdi özü yoxdu, odu var.
O Günəşdi İlahidən nur aldı.

Südabə İrəvanlı.

Hansı yoldu, tutdu yolun Südabə?
Biləmmədi yolun sonun Südabə?
O nədir ki hər gün onun Südabə
Gəlişini bilə-bilə qocaldı.

Taleh Cəfəroğlu.

Ömür adlı yola gəldi Südabə,
Taleh, bilməz sonu nədi Südabə.
O ölümdü hey gözlədi Südabə.
Gəlişini bilə-bilə qocaldı.

TƏCNIS - BAĞLAMA.

Taleh Cəfəroğlu.

Səndən xəbər alım biləndər adam
Sənət aləmində birinci kimdi?
Kimi dara çəkdi odun sevgisi?
Zindanlar küncündə bir inci kimdi?

Südabə İrəvanlı.

Allah qurdu yeri-göyü, dünyanı
Sənət aləmində birinci odu.
Pərvanədi yandı odun eşqinə.
Yusifdi, zindanda bir inci odu.

Taleh Cəfəroğlu.

Kimlərə dedilər düz başa keç di?
Kimlər kitab yazdı düz başa keçdi?
Harda əyri sındı düz başa keçdi?
Şeytana daş atdı birinci kim di?

Südabə İrəvanlı.

Möminə dedilər, düz başa keç di.
"DÖRD" lər kitab yazdı düz başa keçdi.
Haqqın dərgahında düz başa keçdi.
İbrahim daş atdı, birinci odu.

Taleh Cəfəroğlu.

Göydə kəsilibdi o hansi bənddi?
O nədi doqquzu birinə bənddi?
Təcnis yaz Talehə tək bircə bənd di.
Cavab ver ay mənim bir incikim di.

Südabə İrəvanlı.

Sevgi də, nifrət də, göylərdə bənddi.
O simdi doqquzu mizraba bəddi.
Götür Südabədən bu üççə bənd di.
Sən oldun meydanda, birinci o du.

## ƏZİZ OXUCU SONDA OOĞLUM FUADIN İKİ ŞEİRİNİ DƏ SİZLƏRƏ ÇATDIRIRAM

## Anama

Anamı çox sevirəm,
O mənə çox əzizdi.
Onun mənə sevgisi.
Tükənməyən dənizdi.

Anam günəş kimidi.
O heç zaman yorulmur.
Ancaq mən qəmlənəndə.
Onun da kefi olmur.

Anam narahat olur,
Birimiz ağrıyanda.
Analar da ağlayır,
Balalar ağlayanda.

Ona görə baxıram,
Mən anamın sözünə.
İstəmirəm söz gələ,
Mənə görə üzünə.

İstərəm hər süfrəni
Mənim anam bəzəsin.
Bu dünyada analar.
Qoy anama bənzərsin

*Fuad Əsədzadə*

# Mənim arzularım

İstəyirəm əsgər olam.
Duram vətən keşiyində.
Qoy uyusun balacalar.
İsti, rahat beşiyində.

İstəyirəm həkim olam.
Tez sağaldam yaraları.
İstəyirəm ağlamaya,
Uşaqların anaları.

İstəyirəm polis olam.
Yaxalayam oğruları.
İstəyirəm rəssam olam.
Cəkəm gözəl arzuları.

İstəyirəm şair olam.
Anama şeir söyləyəm.
İstəyirəm pilot olam,
Vətənimi seyr eyləyəm.

İstəyirəm bənna olam,
Vətənimə qala tikəm.
Düşmənlərin izlərini,
Vətənimdən tezcə sökəm.

Sənətlərin hansı varsa.
Mən hamsını istəyirəm.
Bütün sənəti sevməyə.
Dostlarımı səsləyirəm.

*Fuad Əsədzadə*

# KİTABIN İÇİNDƏKİLƏR

Ön söz
Alın yazısı....................................................................4

*Qoşmalar*

Varıymış....................................................................11
Özünün başına dönüm bu elin....................................................12
Dar olsun....................................................................14
Ay vətən, gör səni nə günə saldıq..............................................15
Haaa....................................................................16
Faydası yoxdu....................................................................18
Ürəyim....................................................................19
Səf çəkir....................................................................20
Bala....................................................................21
Zamana məni....................................................................22
Gəncliyimə....................................................................23
Ay Murov dağı....................................................................24
Dağlara ....................................................................25
Kiriyən gördüm....................................................................26
Vur ha vurasan (Tərsnamə)..................................................27
Axı....................................................................28
Qızım....................................................................29
Çaş verir....................................................................30
Göndər....................................................................31
Goranboy dağları qonağın gəlib...............................................32
Sən də ver....................................................................34
Təpik tullasa....................................................................35
Bu dünyanın səbri yaman böyükdü.............................................36
Olmaz ....................................................................37

Necə dözdün? ....................................................................38
Ay qız.............................................................................39
Kəlbəcər..........................................................................40
Çəkər..............................................................................41
Əsir olan vətənim..............................................................43
Şahlar (Milli qəhrəman Şahlar Şükürovun xatirəsinə)........................................................................44
Ay ana.............................................................................45
Gördüm............................................................................47
Olmasın...........................................................................48
Yazılan şeir......................................................................49
Ay analar bayramınız mübarək! ..........................................50
Şərəfin olsun....................................................................51
Qız gözəlliyi.....................................................................52
Utansın (Şair İqbal İsmayılova)..........................................53
Hardan dəyib?...................................................................54
O yerdənəm mən!..............................................................55
Tərəf...............................................................................56
Qoymayın məni.................................................................57
İllərə verdim.....................................................................58
Sən demə.........................................................................59
Saxla (Şair Milli Daşqının gənc həyat yoldaşı rəhmətə gedəndə)......................................................................60
Satıldıq............................................................................61
Çıxardırıq ........................................................................62
Məmurlarına.....................................................................63
Dəlinə düşə......................................................................65
Demə...............................................................................66
Hərənin bir kökdə çalır zurnası...........................................67
Yekələnmədim..................................................................68
Cəmillinin.........................................................................69

Zatı xarablar....................................................72
Qazaxda axtar....................................................74
Mən! ....................................................75
Məzəli-məzəli....................................................76
Keçib....................................................77
Adiləşdi....................................................78
Götürmüşəm....................................................79
Qadın dünyası....................................................80
Bu gecə yuxuma Zəlimxan girib....................................................81
Kəpəz....................................................82
Övladlarıma....................................................83
Daş fələyin daşıdı....................................................84
Başını qatar....................................................85
Düzəl....................................................86
Göy göl....................................................87
Qıymasın....................................................88
Necə düşünürsən?....................................................89
Qürbət....................................................90
Köçəri Tərtərliyə....................................................91
Görüş yerinə gəl....................................................92
Məni....................................................93
Ver mənə....................................................94
Mən Allahdan necə narazı olum....................................................95
Ayrı....................................................96
Bilməz....................................................97
Yandı Xocalı....................................................98
Bu yaz....................................................100
İnsan....................................................101
Görüşə gəlmişdim, çıxıb gedirəm....................................................102
Ey insan....................................................103
Görüblər....................................................104

Ağlama ay ana(7 yaşlı körpənin diliylə...)........................105
Bu gün...............................................................................106
Ağlamağa qoymayın onu...................................................107
Bir də çıx yoluma, çıxdığın kimi.......................................108
Oyatma qafil.....................................................................109
Get daha............................................................................110
Düşdüm.............................................................................111
Dolanım gedim..................................................................112
Fələk.................................................................................113
Biz!....................................................................................114
Oğlum...............................................................................115
Aman deyib gəlmişəm........................................................116
Ölürəm..............................................................................117
Olmaz bizə küsülü qalmaq!................................................118
Umduğum budu.................................................................119
A dağların maralı...............................................................120
Bu sevgi.............................................................................121
Qürursuz sev......................................................................122
Götür məni itirdiyin yerlərə...............................................124
"Gəzmə" demişdin.............................................................125
Yolların üstə......................................................................126
Gördüm .............................................................................127
Bu gözəl.............................................................................128
Gəlin gətirəkmi sən bu kəndə? .........................................129
Gəl səni vəsf edim.............................................................130
O qız.................................................................................131
Arzular kimi......................................................................132
Mən bir özgəninəm, sən bir özgənin.................................133
Sən!...................................................................................134
Bu qız................................................................................135
Gəldi..................................................................................136

Üstə........................................................................137
Köçdü......................................................................138
Olmaz......................................................................139
Gedər astaca...........................................................140
Beləsən deyə...........................................................141
Öyrəşə bilmədim bu sənsizliyə..............................142
El kimi......................................................................143
Hardan biləsən.......................................................144
Xatirən kimi.............................................................145
Goranboydu bu.......................................................146
Həsrət çəkir.............................................................147
Niyə?.......................................................................148
Yad ürəyimdə..........................................................149
Çəkib.......................................................................150
Dayandır məni........................................................151
Bitər.........................................................................152
Sərib gedərdim........................................................153
Getdi o.....................................................................154
Gələrəm...................................................................155
Nə vaxtdı düşməyir iz Qarabağa.........................156
Çıxar........................................................................157
Yatan kəsləri...........................................................158
De, niyə baxdın?.....................................................159
Tək səni sevdi.........................................................160
Yanasan deyə..........................................................161
Boş əlindədi............................................................162
Bəxtim....................................................................163
Ayrılıq oxundu baxışlarında..................................164
Dağlar......................................................................165
Üzündən utan..........................................................166
Dağların...................................................................167

Gedirsən axı..........168
Çalışdı sevdi..........169
Dərd..........170
Gələr..........171
Çaş gedir..........172
A Məmməd bekara zamana gəldi..........173
Allah..........174
Sən ol..........175
Dağlara..........176
Satdı gədələr..........177
Göyçəsiz..........178
Taladı getdi..........179
Sən!..........180
Getdin..........181
Bilirəm..........182
Əllərin üstə..........183
Səni sevməyimin səbəbi budu..........184
Yaralamazdım..........185
Daha nə yazırlar mələklər üçün?..........186
Dəfn olunmuşam..........187
Qoru..........188
Söylə..........189
Daş qoya-qoya..........190
Yaşayammadı..........191
Şamın ömrünə..........192
Görüblər..........193
Əsl insan olaq..........194
Utanır..........195
Gərək verə..........196
Yavaş-yavaş..........197
Mələyin..........198

Gəraylılar.....................................................................199
Gözəl Bakım.....................................................................200
Gəl beləcə nağıllaşaq.....................................................................201
Qayıtmayıb.....................................................................202
Şəhidim.....................................................................203
Nə burdayam, nə ordayam.....................................................................204
Gözəl.....................................................................205
Sən qəlbimdən çıxan günü.....................................................................206
Havam ol.....................................................................207
Yaradana yar demişəm.....................................................................208
Qurban olum.....................................................................209
Dövranıdı.....................................................................210
Bir gözələ.....................................................................211
Dağlar.....................................................................213
İnciməz.....................................................................214
Aman sənnən.....................................................................215
Gözdən salıb.....................................................................216
Məhv elədin sən!.....................................................................217
İnciməzsən?.....................................................................218
Onsuz hələ yaşayıram.....................................................................219
Könül.....................................................................220
Gələm də, gəlməyən də var.....................................................................221
Yandım Allah.....................................................................222
Şəklini çək.....................................................................223
Mən kimin dəlisiyəm.....................................................................224
Bu gecə.....................................................................225
Bu dağları.....................................................................226
Yadımdadı (Cavab) .....................................................................227
Yeni il.....................................................................228
Güllər açıb gəlişinə.....................................................................229
Deyiləm.....................................................................230

Darıxmışam........................................................231
Naz eyləyir........................................................232
Divana bax........................................................233
A telli saz........................................................234
Sən bir incisən........................................................235
Azərbaycan!........................................................236
Bayrağım........................................................237
Sənin həsrətinlə........................................................238
Adısan hər arzunun........................................................239
Necə unudum səni?........................................................240
Ürəyimdə........................................................241
Yerdə qalmaz şəhid qanı........................................................243
Qurban mən olum........................................................244
Getmə........................................................245
Sellər olmaq istəyirəm........................................................246
Yatma daha........................................................247
Məndən döndərmə üzünü........................................................248
Divanilər........................................................249
Yazmıram........................................................250
Yaranmaz........................................................251
Söz gətirməz........................................................252
Abırdan gedər........................................................253
Qisməti yazılmayıb........................................................254
Qalmışam........................................................255
Yola ver........................................................256
Görmədim........................................................257
Var........................................................258
Xəbərin olmur sənin........................................................259
"Mən yekə şairəm" deyir........................................................260
Dayanmaz........................................................261
Sıxıldım........................................................262

**Təcnislər**

Ad günləri......273
Ad günün mübarək olsun......274
Ad günün mübarək......275
Gül götürüb gəlmişəm......276
Doğum günü......277
Həyat yoldaşım......278
Gətirmişəm......279
Ad günü......282
Yadıma düşdün......284
Yüz yaşayasan......285
Vətənpərvər şeirlər......286
Etinasız ötüb getmə......287
Heyif ana dilimə......288
And içmişəm......290
Əmr elə komandanım......291
Qələbəyə doğru......292
Mənə çatmır?......294
Gedirəm Əsgərliyə......296
Ağlama şəhid anası......298
Şiriyev Aydın......299
Goranboydu bu......300
Mənim əsgər qardaşım......301
Qanla tarix yazdılar......302
Yumdu şəhidlər......304
Dağlara......305
Nə vaxtdı düşməyir iz Qarabağa......306
Ana dağlar......307
Dağlarıma......308
Ey insanlar......310
Yaşıyammadı......311

Indi......312

*Qəzəllər*

Bu gün də......311
Olub......315
Gəlib......316
A zalım......317
Adam Allahlı olar......318
Başıma......319
Aşiqdi deyə......320
Mən ona yar demişəm......321
Gəl......322
Verib......323
Gecələr......324
Ölürəm......325
Beləsən sən!......326
Olsun......327
Könül......328
Eyləyər......329
Mən sənin yanında şair deyiləm......330

***Cavablar və ünvanlı olanlar***

A Kərbəlayi......332
Məhəbbət......333
Bu şair......334
Ay İlyas əmi......335
Kəlbəcərsizin......336
Yaz......337
A molla......338
Nəsif dayı......339
Canımçün-canımçün......340
Satırlar......342
Döz görək, şair......343

Mən!....................................................................................344
O hardan bilsin.....................................................................345
Səni görmək üçün oyanıram mən!.......................................346
Sonra.....................................................................................347
Gəl qayıdaq gəncliyə............................................................348
Yığ gətir................................................................................349
Ayrıl......................................................................................350
Yenə görüşünə gəldi bu sevgi.............................................351
Bir də geri qayıtma................................................................352
Götür məni itirdiyin yerlərə..................................................353
“Sən məni axtarma, gəzmə” demişdin.................................354
Yolların üstə..........................................................................355
Mələk deyirəm sənə..............................................................356
Gedirsən................................................................................357
Bu gözəl.................................................................................358
Mələklər sənə........................................................................359
Gəlmişəm barışaq..................................................................360
Şair Yusif Hüseyinə...............................................................361
Qayıtma..................................................................................362
Ağlama gözlər........................................................................363
Xəbərim olmaz........................................................................364
Şeirdi......................................................................................366
Vəfasız oldun..........................................................................367
Indi necə deyirsən “gəl eləcə dost olaq”? ...........................368
Bax belə öyrət.........................................................................369
Taparsan..................................................................................370
Görərsən..................................................................................371
Yazdırır...................................................................................372
Gələrsən...................................................................................373
Alqışlayır.................................................................................374
Dünya......................................................................................375

Taleh dəvət edir səni dağlara............................................376
Salamlayır (Dağlarda bir görüş)........................................377
Elə sevdim.........................................................................378
Gələsi deyil.......................................................................380
Gedirəm.............................................................................381
Demişdim...........................................................................382
Öyrət mənə........................................................................383
Danışardın?........................................................................384
Niyə mən?..........................................................................385
Yuxu...................................................................................386
Qayıt gəl............................................................................387
Yanım mən........................................................................388
Çən olar..............................................................................389
Çiçək...................................................................................390
Alqış...................................................................................391
El dəlisiyəm.......................................................................392
Pərvanə Zəngəzurluya.......................................................393
Tanrımın işidi bu rəsm əsəri..............................................394
Ölürəm...............................................................................395
Verim mən!........................................................................396
O qız...................................................................................397
Axı.....................................................................................398
Dayandır İlahi, dayandır məni..........................................399
A Məmməd........................................................................400
Başına dolandır..................................................................401
Gördüm..............................................................................402
Indi.....................................................................................403
Batan kəsləri......................................................................404
Sevgi mövzusu...................................................................405
Dünya.................................................................................406
"Hara qoyum ürəyimi" şeirinə cavab................................407

Mənim..........408
Insan..........409
El kimi..........410
Məni dərdə salmısan..........411
Bir məhəbbət kitabından..........412
Könlümü al..........413
Biri çıxa qarşıma..........414
Qış kimi..........415
Dostlarıma..........416
Öz arasında..........417
Görüş yerinə gəl..........418
Dostum..........419
Gedər astaca..........420
Mən bir özgəniməm, sən bir özgənin..........421
Rahim Xudiyevə..........422
Sevindir məni..........423
Sev gözəlim..........424
Haradasan Allah? ..........425
Çıxıb demə mən də haa..........426
Ayə..........427
Başından sənin..........428
Ana..........429
Xına qoyub gələrsən..........430
Gülər üzlüm..........431
Dedim-dedi..........433
Bağlama..........436
"Görünmür"..........438
Təcnis..........440
Bağlama..........442
Anama..........446
Mənim arzularım..........447

# Taleh Cəfəroğlu

# "ZÜLMƏTDƏN KEÇƏN İŞIQ"

**"Elm və Zəka"**
*Nəşriyyat-poliqrafiya müəssisəsi*

***Direktor:***
**Səbuhi Aslan**

***Dizayner:***
**Gülnar Süleymanova**

***Kompüter yığımı:***
**İrina Kazımova**

Bakı, Mətbuat prospekti, 529-cu məhəllə
"Azərbaycan" nəşriyyatı, III mərtəbə,
"Elm və Zəka" qəzeti redaksiyası
Tel: (012) 510-83-26; (050) 263-16-16

Yığılmağa verilib: 03.11.2019
Çapa imzalanıb: 14.12.2019
Şərti çap vərəqi 14. Fiziki çap vərəqi 16
Ofset çap üsulu. Əla növ kağız.